RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 257 (9712) 22 noyabr 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycan Dövlət Tərcümə Mərkəzinin və Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Dövlət Tərcümə Mərkəzi" publik hüquqi şəxs ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi" publik hüquqi şəxsin ləğv edilməsi ilə bağlı on gün müddətində zəruri tədbirlər görsün;

2.2. bu Sərəncamın 1-ci hissəsində və 2.1-ci bəndində nəzərdə tutulan publik hüquqi şəxslərin tərcümə və dövlət dilinin tətbiqi sahəsində funksiyalarının aidiyyəti dövlət orqanlarına (qurumlarına) ötürülməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. bu Sərəncamın 1-ci hissəsi və 2.1-ci bəndi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. bu Sərəncamın 1-ci hissəsində və 2.1-ci bəndində nəzərdə tutulan publik hüquqi şəxslərin ləğvi ilə əlaqədar onların istifadəsində olan dövlət əmlakı ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2024-cü il*

## İlham Əliyevin “yaşıl missiya”sı



Hazırda ölkəmizin əhalisinin 54,5 faizi şəhərlərdə, 45,5 faizi kənd yerlərində yaşayır. XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində yaşanan hadisələr, yeni iqtisadiyyatın tənəzzülü və düşmən tərəfindən torpaqlarımızın işğal olunması nəticəsində kəndlərimizdən şəhərlərə böyük axın olmuşdu.

Prezident İlham Əliyev keçən il sentyabrın 29-da Zəngilanda keçirilən 2-ci Azərbaycan Milli Şəhərsalma Forumundakı çıxışında bu məsələyə toxunaraq demişdir: "Bu gün hər kəs urbanizasiyadan danışır. Bizdə də bu mövzu var. Bizim bu problemimiz uzun illərdir yaşanır - insanlar bölgələrdən, kəndlərdən şəhərə can atır. Çünki şəhərdə daha çox iş yerləri, məşğulluq imkanları var və özləri üçün daha yaxşı şərait yaratmaq istəyirlər. Amma bu gün biz onun şahidiyik ki, Bakıdan, Sumqayıtdan, Gəncədən, Mingəçevirdən, digər şəhərlərdən kəndlərə axın baş verir. Bu isə ilk növbədə Azərbaycan xalqının öz Vətəninə nə dərəcədə bağlı olduğunu göstərir. Onlar öz vətənlərində, əcdadlarının vətənlərində yaşamaq istəyirlər".

Əsasən də dövlət başçısının "yaşıl enerji" zonası elan etdiyi, kəndləri və şəhərləri yeni konsepsiya ilə qurulan Qarabağ və Şərqi Zəngəzur yenidən məskunlaşır. Bakı, Gəncə, Sumqayıt kimi iri şəhərlərdə yaşayan keçmiş məcburi köçkünlər öz yurd-yuvalarına qayıdırlar.

Azad olunmuş şəhərlərə və kəndlərə yaxın üç ildə 140 min insanın köçürülməsi planlaşdırılır. Qarabağa və Şərqi Zəngəzura indiyədək 9000-ə yaxın keçmiş məcburi köçkün dönüb. Üstəlik, azad edilmiş ərazilərdə həyata keçirilən işlərdə 20 min nəfərdən çox insan çalışır. Qeyd olunan rəqəmləri ümumiləşdirsək, belə bir nəticəyə gəlmək olar ki, hazırda azad olunmuş ərazilərdə təqribən 30 min insan məskunlaşıb.

Ümumiyyətlə, bütün ölkə ərazisində sosial-iqtisadi cəhətdən inkişaf edən, abadlaşan, çiçəklənən bölgələrimiz getdikcə daha çox diqqət çəkir. İndi insanların kənddəki evini qoyub şəhərə iş, çörək dalınca gəlməsinə ehtiyac yoxdur. Odur ki, COP29-un urbanizasiya tədbirlərində Azərbaycan təcrübəsindən də geniş bəhs olunur.

→ 4

## COP29 insan kapitalının inkişafına mühüm perspektivlər vəd edir

Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin nailiyyətləri sırasında bu gün tarixinin ən qüdrətli mərhələsinə gəlib çatmış Azərbaycanda təbii resursların insan kapitalına çevrilməsi dövlətin ən mühüm hədəflərindən elan edilib. Bu da respublikamızın strateji planda gələcəyə yüksək həssaslıqla hazırlığından irəli gəlir.

Azərbaycan dövləti insan kapitalının inkişafı istiqamətində ardıcıl strateji addımlar atır. Dövlət başçısının qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirilir. Ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasından, illərlə inkişafımıza mane olan problemin uğurla həllindən sonra Azərbaycanın daxil olduğu yeni strateji dövrdə bu məsələ xüsusilə böyük əhəmiyyət daşıyır. Bu mərhələdə əsas hədəf rifah dövləti kimi həyat standartlarını daha da artırmaq, respublikanı bütün istiqamətlərdə dünyanın ən inkişaf etmiş ölkələrindən biri statusuna yüksəltməkdir. İnsan kapitalı bu amalın reallaşdırılmasında, ölkəmizin iqtisadi inkişafı və rəqabət qabiliyyətinin artırılmasında həyati əhəmiyyət kəsb etməkdədir. Ona görə də Azərbaycan dövləti insan inkişafına yönəlmiş tədbirləri getdikcə genişləndirir.

→ 10

## "Yaşıl Sumqayıt" İlham Əliyevin quruculuq missiyasının təntənəsidir

### Sumqayıt 75 illik yubileyini müasir və modern şəhər modelinin mükəmməl nümunəsi olaraq qeyd edir

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə də əvvəlki kimi Sumqayıta daim diqqət və qayğı göstərirdi. Bu qayğının nəticəsində Sumqayıt yenidən özünün dirçəliş dövrünə qədəm qoydu. 1993-cü il dekabrın 18-də Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti kimi ilk dəfə Sumqayıta gəlmiş, şəhərdə quraşdırılmış yeni telefon stansiyasının açılışında iştirak etmiş, Tarix muzeyində olmuş, "Şəhidlər xiyabanı" kompleksini ziyarət etmiş, şəhər icra hakimiyyətinin işçiləri ilə görüşərək tapşırıq və tövsiyələrini çatdırmışdı. Ulu Öndərin uzaqgörən siyasəti, tövsiyə və tapşırıqları şəhərin sosial-iqtisadi inkişafına böyük təkan vermişdi. Müstəqillik illərində Heydər Əliyev 6 dəfə Sumqayıtda olmuş, müxtəlif tədbirlərdə iştirak etmiş, şəhər ictimaiyyəti ilə görüşmüşdür. Bütün bunlar Ulu Öndərin Sumqayıta və sumqayıtlılara diqqətinin təzahürü idi.

→ 8-9

## *BMT-nin Baş katibi:* "G20 ölkələri liderlərinin sammitində COP29 gündəm mövzusu idi"

**"Rio-de-Janeyroda G20 ölkələri liderlərinin sammitində COP29 gündəm mövzusu idi". AZƏRTAC-ın məlumatına görə, bu sözləri BMT-nin Baş katibi Antonio Quterreş Bakıda keçirdiyi mətbuat konfransında deyib.**



O bildirib ki, sammit zamanı G20 liderlərini öz nazirlərinə və danışıqlar aparan şəxslərə COP29-da yeni iddialı iqlim maliyyəsi məqsədini təmin etmək üçün göstəriş verməyə çağırıb. "Liderlər konkret nailiyyətin vacibliyini vurğulayıblar. Nümayəndə heyətləri və COP sədrliyi ortaq dil tapmaq üçün çox çalışırlar. Lakin saat işləyir (vaxt gedir - red.). Razılaşma üçün niyyət hiss edirəm. Artıq uyğunlaşma sahələri açıq görünür. Əsasını maliyyə təşkil edən bütün razılaşdırılmamış məsələlərlə bağlı ambisiyalı və balanslaşdırılmış paket təqdim etmək məqsədilə son mərhələyə çatması üçün böyük təkan lazımdır. Uğursuzluq bir seçim deyil", - deyə o əlavə edib.

## Erməni lobbisinin dəstəkçilərinə Azərbaycan "dərs" verdi




44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbəmiz, regionda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri illərdir ki, Ermənistandan mənfur məqsədləri üçün istifadə edib regionda müharibə alovunu körükləyən böyük dövlətlərin, xüsusilə Fransanın qısqanclığına səbəb olub. Əsas işi regionda sülhə, əmin-amanlığa mane olmaq məqsədilə gərginlik yaratmaq, Ermənistanı silahlandırıb yenidən Azərbaycana qarşı müharibəyə təhrik etmək olan Fransa prezidenti Emmanuel Makron əvvəlcə iki ölkə arasında gedən sülh danışıqlarında "vasitəçi" qılığına girib prosesi pozmağa çalışdı. İstədiklərinə nail ola bilmədiyini gördükdə isə erməni lobbisinin sözçüsünə çevrilərək Azərbaycan əleyhinə aparılan çirkin kampaniyaya "liderlik" etməyə başladı.

→ 13

COP29
Baku
Azerbaijan

# Azərbaycan-Rusiya əlaqələrinə dair fikir mübadiləsi aparılıb



MDB Parlamentlərarası Assambleyasının (MDB PA-nın) Şura və 57-ci Plenar iclaslarında iştirak etmək üçün Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 21-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb. Həmçinin parlamentarilərimizin beynəlxalq təşkilatlarda, o cümlədən MDB PA çərçivəsində əməkdaşlıq məsələləri nəzərdən keçirilib.

*"Azərbaycan"*

# Azərbaycanla Belarus arasında münasibətlər dostluq prinsiplərinə söykənir

Milli Məclisin Sədri Sahibə Qafarova Rusiyanın Sankt-Peterburq şəhərində Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının Sədri Natalya Koçanova ilə görüşüb.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Azərbaycan və Belarus arasında münasibətlərin bütün sahələri əhatə etməklə, dostluq və qardaşlıq prinsiplərinə söykəndiyi qeyd edilib. Vurğulanıb ki, münasibətlərin inkişafında iki ölkənin dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlərin mühüm rolu var. Spiker Sahibə Qafarova ali və yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin və imzalanan sənədlərin əlaqələrin daha da dərinləşməsini təmin etdiyini diqqətə çatdırıb. Ölkələrimizin beynəlxalq təşkilatlarda da uğurla əməkdaşlıq etdiyi, beynəlxalq platformalarda bir sıra məsələlərdə bir-birinə qarşılıqlı dəstək verdiyi də bildirilib.

Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın mühüm bir istiqamətini təşkil edən parlamentlərimiz arasında münasibətlərin də hazırkı səviyyəsindən razılıq ifadə olunub.

Spiker Sahibə Qafarovanın cari ilin iyun ayında Belarus Respublikasına rəsmi səfəri və səfər çərçivəsində keçirilən görüşlər məmnunluqla xatırlanaraq qanunverici orqanlarımızın həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatlarında uğurla əməkdaşlıq etdiyi qeyd olunub.

Tərəflər parlamentlərimiz arasında əməkdaşlıq haqqında anlaşma memorandumunun imzalandığını xatırladaraq, bu sənədin qanunverici orqanlarımız arasında əlaqələrin inkişafına töhfə verdiyini bildiriblər. Sahibə Qafarova Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərində Belarus parlament nümayəndə heyətinin geniş tərkibdə müşahidələr apardığını bildirib və qarşı tərəfə minnətdarlığını ifadə edib. O, bu seçkilərin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin etdikdən soran keçirilən ilk parlament seçkiləri olduğunu diqqətə çatdırıb.

Natalya Koçanova ölkəmizdə parlament seçkilərinin uğurla keçirilməsi və yenidən Milli Məclisin Sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik edib. O, Azərbaycanın sədrliyi ilə Bakıda COP29 kimi qlobal tədbirin uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırıb. Natalya Koçanova Azərbaycan və Belarus prezidentlərinin COP29 çərçivəsində təşkil olunan tədbirlər zamanı nitqlərini xatırladaraq qeyd edib ki, dövlət başçıları həm tədbirin əhəmiyyəti, həm də beynəlxalq münasibətlər sistemində mövcud olan vəziyyət barədə geniş və obyektiv fikirlərini səsləndiriblər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova MDB Parlamentlərarası Assambleyasının Şura iclasında çıxış edib





Noyabrın 21-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB Parlamentlərarası Assambleyasının (MDB PA-nın) Şura iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova tədbirdə iştirak edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda bir sıra təşkilati və gündəlikdəki məsələlər müzakirə olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanda keçirilən Milli Məclisə növbədənkənar seçkiləri müşahidə edən MDB PA-nın missiyasının yekun rəyinin müzakirəsi zamanı çıxış edərək, görülən işlərə görə bütün müşahidəçi qruplara, o cümlədən Parlamentlərarası Assambleyanın müşahidə missiyasına təşəkkürünü bildirib.

Seçkilərin tarixinin dəyişdirilməsinin və sentyabrın 1-də keçirilməsinin, əsasən, Azərbaycanın COP29-a evsahibliyi etməsi ilə bağlı olduğunu bildirən spiker Sahibə Qafarova deyib ki, bu qərar özünü tamamilə doğruldub. Onun sözlərinə görə, parlament seçkiləri ölkənin siyasi həyatında bütün dövlət resurslarının səfərbər olunmasını tələb edən mühüm hadisələrdən biri olduğundan, 196 ölkədən 70 mindən çox qonağın, o cümlədən 80-dən çox prezident, vitse-prezident və baş nazirin qatıldığı qlobal xarakter daşıyan belə bir beynəlxalq tədbir zamanı seçkilərin keyfiyyətli təşkili qeyri-mümkün idi.

Milli Məclisin Sədri tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, ötən parlament seçkiləri həm də cari ilin fevralında keçirilən prezident seçkilərindən sonra ölkəmizin bütün suveren ərazilərində keçirilən ilk parlament seçkiləri olması ilə əlamətdardır. Bu seçkilərin bütün Azərbaycanda, o cümlədən işğaldan azad edilmiş torpaqlarda keçirilməsi ölkəmiz üçün mühüm tarixi əhəmiyyətə malik hadisədir. Qeyd olunub ki, seçkilər zamanı müvafiq dövlət orqanları tərəfindən vətəndaşların öz iradəsini azad ifadə etməsi və seçki prosesinin tam şəffaflığının təmin edilməsi üçün hər cür şərait yaradılıb. Səsvermənin mövcud qanunvericiliyə və beynəlxalq standartlara uyğun keçirilməsi üçün bütün zəruri tədbirlər görülüb.

O, Yeddinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinin əvvəlki kimi, parlamentlərarası dialoqun inkişafına sadiq olduğunu, bundan sonra da həm dost parlamentlərlə ikitərəfli əməkdaşlığın dərinləşməsinə, həm də Parlamentlərarası Assambleya çərçivəsində qarşılıqlı fəaliyyətin genişləndirilməsinə diqqət yetirəcəyini bildirib.

Məsələ ilə bağlı çıxış edən Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko və Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının Sədri Natalya Koçanova COP29 kimi mötəbər və mühüm tədbiri yüksək səviyyədə təşkili münasibətilə Azərbaycan xalqına və Azərbaycan Respublikası Prezidentinə təbriklərini çatdırıblar. Eyni zamanda parlament seçkilərinin uğurla keçirilməsi və yenidən Milli Məclisin Sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik ediblər.

*"Azərbaycan"*

# YAP Sədrinin müavini ICAPP Daimi Komitəsinin 42-ci iclasında iştirak edib






Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Kamboca Xalq Partiyasının (KXP) evsahibliyi ilə bu ölkənin Pnompen şəhərində keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) 12-ci Baş Assambleyası çərçivəsində ICAPP Daimi Komitəsinin (DK) 42-ci iclasında iştirak edib.

Tədbirdə ICAPP-ın cari il ərzində fəaliyyətinə nəzər salınıb, Daimi Komitənin yeni üzvləri təqdim olunub və qurumun gələcək planlarına dair ətraflı fikir mübadiləsi aparılıb.

Əvvəlcə Kamboca Xalq Partiyasının prezidenti və ICAPP-ın 12-ci Baş Assambleyasının fəxri prezidenti Hun Sen açılış nitqi ilə çıxış edib. O, ICAPP rəhbərliyinə və Daimi Komitənin üzvlərinə minnətdarlıq edərək qarşılıqlı səmərəli əməkdaşlığın davam etdirilməsinin önəmini vurğulayıb. Daha sonra ICAPP Daimi Komitəsinin sədr müavini və Kamboca Xalq Partiyasının Əbədi əlaqələr komissiyasının sədr müavini Suos Yara ICAPP-ın 12-ci Baş Assambleyasına hazırlıq işləri barədə məlumat verib. Eyni zamanda assambleyanın büro üzvlüyünə namizədlərin siyahısına baxılıb.

İclasda həmçinin ICAPP-ın BRICS vasitəsilə müxtəlif ölkələrlə, o cümlədən müxtəlif siyasi partiyalarla əməkdaşlıq məsələləri nəzərdən keçirilib. ICAPP-ın YUNESKO ilə əməkdaşlığının genişləndirilməsi imkanları barədə də təkliflər səsləndirilib.

Həmin gün Kamboca Xalq Partiyasının prezidenti və ICAPP-ın 12-ci Baş Assambleyasının fəxri prezidenti Hun Sen adından assambleyanın iştirakçıları üçün rəsmi ziyafət təşkil olunub.

*Ü.XASPOLADOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici işlər naziri misirli həmkarı ilə regional məsələləri müzakirə edib

Noyabrın 21-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Misir Ərəb Respublikasının xarici işlər, miqrasiya və xaricdə yaşayan misirlilərlə iş naziri Bədr Əbdelati arasında telefon danışığı aparılıb.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı Azərbaycan ilə Misir arasında qarşılıqlı etimada əsaslanan dostluq münasibətlərinin, ikitərəfli və çoxtərəfli əlaqələrinin daha da inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb. Beynəlxalq təşkilatlar və çoxtərəfli formatlar çərçivəsində əlaqələndirmə işlərinin təkmilləşdirilməsi, ölkələrimizin maraqlarına daxil olan istiqamətlərdə birgə səylərin artırılmasının vacibliyi qeyd olunub.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında aparılan müzakirələr, qlobal əhəmiyyətli bu tədbirin iqlim dəyişmələri ilə mübarizə sahəsində rolu və "yaşıl enerji" sahəsində Azərbaycan-Misir əməkdaşlığı üçün əlavə imkanlar yarada biləcəyi diqqətə çatdırılıb.

Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

COP29 Baku Azerbaijan

# Leyla Əliyeva COP29 çərçivəsində nadir canlıların mühafizəsinə həsr olunan panel müzakirələrində iştirak edib











Noyabrın 21-də IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyi və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının (BTMİ) əməkdaşlığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Mühafizənin 60 ili: BTMİ-nin Qırmızı Siyahısı" mövzusunda panel müzakirələr təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbirin açılışında çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İB-nin təsisçisi və rəhbəri Leyla Əliyeva nəsli kəsilməkdə olan bioloji növlərin mühafizəsinin qlobal ekosistemin və biomüxtəlifliyin qorunmasında vacib rol oynadığını qeyd edib. Leyla Əliyeva vurğulayıb ki, canlı orqanizmlərin məhv olunmasının qarşısının alınması beynəlxalq həmrəylik və əməkdaşlıq mühitində birgə addımların atılmasını tələb edən qlobal çağırışdır.

Sonra tədbir iştirakçılarına Cənubi Qafqazın zəngin təbiəti və buraya xas olan, lakin nəsli kəsilmiş bir sıra heyvan növləri barədə məlumat verilib.

IDEA İB tərəfindən 2011-ci ildən etibarən icra olunan fəaliyyətlərə toxunan Leyla Əliyeva bildirib ki, nadir canlıların qorunması, ölkəmizə xas nadir heyvan və bitki növlərinin mühafizəsi, eləcə də onların populyasiyasının bərpası təşkilatın əsas fəaliyyət istiqamətləri sırasında xüsusi yer tutur. IDEA İB-nin təsisçisi və rəhbəri BTMİ ilə əməkdaşlıq çərçivəsində 2012-ci ildə geniş ictimaiyyətə təqdim olunmuş Qafqazın "Böyük Beşliyi" layihəsini qeyd edib. Bildirilib ki, Qafqaz bəbiri, ceyran, qonur ayı, boz canavar və imperator qartalının populyasiyalarının qorunması və artırılması məqsədilə bir sıra addımlar atılıb.

Daha sonra Leyla Əliyeva qeyd edib ki, nəsli kəsilmiş zubrların populyasiyasının bərpası və onların ölkə təbiətinə reintroduksiya olunması məqsədilə 2017-ci ildən etibarən 46 zubr Avropanın müxtəlif ölkələrindən Şahdağ Milli Parkına gətirilib və 2028-ci ilədək zubrların sayının 100-ə çatdırılması nəzərdə tutulub. Eyni zamanda ceyranların reintroduksiyası layihəsi və digər müvafiq tədbirlər nəticəsində ölkə ərazisində ceyran populyasiyasının 8 minə çatdırıldığı, eləcə də yüz minlərlə nərə balığı körpələrinin Xəzər dənizi və Azərbaycanın digər su hövzələrinə buraxıldığı bildirilib.

BTMİ-nin Şərqi Avropa, Şimali və Mərkəzi Asiya üzrə regional direktoru Oliver Avramoskinin moderatorluğu ilə keçirilən tədbir çərçivəsində çıxış edən BTMİ-nin baş direktoru Grethel Aguilar, "Conservation International" təşkilatının meşə strategiyası üzrə baş direktoru Jason Funk və "Birdlife International" təşkilatının baş meneceri Cathy Yitong Li BTMİ Qırmızı Siyahısında adları qeyd olunan canlıların mühafizəsi, eləcə də qlobal biomüxtəlifliyin birgə səylər və nəticəyönümlü fəaliyyətlər vasitəsilə qorunmasının əhəmiyyətinə dair fikirlərini müzakirə iştirakçıları ilə bölüşüblər.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva COP29 çərçivəsində Qlobal Liderlərin Dialoqunda iştirak edib









Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühit Naminə Qlobal Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva noyabrın 21-də COP29 sədrliyi, IDEA İB və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının (BTMİ) birgə təşkilatçılığı ilə keçirilən "Qlobal liderlərin dialoqu: Təbiət üçün müsbət gələcəyə nail olmaq məqsədilə iqlim fəaliyyəti və biomüxtəlifliyin qorunması və Paris Sazişinin məqsədlərinə uyğunlaşdırılması" mövzusunda panel müzakirələrində iştirak edib.

AZƏRTAC xəbər verir ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən tədbirin açılışında çıxış edən Leyla Əliyeva iqlim dəyişmələrinin və biomüxtəlifliyin itirilməsinin planetimizə vurduğu zərərin miqyaslarını vurğulayaraq, beynəlxalq ictimaiyyət tərəfindən təcili tədbirlərin görülməsinin zəruri olduğunu bildirib. Eyni zamanda Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda bir sıra heyvan növləri, o cümlədən Xəzər pələngi və Asiya şirinin keçmişdə yaşadığı, lakin nəslinin tükənməsi barədə tədbir iştirakçılarına məlumat verilib.

Leyla Əliyeva qeyd etdi ki, 2011-ci ildən etibarən IDEA İB tərəfindən ölkəmizin unikal təbiəti və ekoloji balansın qorunması məqsədilə bir sıra layihə və tədbirlər icra olunub. Qafqazın "Böyük Beşliyi", zubrlar, ceyranlar və Xəzər nərələrinin mühafizəsi, eləcə də minlərlə könüllülər ilə birgə həyata keçirilmiş çoxsaylı fəaliyyətlər barədə müzakirə iştirakçılarına məlumat verilib. Çıxışının yekununda Leyla Əliyeva daha dayanıqlı və sağlam gələcəyin təmin olunması məqsədilə iştirakçıları yeni tərəfdaşlıqlar və birgə səylər göstərməyə çağırıb.

Sonra COP29-un prezidenti Muxtar Babayev, BTMİ-nin prezidenti Razan Al Mubarak, təşkilatın baş direktoru Grethel Aguilar, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) əməliyyatların koordinasiyası üzrə baş direktoru Çhaya Kapilaşrami, Bioloji Müxtəliflik haqqında Konvensiyanın icraçı katibi Astrid Schomaker, BMT-nin Ətraf Mühit Proqramının (UNEP) baş direktoru İnger Andersen çıxış edərək müzakirə mövzuları ilə bağlı fikir və təkliflərini iştirakçılarla bölüşüblər.

Daha sonra hökumət və özəl sektor liderləri, müxtəlif ölkələrin ətraf mühit və ekologiya nazirlərinin iştirakı ilə panel müzakirələri baş tutub.

# Leyla Əliyeva COP29 çərçivəsində bəbirlərin mühafizəsinə həsr olunmuş tədbirdə çıxış edib

Noyabrın 21-də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN), IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin (İB) və Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) birgə təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Dəyişən iqlim şəraitində bəbirlərin mühafizəsi" mövzusunda panel müzakirələri təşkil olunub.









AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İB-nin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirin açılışında çıxış edərək iqlim dəyişmələrinin və qlobal ekoloji sistemdə mənfi tendensiyaların müşahidə edilməsinin Qafqaz bəbirləri də daxil olmaqla, bir çox canlının populyasiyasını təhlükə altına qoyduğunu bildirib. Qeyd edib ki, temperaturun yüksəlməsi və digər çoxsaylı təbii kataklizmlər bəbirlərin təbiətdə sağ qalmasını çətinləşdirir.

IDEA tərəfindən icra olunmuş çoxsaylı fəaliyyətlər, o cümlədən ETSN və WWF ilə əməkdaşlıq çərçivəsində həyata keçirilmiş "Azərbaycanda bəbirlərin populyasiyasının bərpası" layihəsinin bəbirlərin ölkəmizdə sayının artırılmasına verdiyi töhfə barədə layihə iştirakçılarına ətraflı məlumat verilib. Leyla Əliyeva diqqətə çatdırıb ki, 2014-cü ildə keçirilmiş Qafqaz Biomüxtəlifliyi Sammiti Cənubi Qafqaz bölgəsində ekoloji tarazlıq və canlıların mühafizəsi məsələlərinə diqqətin artırılmasını təmin edib. IDEA İB-nin təsisçisi və rəhbəri vurğulayıb ki, atılan addımların sayəsində ötən illər ərzində Azərbaycan ərazisində 23 bəbir fərdinə rast gəlinib.

Çıxışının sonunda Leyla Əliyeva bəbirlərin səmərəli mühafizəsini təmin etmək məqsədilə qlobal səyləri daha da möhkəmləndirməyə çağırıb.

Daha sonra WWF-in Avropa və Şimali Afrika üzrə regional direktoru Ajay Barai, təşkilatın Azərbaycan ofisinin direktoru Elşad Əsgərov, WWF-in Almaniya ofisinin direktoru Aurel Heidelberg, ETSN-in Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəis müavini Rəşad Allahverdiyev, Beynəlxalq Təbiəti Mühafizə İttifaqının pişikkimilər üzrə eksperti Tatjana Rosen və "Ecocorridors Fund for the Caucasus" təşkilatının nümayəndəsi Jernej Stritih çıxış ediblər.

COP29 Baku Azerbaijan

# Dünya Bakıda birləşib

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) ötən günlərdən biri urbanizasiya, nəqliyyat və turizm məsələlərinə həsr olunmuşdu. Bununla belə urbanizasiya mövzusu bütövlükdə bu mötəbər tədbirdən qırmızı xətlə keçir.**




## Azərbaycanın urbanizasiya probleminin həlli yolları COP29-da təqdir olundu

Urbanizasiya mövzusunda keçirilmiş tədbirlərdən bir neçəsini xatırlatmaq kifayətdir. Götürək elə BMT-nin İnsan Məskunlaşmaları Proqramı və COP29-a evsahibliyi edən Azərbaycanın birgə təşkilatçılığı ilə keçirilən "Bakıdan Bələmə: Şəhərlər, urbanizasiya və çoxsəviyyəli iqlim gündəliyi" adlı tədbiri. Burada "Şəhər, Çoxsahəli və Çoxsəviyyəli İqlim Fəaliyyəti üzrə Bakı Davamlılıq Koalisiyası"nın təqdimatı olub, iqlim fəaliyyətinə dair nailiyyətlər nəzərdən keçirilib və COP30-a uyğun olaraq şəhər və çoxsəviyyəli iqlim fəaliyyəti üçün yol xəritəsinin hazırlanması məsələsinə baxılıb. Həmçinin şəhər və regionlarda iqlim fəaliyyətinin genişləndirilməsinə dəstək olmaq yolları müzakirə edilib. Təbii ki, Azərbaycanda şəhərsalma sahəsində həyata keçirilən işlərdən, infrastruktur layihələrindən, şəhərlərdə iqlim fəaliyyətlərinin genişləndirilməsi və urbanizasiya probleminin həll olunması yollarından danışılıb.

Məlumdur ki, sənaye müəssisələri adətən şəhərlərdə olur. Bu da regionlara nisbətən şəhərlərdə daha çox karbon qazının atmosferə atılması ilə nəticələnir. Şəhərlər iqlim dəyişməsinin əsas "günahkar"ları hesab olunur. Bunun yumşaldılması üçün Paris Sazişində nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsinin vacibliyi vurğulanıb. "Paris Sazişi üzrə əldə olunan razılaşmalara əməl edilərsə, qlobal temperaturu 1,5 dərəcə Selsidən aşağıda saxlamaq mümkünləşər" - iştirakçıların yekun sözü bu olub.

Azərbaycan pavilyonunda isə "Şəhərlərin təsiri: Şəhər iqlim gündəliyini necə sürətləndirə bilər?" adlı sessiya keçirilib.

Afrika Birləşmiş Şəhərlər və Yerli Hökumət Təşkilatının baş katibi Jan Pier Elonq Mbassi iqlim dəyişikliyinin icmalarına təsirindən narahat olduğunu qeyd edərək bu dəyişikliyin qitə və şəhərlərə fəlakətli təsirlərini gördüyünü qeyd edib: "Meşə yanğınları, qasırğalar, daşqınlar və quraqlıq kimi daha sürətli, şiddətli və əvvəllər gözlənilməz hadisələr nəticəsində iqlimədavamlı şəhərlər, infrastruktur yenidən işlənməlidir. Enerji və su ilə mühafizə, şəhərlərimizin və strukturlarımızın iqlim hadisələrinə tab gətirə bilməsini təmin etmək üçün daha çox iş görməliyik".

Tədbirdə dünyada şəhərlərin iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün apardıqları səylər müzakirə olunub. Yaşıl sahələrin təkmilləşdirilməsi, istixana qazı emissiyalarının azaldılması və davamlı nəqliyyat seçimlərinin inkişafı kimi əsas ekoloji problemlərə yönəlmiş şəhər rəhbərliyindəki nümunəvi layihələr nümayiş etdirilib.

"COP29 Urban Day inkişaf üçün unikal platforma təqdim edir və şəhər gündəmindəki aktual məsələlər üzrə mənalı və konstruktiv müzakirələrdə iştirak etmək üçün imkanlar açır". Bu sözləri isə Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev deyib. Onun sözlərinə görə, bu gün əsas məqsəd şəhər gündəminin iqlim gündəliyi ilə birləşdirildiyinə əmin olmaqdır. "COP29-da bütün tərəfləri bir araya gətirməklə Azərbaycan çoxsəviyyəli və birgə fəaliyyətin iqlim problemlərini həll edəcəyi və şəhər məkanlarını dayanıqlı ekosistemlərə çevirəcəyi kimi gələcəyə baxışını nümayiş etdirir. Bugünkü müzakirələrin əsasını qoyan mühüm təşəbbüsləri də etiraf etməliyik. Və onlar kollektiv şəkildə dialoq, əməkdaşlığı gücləndirmək və əsas urbanizasiya problemlərini həll etmək üçün məkan yaratdılar ki, bu da çox güman ki, davamlı və sağlam şəhərlər üçün xəritənin, çoxsahəli fəaliyyət planının yaradılmasının başlanğıcını qoydu", - deyə o qeyd edib.

Göründüyü kimi, Azərbaycanın bu mövzuda da dediyi və deyəcəyi sözlər az deyil. Təsadüfi deyil ki, BMT-nin Məskunlaşma Proqramının İcraiyyə Şurasının Keniyada keçirilən 3-cü sessiyasında 13-cü Ümumdünya Şəhərsalma Forumunun (WUF13) 2026-cı ildə Bakı şəhərində keçiriləcəyi barədə qərar qəbul edilib.

Qeyd edək ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, hazırda ölkəmizin əhalisinin 54,5 faizi şəhərlərdə, 45,5 faizi kənd yerlərində yaşayır. XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində yaşanan hadisələr, yəni iqtisadiyyatın tənəzzülü və düşmən tərəfindən torpaqlarımızın işğal olunması nəticəsində kəndlərimizdən şəhərlərə böyük axın olmuşdu. Prezident İlham Əliyev keçən il sentyabrın 29-da Zəngilanda keçirilən 2-ci Azərbaycan Milli Şəhərsalma Forumundakı çıxışında bu məsələyə toxunaraq demişdir: "Bu gün hər kəs urbanizasiyadan danışır. Bizdə də bu mövzu var. Bizim bu problemimiz uzun illərdir yaşanır - insanlar bölgələrdən, kəndlərdən şəhərə can atır. Çünki şəhərdə daha çox iş yerləri, məşğulluq imkanları var və özləri üçün daha yaxşı şərait yaratmaq istəyirlər. Amma bu gün biz onun şahidiyik ki, Bakıdan, Sumqayıtdan, Gəncədən, Mingəçevirdən, digər şəhərlərdən kəndlərə axın baş verir. Bu isə ilk növbədə Azərbaycan xalqının öz Vətəninə nə dərəcədə bağlı olduğunu göstərir. Onlar öz vətənlərində, əcdadlarının vətənlərində yaşamaq istəyirlər".

Əsasən də dövlət başçısının "yaşıl enerji" zonası elan etdiyi, kəndləri və şəhərləri yeni konsepsiya ilə qurulan Qarabağ və Şərqi Zəngəzur yenidən məskunlaşır. Bakı, Gəncə, Sumqayıt kimi iri şəhərlərdə yaşayan keçmiş məcburi köçkünlər öz yurd-yuvalarına qayıdırlar.

Azad olunmuş şəhərlərə və kəndlərə yaxın üç ildə 140 min insanın köçürülməsi planlaşdırılır. Qarabağa və Şərqi Zəngəzura indiyədək 9000-ə yaxın keçmiş məcburi köçkün dönüb. Üstəlik, azad edilmiş ərazilərdə həyata keçirilən işlərdə 20 min nəfərdən çox insan çalışır. Qeyd olunan rəqəmləri ümumiləşdirsək, belə bir nəticəyə gəlmək olar ki, hazırda azad olunmuş ərazilərdə təqribən 30 min insan məskunlaşıb.

Ümumiyyətlə, bütün ölkə ərazisində sosial-iqtisadi cəhətdən inkişaf edən, abadlaşan, çiçəklənən bölgələrimiz getdikcə daha çox diqqət çəkir. İndi insanların kənddəki evini qoyub şəhərə iş, çörək dalınca gəlməsinə ehtiyac yoxdur. Odur ki, COP29-un urbanizasiya tədbirlərində Azərbaycan təcrübəsindən də geniş bəhs olunur.

*Flora SADIQLI,*
*"Azərbaycan"*







### *Umberto de PRETTO:*
### "Karbon emissiyalarını azaltmaq üçün tətbiq edə biləcəyimiz bir çox tədbir var"



**"Əsl dəyişiklik üçün etməli olduğumuz tək şey danışmağı bir kənara qoyub hərəkətə keçməkdir. Çünki davamlılıq sözlə deyil, əməl ilə qurulur. Karbon emissiyalarını azaltmağa yönəlik tətbiq edə biləcəyimiz bir çox tədbir var. Azərbaycanın 5 min sürücüsünə nəqliyyat idarə edərkən ətraf mühitə daha səmərəli olmaq üçün təlim keçdiyimizə görə çox qürurluyam".**

Bunu AZƏRTAC-a müsahibəsində Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının baş katibi Umberto de Pretto deyib.

"Hökumətlərdən yol nəqliyyat sənayesi ilə işləməyini istəyirəm. İnsanların avtobuslara və qatarlara minməsi, daha yaxşı təlim keçmiş sürücülərin idarə etdiyi təhlükəsiz taksilərdən istifadəsi vacibdir.

Biz emissiyalarımızı azaldacağıq. Bu gün yollarda olan yük maşınlarının 99,3 faizi dizellə işləyir. Əgər belədirsə, biz bunu daha səmərəli necə edə bilərik? Bütün suallara cavab tapmaq məqsədilə çalışmalıyıq ki, layihələrimizi həyata keçirək", - deyə Umberto de Pretto bildirib.

### *Nathaniel David UNCTMANN:*
### "Azərbaycan cəmiyyəti sülhün və əməkdaşlığın təşviqində nümunəvi rol oynayır"



**"COP29 konfransı çərçivəsində Afrika İqlim və Ətraf Mühit Fondu üç əsas istiqamət üzrə fəaliyyət göstərir. Bunlardan birincisi, ətraf mühit və iqlim dəyişikliyindən ən çox təsirlənən qruplardan biri kimi, uşaqların və gənclərin maarifləndirilməsi və dəstəklənməsinə, ikincisi, iqlim dəyişikliklərinin qeyri-proporsional təsirinə məruz qalan icmalarla əməkdaşlıq və onların problemlərinin həllinə dəstək göstərilməsinə, üçüncüsü, yerli xalqların təbiətlə harmoniyada yaşamaq təcrübəsinin qlobal səviyyədə tətbiqi və bu biliklərin iqlim böhranının həllinə töhfə verməsinə xidmət edir. Xüsusilə Afrikanın diqqət mərkəzində olduğu bu istiqamətlər qlobal səviyyədə getdikcə daha çox dəstək qazanır. Yerli xalqların, icmaların və gənclərin bilikləri yalnız öz bölgələrində deyil, qlobal miqyasda da ümid mənbəyidir".**

Bu fikirləri COP29 çərçivəsində Afrika İqlim və Ətraf Mühit Fondunun icraçı direktoru Nathaniel David Unctmann bildirib.

O, həmçinin COP29 iqlim sammitinə evsahibliyi edən Azərbaycanın qonaqpərvərliyini yüksək qiymətləndirərək, ölkənin mədəniyyətini və səmimi münasibətlərini konfrans iştirakçılarına nümayiş etdirdiyini vurğulayıb. O qeyd edib ki, Azərbaycanın isti münasibəti və güclü cəmiyyət ruhu sülhün və əməkdaşlığın təşviqində nümunəvi rol oynayır.

Təşkilatın nümayəndəsi əlavə edib: "Birlikdə daha yaşıl və parlaq gələcək qurmaq üçün bütün ölkələr əməkdaşlığını davam etdirməlidir. İnsanlıq və təbiət arasında tarazlıq yaratmaq və sülhü təmin etmək üçün səylərimizi birləşdirməliyik".

Üçüncü dəfədir COP sammitlərində iştirak etdiyini deyən Nathaniel David Unctmann əvvəllər COP27 və COP28 tədbirlərinə qatıldığını, iqlim dəyişikliyi ilə mübarizəyə yönəlmiş təşəbbüslərin sürətləndirilməsində fəal rol oynadığını vurğulayıb.

### *Kabine DUMBİA:*
### "Azərbaycanda az inkişaf etmiş ölkələrin problemləri gündəmə gətirilir"



**"Bir çox COP-da iştirak etmişəm. Azərbaycandakı konfrans daha uğurludur. Çünki Azərbaycanda az inkişaf etmiş ölkələrin problemləri gündəmə gətirilir, onların həlli yolları müzakirə olunur".**

Bu sözləri müstəmləkəçilikdən əziyyət çəkən İnkişaf və Ağacların Qorunması və Bərpası Naminə Təşkilatının (ASRAD) prezidenti Kabine Dumbia söyləyib.

O, Azərbaycandakı COP-un digərlərindən daha məhsuldar təşkil olunduğunu diqqətə çatdırıb.







COP29 Baku Azerbaijan

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 482

QƏRAR

Bakı şəhəri, 20 noyabr 2024-cü il

## "Elektron alış aktının formasının, tətbiqi, uçotu və istifadəsi Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 iyul tarixli 243 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Elektron alış aktının formasının, tətbiqi, uçotu və istifadəsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2020-ci il 7 iyul tarixli 243 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 973 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 1 nömrəli əlavə - "Elektron alış aktı"nın forması yeni redaksiyada verilsin (əlavə olunur).

2. 2 nömrəli əlavə - "Elektron alış aktının tətbiqi, uçotu və istifadəsi Qaydaları" üzrə:

2.1. 2.1-ci bəndin ikinci cümləsində "və" sözü ", vergi orqanında uçotda olmayan fiziki şəxsin öz adına qeydiyyatda olan mobil nömrəyə göndərilən SMS vasitəsilə müəyyən edilmiş qaydada təsdiq edildikdən sonra" sözləri ilə əvəz edilsin;

2.2. 2.2.5-ci yarımbənddən "seriyası, nömrəsi və" sözləri çıxarılsın;

2.3. aşağıdakı məzmunda 2.2.7-1-ci və 2.2.7-2-ci yarımbəndlər əlavə edilsin:

"2.2.7-1. malın kodu;

2.2.7-2. əmtəənin qlobal identifikasiya nömrəsi (GTIN) (olduğu halda);";

2.4. 2.2.11-ci yarımbəndə "malın" sözündən sonra "cəmi" sözü əlavə edilsin;

2.5. aşağıdakı məzmunda 2.2.12-1-ci və 2.2.12-2-ci yarımbəndlər əlavə edilsin:

"2.2.12-1. cəmi;

2.2.12-2. ödəmə mənbəyində tutulan verginin məbləği;";

2.6. 2.3.4-cü yarımbəndə "alış aktının" (birinci halda) sözlərindən sonra "tarixi" sözü əlavə edilsin və həmin yarımbənddən "seriyası, nömrəsi və" sözləri çıxarılsın;

2.7. aşağıdakı məzmunda 2.3.6-1-ci və 2.3.6-2-ci yarımbəndlər əlavə edilsin:

"2.3.6-1. "Malın kodu" sütununda - malın kodu;

2.3.6-2. "Əmtəənin qlobal identifikasiya nömrəsi (GTIN) (olduğu halda)" sütununda - Qlobal standart (GS1) tərəfindən yaradılan, üzərində ştrix kodları və rəqəmləri əks etdirən, hər bir məhsul vahidini identifikasiya edən və məhsulun növündən asılı olaraq dəyişən unikal məhsul nömrəsi (olduğu halda);";

2.8. 2.3.10-cu yarımbənddə "Məbləği" sözü "Cəmi məbləği" sözləri ilə əvəz edilsin;

2.9. 2.3.12-ci yarımbənddə "Yekun" sözü "Cəmi" sözü ilə əvəz edilsin və həmin yarımbəndə "Məbləği" sözündən əvvəl "Cəmi" sözü əlavə edilsin;

2.10. aşağıdakı məzmunda 2.3.12-1-ci yarımbənd əlavə edilsin:

"2.3.12-1. "Ödəmə mənbəyində tutulan verginin məbləği" sətrində - Azərbaycan Respublikası Vergi Məcəlləsinin 150.1.14-cü maddəsinə əsasən ödəmə mənbəyində tutulan verginin məbləği;";

2.11. 2.6-cı bənddə "qeydə alındığı" sözləri "vergi ödəyicisi tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edildiyi" sözləri ilə əvəz edilsin;

2.12. aşağıdakı məzmunda 3.8-ci bənd əlavə edilsin:

"3.8. Ləğv edilmiş və ya düzəliş edilmiş elektron alış aktı vergi orqanında uçotda olmayan fiziki şəxs tərəfindən öz adına qeydiyyatda olan mobil nömrəyə göndərilmiş SMS vasitəsilə müəyyən olunmuş qaydada təsdiq edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 483

QƏRAR

Bakı şəhəri, 20 noyabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 yanvar tarixli 7 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 yanvar tarixli 7 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 151 (Cild I); 2024, № 5 (I kitab), maddə 626) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 4.14.5-ci yarımbəndə "cədvəlini" sözündən sonra ", onların əməkhaqlarının məbləğini (vəzifə maaşını, vəzifə maaşına əlavələri, mükafatları və digər ödənişləri)" sözləri və "razılaşdırmaqla" sözündən sonra "gəlir və" sözləri əlavə edilsin.

2. 4.14.6-cı yarımbəndə və 4.18-ci bəndin ikinci cümləsinə "ali təhsil müəssisəsinin" sözlərindən əvvəl "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla," sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 484

QƏRAR

Bakı şəhəri, 20 noyabr 2024-cü il

## "Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 iyun tarixli 1177-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 iyun tarixli 1177-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 9 mart tarixli 140 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 78) ilə təsdiq edilmiş 5 nömrəli əlavə - "Dövlət sərhədini pozan hava gəmilərinə və uçuş aparatlarına qarşı hava hücumundan müdafiə qoşunlarının növbətçi qüvvə və döyüş texnikasının tətbiq edilməsi Qaydaları"nın 5-ci hissəsinin ikinci cümləsindən "və könüllü hərbi vətənpərvərlik texniki idman cəmiyyəti" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 600 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında fövqəladə hadisələrdən müdafiə sahəsində əhalinin hazırlanması Qaydaları"nın 1.9-cu bəndinin dördüncü abzasının birinci cümləsindən "könüllü hərbi-vətənpərvərlik texniki-idman cəmiyyətlərinin," sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 485

QƏRAR

Bakı şəhəri, 20 noyabr 2024-cü il

## "Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası"nın təsdiq edilməsi haqqında

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1199-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli 1380 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 145 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 486

QƏRAR

Bakı şəhəri, 21 noyabr 2024-cü il

## "Riskli vergi ödəyicisinin, o cümlədən riskli əməliyyatların Meyarları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 iyul tarixli 265 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin və 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Riskli vergi ödəyicisinin, o cümlədən riskli əməliyyatların Meyarları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 995 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Adı aşağıdakı redaksiyada verilsin:

"Vergi ödəyicisinin risk meyarları və vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi, həmin siyahıdan çıxarılması Qaydası və şərtləri"nin təsdiq edilməsi haqqında".

2. Preambulaya "icrasını" sözündən əvvəl "və "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin" sözləri əlavə edilsin.

3. Mətni aşağıdakı redaksiyada verilsin:

"Vergi ödəyicisinin risk meyarları və vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi, həmin siyahıdan çıxarılması Qaydası və şərtləri" təsdiq edilsin (əlavə olunur).".

4. Həmin Qərarla təsdiq edilmiş "Riskli vergi ödəyicisinin, o cümlədən riskli əməliyyatların Meyarları" üzrə:

4.1. adı aşağıdakı redaksiyada verilsin:

"Vergi ödəyicisinin risk meyarları və vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi, həmin siyahıdan çıxarılması Qaydası və şərtləri";

4.2. 1-ci hissə üzrə:

4.2.1. 1.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.1. Bu Sənəd Azərbaycan Respublikası Vergi Məcəlləsinin (bundan sonra - Vergi Məcəlləsi) 13.2.82-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və vergi ödəyicisinin risk meyarlarını və vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi, həmin siyahıdan çıxarılması qaydasını və şərtlərini müəyyən edir.";

4.2.2. 1.2-ci bənddə "Meyarlarda" sözü "Sənəddə" sözü ilə əvəz edilsin;

4.2.3. 1.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.3. Vergi ödəyicisinin riskli vergi ödəyicisi olması barədə qəbul edilmiş qərarlar həmin qərarların qəbul edildiyi gün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (bundan sonra - Dövlət Vergi Xidməti) rəsmi internet saytında yerləşdirilir.";

4.2.4. 1.4-cü bənddən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın və həmin bəndə "elektron qaimə-faktura sistemi" sözlərindən sonra "və (və ya) əlavə dəyər vergisinin depozit hesabı" sözləri əlavə edilsin;

4.3. 2-ci hissə üzrə:

4.3.1. 2.1.1-ci, 2.1.2-ci və 2.1.3-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"2.1.1. təqdim edilməsi müvafiq iqtisadi resurs tələb edən (təsərrüfat obyekti, işçi qüvvəsi, əsas vəsaitlər, xammal-material ehtiyatları və fəaliyyət növünün xüsusiyyətləri nəzərə alınmaqla digər iqtisadi resurslar) iş və xidmətləri bu növ resurslar mövcud olmadan və ya mövcud resursları yetərli olmadan, yaxud subpodratçı cəlb etmədən təqdim edən şəxs;

2.1.2. qanunvericiliyin tələblərinə uyğun olaraq tərtib edilmiş elektron qaimə-faktura, malların alış aktı və yük gömrük bəyannamələri (idxal olunan mallara münasibətdə) əsasında əldə edilməyən malları (əvvəllər keçirilmiş operativ vergi nəzarəti və ya səyyar vergi yoxlaması zamanı sənədsiz mal kimi rəsmiləşdirilən mallar, notarial qaydada təsdiq edilmiş müqavilələr əsasında əldə edilmiş rəsmi reyestrdə qeydiyyata alınmış əmlaklar, istehsal zamanı əldə edilən (söküntüdən, hasilatdan) mallar və əsas vəsaitlər, o cümlədən nizamnamə kapitalına qoyulmuş əsas vəsaitlər istisna olmaqla) təqdim edən şəxs;

2.1.3.Vergi Məcəlləsinin 13.2.81-ci maddəsinə əsasən əmtəəsiz əməliyyatlar aparan şəxs. ";

4.3.2. 2.1.4 - 2.1.8-ci yarımbəndlər ləğv edilsin;

4.4. 3-cü hissə ləğv edilsin;

4.5. aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

"4. Vergi ödəyicisinin riskli vergi ödəyicisi siyahısına daxil edilməsi və həmin siyahıdan çıxarılması qaydası və şərtləri

4.1. Bu Sənədin 2.1-ci bəndində nəzərdə tutulan meyarlardan ən azı birinə cavab verən əməliyyat üzrə vergi ödəyicisinə, habelə müvafiq əməliyyat üzrə həmin şəxsin təqdim etdiyi elektron qaimə-faktura üzrə malların (iş və xidmətlərin) alıcısına əməliyyatın aparıldığı (elektron qaimə-fakturanın təsdiq edildiyi) tarixdən 15 iş günü ərzində aparılmış əməliyyatın riskli olması barədə bildiriş-xəbərdarlıq göndərilir. Bildiriş-xəbərdarlıq elektron üsulla həmin şəxslərin elektron kabinetinə göndərilir. Bildiriş-xəbərdarlıqda əməliyyatların riskli hesab edilməsinə əsas yaradan halların aradan qaldırılması, əməliyyat üzrə təqdim edilmiş elektron qaimə-fakturanın ləğv edilməsi, əlavə izahat, əməliyyatın həqiqiliyini təsdiq edən məlumat və sənədlərin təqdim edilməsi tələb olunur.

4.2. Bildiriş-xəbərdarlıq göndərildikdən sonra 5 (beş) iş günü ərzində qeyd olunan hallar bütövlükdə aradan qaldırılmadıqda, əməliyyat üzrə təqdim edilmiş elektron qaimə-faktura ləğv edilmədikdə, habelə tələb olunan əlavə izahat, əməliyyatın həqiqiliyini təsdiq edən məlumat və sənədlər təqdim edilmədikdə Dövlət Vergi Xidməti tərəfindən vergi ödəyicisinin riskli vergi ödəyicisi olması barədə qərar qəbul edilərək 1 (bir) iş günü ərzində elektron üsulla vergi ödəyicisinin elektron kabinetinə göndərilir və əmtəəsiz əməliyyatla bağlı Vergi Məcəlləsinin 58.15-1-ci maddəsinə uyğun olaraq maliyyə sanksiyası tətbiq edilir. Vergi ödəyicisinin riskli vergi ödəyicisi olması barədə qərar həmin qərarın qəbul edilməsinə əsas olan əməliyyatın aparıldığı tarixdən qüvvəyə minir.

4.3. Bu Sənədin 2.1.1-ci yarımbəndinə əsasən vergi ödəyicisinin mövcud resurslarının müvafiq işlərin görülməsi və ya xidmətlərin göstərilməsi üçün yetərli olmaması halı üzrə vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi bu Sənədin 4.1-ci bəndi ilə müəyyən edilmiş müddətdə vergi orqanı tərəfindən "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 41-ci maddəsinə əsasən cəlb edilmiş mütəxəssisin yazılı şəkildə bildirdiyi fikri və ya ekspertin rəyi əsasında həyata keçirilir.

4.4. Aparılmış əməliyyat üzrə barəsində riskli vergi ödəyicisi elan edilməsi ilə bağlı qərar qəbul edilmiş vergi ödəyicisinin riskli vergi ödəyiciləri siyahısından çıxarılması bu Sənədin 4.5-ci bəndində nəzərdə tutulan tələblər nəzərə alınmaqla, vergi ödəyicisinin elektron qaydada təqdim etdiyi ərizəsi əsasında həyata keçirilir. Vergi ödəyicisinin ərizəsinə əməliyyatların riskli hesab edilməsinə əsas yaradan halların aradan qaldırılması ilə bağlı və ya əməliyyatın həqiqiliyini təsdiq edən məlumat və sənədlər əlavə edilir.

Digər dövlət orqanından (qurumundan) daxil olan məlumata və ya vergi nəzarəti tədbirinin nəticəsinə əsasən riskli vergi ödəyicisi elan edilməsi ilə bağlı qərar qəbul edilmiş vergi ödəyicisinin riskli vergi ödəyiciləri siyahısından çıxarılması vergi orqanının təşəbbüsü ilə həyata keçirilə bilər.

4.5. Aşağıdakı hallarda vergi ödəyicisinin riskli vergi ödəyicisi siyahısından çıxarılması ilə bağlı qərar qəbul edilir:

4.5.1. vergi ödəyicisinin təqdim etdiyi əlavə izahat, əməliyyatın həqiqiliyini təsdiq edən məlumat və sənədlər, keçirilmiş xronometraj müşahidələrin nəticələri barədə məlumatlar əsasında, habelə vergi nəzarəti ilə rəsmiləşdirilmiş əməliyyatlar, əməliyyatların həqiqiliyini təsdiq edən dövlət orqanlarının (qurumlarının) təsdiqedici sənədləri və ya məlumatları ilə əməliyyatların riskli hesab edilməsinə əsas yaradan halın olmadığı aşkar edildikdə;

4.5.2. aparılmış əmtəəsiz əməliyyata münasibətdə riskli vergi ödəyicisi tərəfindən Vergi Məcəlləsinin 58.15-1-ci maddəsində nəzərdə tutulmuş maliyyə sanksiyası tam həcmdə ödənildikdə.

4.6. Bu Sənədin 4.7-ci bəndi nəzərə alınmaqla, bu Sənədin 4.4-cü bəndində nəzərdə tutulan ərizə daxil olduğu tarixdən etibarən 20 iş günü müddətində vergi orqanı tərəfindən baxılaraq vergi ödəyicisinin riskli vergi ödəyicisi siyahısından çıxarılması və ya bundan imtina olunması barədə qərar qəbul edilir və 1 (bir) iş günü müddətində vergi ödəyicisinin elektron kabinetinə göndərilir.

4.7. Bu Sənədin 4.5.2-ci yarımbəndi ilə müəyyən edilmiş şərtə əməl edildikdə bu Sənədin 4.4-cü bəndində nəzərdə tutulan ərizənin daxil olduğu tarixdən 3 (üç) iş günü müddətində vergi ödəyicisinin aparılmış əməliyyat üzrə riskli vergi ödəyicisi siyahısından çıxarılması barədə qərar qəbul edilir və 1 (bir) iş günü müddətində vergi ödəyicisinin elektron kabinetinə göndərilir.

4.8. Bu Sənədin 4.5-ci bəndində göstərilən tələblərə tam və ya qismən əməl edilməməsi aparılmış əməliyyat üzrə vergi ödəyicisinin riskli vergi ödəyicisi siyahısından çıxarılması ilə bağlı müraciətinə imtina edilməsi üçün əsasdır.

4.9. Bu Sənəddə nəzərdə tutulmuş hallarda vergi ödəyicisindən sənədlərin və məlumatların tələb edilməsi Vergi Məcəlləsinin 24.2-ci maddəsinin tələbi nəzərə alınmaqla həyata keçirilir.

4.10. Vergi ödəyicisi vergi orqanı tərəfindən bu Sənədin 4.2-ci və 4.6-cı bəndlərinə uyğun olaraq qəbul edilmiş qərarlardan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

COP29 Baku Azerbaijan

# Lüksemburq Deputatlar Palatasının qətnaməsinə Azərbaycan Respublikası Milli Məclisinin münasibəti

Azərbaycan Respublikasının Milli Məclisi Lüksemburq Deputatlar Palatasının bu il noyabrın 20-də qəbul etdiyi qətnaməni qərəzli, qeyri-obyektiv və ədalətsiz bir akt kimi qiymətləndirir, ölkəmizi hədəf alan əsassız iddia və ittihamları qətiyyətlə rədd edir. Lüksemburq parlamentinin bu siyasi aksiyası həmin ölkənin parlamentinin siyasi avantüra meydanına çevrildiyini göstərir.

Azərbaycanın suverenliyinə aşkar hörmətsizliyin, onun milli təhlükəsizliyinin, ictimai sabitliyinin və ərazi bütövlüyünün qorunması üçün görülən tədbirlərə etinasızlığın nümayiş etdirildiyi qətnamədə ölkəmizdə cərəyan edən proseslər ilə bağlı qaldırılan məsələlər daxili işlərə kobud müdaxilədən başqa bir şey deyildir.

2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkiləri barəsində irəli sürülən iddialar tamamilə əsassızdır. Seçki praktikasının təkmilləşdirilməsi sahəsində Azərbaycanın əldə etdiyi irəliləyiş beynəlxalq miqyasda təsdiq edilmişdir. Seçkilər milli qanunlara və beynəlxalq öhdəliklərə tam uyğun keçirilmişdir.

Özbaşına həbslər, fikir və toplaşma azadlığının məhdudlaşdırılması barədə qətnamədə ifadə edilən fikirlər kobud təhriflər üzərində qurulmuşdur. Müxtəlif hesabatlarda adları hallandırılan şəxslərin həbsləri milli qanunların pozulduğunu göstərən tutarlı sübutlar əsasında həyata keçirilmiş və bu zaman lazımi hüquqi prosedurlara əməl edilmişdir.

Qətnamədə siyasi məhbuslar ilə bağlı irəli sürülən iddialar əsassızdır və Azərbaycanın gözdən salınmasına yönələn kampaniyanın tərkib hissəsini təşkil edir. Azərbaycanda vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi, demokratik proseslərin möhkəmləndirilməsi üçün göstərilən səylərin üzərinə kölgə salmaq cəhdi təəssüf doğurur.

Avropa Şurası Parlament Assambleyasının 76 deputatının, o cümlədən Lüksemburq Deputatlar Palatası üzvlərinin "persona nonqrata" elan olunması məhz Azərbaycanın sülh və sabitlik yaradılması səylərinə zidd hərəkətlərin fəal surətdə dəstəklənməsi, dövlətimizin ərazi bütövlüyünə və suverenliyinə aşkar hörmətsizliyin nümayiş etdirilməsi ilə bağlı olmuşdur. Həmin tədbirlərin ləğv edilməsinə çağırış bu cür dəstəyin ikitərəfli və çoxtərəfli münasibətlər üçün doğurduğu ağır nəticələrin dərk edilmədiyini göstərir.

Azərbaycan Respublikası Lüksemburq da daxil olmaqla, bütün beynəlxalq tərəfdaşlar ilə konstruktiv dialoqa sadiqdir, lakin bu cür dialoq qarşılıqlı hörmətə və beynəlxalq hüquqa riayət edilməsinə əsaslanmalıdır. Bununla əlaqədar olaraq, Azərbaycan Milli Məclisi Lüksemburq Nümayəndələr Palatasından aqressiv ritorikanı kənara qoymağı, eləcə də parlament dialoqu və diplomatiyası prinsiplərinə zidd olan, etimadı və əməkdaşlıq yaradılması səylərini sarsıdan qətnamələr qəbul edilməsi praktikasından əl çəkməyi tələb edir.

# *Almaniyanın xarici işlər naziri:* "Bizim ambisiyamız Avropanı dünyanın iqlim üzrə ilk neytral qitəsinə çevirməkdir"



"Amerika Birləşmiş Ştatları iqlim siyasətində öz rolu ilə bağlı geriyə doğru addım atarsa, o zaman "Hər şeydən öncə Amerika" devizinə qarşı Avropa olaraq cavabımız "Birləşmiş Avropa" olacaq. Bu cavab iqlimin qorunması, Yeni "Yaşıl Razılaşma", ilk növbədə isə bizim qitədə iqlimə investisiyalar üçün daha çox işlər görməkdən ibarət olacaq. Bizim ambisiyamız Avropanı dünyanın iqlim üzrə ilk neytral qitəsinə çevirməkdir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berbok COP29 iqlim konfransı çərçivəsində mətbuat konfransında səsləndirib.

O bildirib ki, gələcəyin iqtisadi qüdrəti kimin daha sürətlə "yaşıl transformasiya" ilə irəliləyəcəyindən asılı olacaq. Bu transformasiya digər dövlətlərə və ya qitələrə qarşı çevrilmiş fəaliyyət kimi anlaşılmamalıdır. Bu yolda birlikdə irəliləmək hamının güclənməsinə səbəb olacaq: "Ona görə də biz həm öz ölkəmizdə, həm də dünyanın müxtəlif yerlərində "yaşıl transformasiya" üçün investisiyalarımızın həcmini artıracağıq".

# Şotlandiya parlamentindən COP29-un sülh çağırışına və Azərbaycanın təşəbbüslərinə dəstək

Şotlandiya parlamentində "COP29-un sülh quruculuğu səyləri və COP atəşkəs təşəbbüsü" adlı qətnamə irəli sürülüb.

AZƏRTAC xəbər verir ki, parlamentin rəsmi internet səhifəsində yerləşdirilən qətnamədə COP29-un dünyada, o cümlədən Azərbaycan və Ermənistan arasında sülh, beynəlxalq əməkdaşlıq və dostluq üçün əlamətdar hadisə olduğu vurğulanır. COP29-da iqlimlə bağlı fəaliyyətin sülh və əməkdaşlıq üçün xalqlar arasında necə körpü rolunu oynaya biləcəyi sənəddə qeyd olunur. Sənəddə həmçinin dünyada davam edən münaqişələrdə iştirak edən bütün tərəfləri hərbi əməliyyatları dayandırmağa çağıran "COP atəşkəs" təşəbbüsünə dəstək ifadə olunur.

COP29-un beynəlxalq iqlim danışıqları üçün həlledici məqam olduğu bildirilir və tədbirdə iştirak edən bütün tərəflərə iqlim böhranı ilə əsaslı şəkildə mübarizə aparmaq üçün əməkdaşlığa çağırış edilir.

Qeyd edək ki, sözügedən qətnaməni 5 siyasi partiyadan - Leyboristlər, Mühafizəkarlar, Yaşıllar, Liberal Demokratlar, Şotlandiya Milli Partiyasından 25 nəfər parlament üzvü dəstəkləyib.

# Dövlət Sosial Müdafiə Fondunun büdcəsi sosial rifah prinsiplərini rəhbər tutaraq tərtib edilib

Noyabrın 21-də Milli Məclisin Əmək və sosial siyasət və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasın gündəliyinə 5 məsələ - "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında", "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında", habelə "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda daxil edilib.

Əvvəlcə, iclasda Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihələrini təqdim edib.

Komitə sədri dövlət siyasətinin mühüm istiqamətlərindən biri olan sosial müdafiə və sosial təminat sahəsində ölkədə aparılan islahatların vətəndaşlarımızın sosial rifah halının qorunmasına və yüksəldilməsinə təminatlar yaratdığını söyləyib. Qeyd edib ki, müzakirəyə təqdim olunan "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihəsi də sosial ədalət və sosial rifah prinsiplərinə xidmət edən bu ali niyyəti rəhbər tutaraq tərtib edilib.

Musa Quliyev diqqətə çatdırıb ki, fondun 2025-ci il üzrə xərclərinin maliyyələşdirilməsi üçün maliyyə mənbəyi 7 milyard 676 milyon manat nəzərdə tutulur ki, bu da 2024-cü il ilə müqayisədə 727 milyon manat və ya 10,5 faiz çoxdur. Fondun maliyyə mənbəyinin 7 milyard 617 milyon manatlıq hissəsini fondun gəlirləri, 59 milyon manatlıq hissəsini isə fondun əvvəlki illərdə yaradılmış ehtiyatından 2025-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən vəsait təşkil edir.

Fondun 2025-ci il üçün gəlirlərinin 78,1 faiz və ya 5 milyard 997 milyon manatının məcburi dövlət sosial sığorta (MDSS) daxilolmaları üzrə formalaşacağı proqnozlaşdırılır. Bu isə cari ilin müvafiq göstəricisindən 519 milyon manat və ya 9,5 faiz çoxdur. Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 66,1 faizi qeyri-büdcə sektorunun, 33,9 faizi isə büdcədən maliyyələşən təşkilatların hesabına təmin ediləcək.

Dövlət Sosial Müdafiə Fondunun xərcləri ilə bağlı qeyd edilib ki, fondun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,52 faizini və ya 7 milyard 408 milyon manatını əhaliyə ödənişlər təşkil edəcək. Əhaliyə ödənişlər üzrə xərclərin 7 milyard 210 milyon manatı əmək pensiyalarının, 198,4 milyon manatı isə məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlərin payına düşür. Əhaliyə ödənişlərin 2025-ci il üçün nəzərdə tutulmuş proqnozu 2024-cü ilin təsdiqlənmiş proqnozundan 702,4 milyon manat, yaxud 10,5 faiz çoxdur. Əmək pensiyalarının orta aylıq məbləğinin 2025-ci ildə 535 manat olacağı, yaşa görə pensiyanın orta aylıq məbləğinin 571 manata yüksəlməsi proqnozlaşdırılır.

Komitə sədri bildirib ki, növbəti ildə əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi, eləcə də pensiya və müavinətlərin əhaliyə çatdırılması və bank əməliyyatlarının aparılması üzrə xidmət haqqı xərcləri ümumilikdə 87 milyon manat məbləğində nəzərdə tutulur. O vurğulayıb ki, ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası sosial sahədə 159 xidmətin "bir pəncərə"dən, operativ, şəffaf, innovativ əsasda təqdim olunmasına imkan yaradıb. Hazırda ölkə üzrə 7 DOST mərkəzi, o cümlədən Şuşa filialı və Ağalı "Smart DOST" xidmət məntəqəsi fəaliyyət göstərir. Bu mərkəzlərə cari ildə 720 mindən çox vətəndaşımız müraciət edib və məmnunluq indeksi 98,3 faiz təşkil edib.

2025-ci ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsinə 198,41 milyon manat vəsait nəzərdə tutulub ki, bu da cari ilin təsdiqlənmiş proqnozuna nisbətən 9,3 faiz, yaxud 16,83 milyon manat çoxdur. Sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası vasitəsi ilə maliyyələşdiriləcək xərclər 25 milyon manat olacaq.

Qeyd edilib ki, fond tərəfindən investisiya fəaliyyəti dövründə ümumilikdə 67,18 milyon manat gəlir əldə edilmiş və 2024-cü ilin sonuna qədər əlavə olaraq 15,82 milyon manat gəlir əldə olunması gözlənilir. Fondun investisiya gəlirlərindən şəhid ailələri və müharibə əlillərinin mənzil və ya fərdi evlərlə təmin edilməsi, məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması və sair istiqamətlərdə sərf edilir.

Musa Quliyev Azərbaycan Prezidenti tərəfindən təqdim edilmiş qanun layihəsinin ölkə qanunvericiliyinin tələblərinə uyğun hazırlandığını, sosial və büdcə siyasətinin ümumi məqsədlərinə, Azərbaycan Respublikasının büdcə sisteminin vahidlik və müstəqillik prinsiplərinə müvafiq olduğunu və gələn il pensiya və müavinət alan vətəndaşlarımızın sosial rifahının yaxşılaşması üçün etibarlı təminat yaradacağını vurğulayıb.

Sonra komitə sədri "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihəsi barədə məlumat verib. O, növbəti ildə fondun gəlir və xərclərinin bərabər olmaqla 260 milyon 700 min manat nəzərdə tutulduğunu, bunun cari ildəkindən 22,7 milyon manat, yaxud 9,5 faiz çox olduğunu söyləyib.

Bildirilib ki, növbəti ildə İşsizlikdən Sığorta Fondunun xərcləri 13 istiqaməti əhatə edəcək. Xərclərin 29,5 faizi özünüməşğulluq tədbirlərinin, 13,4 faizi peşə hazırlığı və əlavə təhsilin təşkili xərclərinin maliyyələşməsinə yönəldilməklə, ümumilikdə 55 faiz vəsait aktiv məşğulluq tədbirləri istiqaməti üçün nəzərdə tutulub.

Cari ilin təsdiqlənmiş büdcə layihəsi ilə müqayisədə 2025-ci ildə işsizliyə görə sığorta ödənişləri xərclərinin 2 milyon manat, yaxud 13,3 faiz, özünüməşğulluq tədbirlərinin maliyyələşdirilməsi xərclərinin 4 milyon manat, yaxud 5 faiz artırılması nəzərdə tutulur. 2025-ci ildə İSF hesabına 8 min nəfərin özünüməşğulluq proqramına qoşulması nəzərdə tutulur. Bununla da 2017-ci ildən 2025-ci il daxil olmaqla özünüməşğulluq proqramı ilə əhatə olunacaq şəxslərin sayı 100 min nəfər təşkil edəcək.

Növbəti il üçün Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinə 9 milyon manat vəsait ayrılması nəzərdə tutulur.

Sonra iclasda əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihələri ilə bağlı fikirlərini açıqlayıb. O bildirib ki, Azərbaycan dövləti tərəfindən ardıcıl sosialyönümlü siyasət həyata keçirilir. Ölkədə əhalinin rifah halının və sosial təminatının yüksəldilməsi, həyat şəraitinin daha da yaxşılaşdırılması istiqamətində bir çox layihələr icra olunur.

Nazir 2025-ci ilin dövlət və icmal büdcələrinin sosial çağırışlara cavab verdiyini, burada sosialyönümlü xərclərin prioritet təşkil etdiyini söyləyib. O qeyd edib ki, dövlət büdcəsində növbəti il üçün sosialyönümlü xərclərə 16,9 milyard manat məbləğində vəsait ayrılıb. Elm, təhsil, səhiyyə, sosial müdafiə, mədəniyyət, incəsənət və bu qəbildən olan sosial xərclər üzrə növbəti ilin büdcəsi 12,6 milyard manat təşkil edəcək. Sosial müdafiə, sosial təminat xərcləri 4,8 milyard manat vəsait nəzərdə tutulub.

Sahil Babayev diqqətə çatdırıb ki, növbəti ildə Dövlət sosial müdafiə fondunun büdcəsinin gəlir və xərcləri 7,7 milyard manat məbləğində proqnozlaşdırılır. Fondun məcburi dövlət sosial sığorta haqları üzrə gəlirləri 6 milyard manat məbləğində müəyyən olunub. Büdcədən maliyyələşən təşkilatlar üzrə artım 135 milyon manat, qeyri-büdcə təşkilatları üzrə artım isə 385 milyon manat olaraq proqnozlaşdırılır. Transfertin həcmi 1,6 milyard manat müəyyən edilib. Növbəti ildə transfertin fondun cari xərclərindəki payı 20,8 faiz təşkil edəcək. Xərclərin 96 faizi, yaxud 7,4 milyard manatı əhaliyə ödənişlərin payına düşür. Əmək pensiyalarının maliyyələşdirilməsinə 7,2 milyard manat vəsait yönəldiləcək. Məcburi dövlət sosial sığorta hesabına verilən müavinətlər üzrə 198,4 milyon manat vəsait ayrılıb. Həyata keçirilən sosial islahatlar nəticəsində Dövlət sosial müdafiə fondunun beynəlxalq təşkilatlar tərəfindən 50 mükafat və sertifikata layiq görüldüyü də qeyd edilib.

Bildirilib ki, 2019-2024-cü illər ərzində həm Dövlət Vergi Xidmətinin əlavə yığımı, həm də əsassız pensiya ödənişlərinin aradan qaldırılması nəticəsində ümumilikdə 3,1 milyard manat vəsait əldə edilib. Bu vəsaitin 1,6 milyard manatı dövlət büdcəsinə ödənilib, 1,5 milyard manatı isə investisiyaya yönəldilib. İnvestisiya fəaliyyəti nəticəsində əldə edilən vəsait şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlərlə təmin edilməsinə, keçmiş məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına və digər istiqamətlərə yönəldilib.

Sonra İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında məlumat verən Sahil Babayev fondun gəlir və xərclərinin 260,7 milyon manat təşkil etdiyini deyib. Qeyd edilib ki, bu məbləğin sığorta haqları gəlirləri hissəsi 206 milyon manatdır. Dövlət Məşğulluq Agentliyi tərəfindən məşğulluq tədbirləri ilə əhatə olunacaq şəxslərin sayı 2025-ci ildə 400 min nəfər müəyyən edilib.

Bildirilib ki, işsizliyə görə sığorta ödənişləri çərçivəsində növbəti ildə 17 milyon manat məbləğində vəsait proqnozlaşdırılır. Əhalinin özünüməşğulluğunun təmin olunması üçün 77 milyon manat vəsait ayrılıb və 8 min ailədə mikro və kiçik biznesin yaradılması planlaşdırılır. Növbəti ildə peşə hazırlığı və əlavə təhsil üçün 35 milyon manatın ayrılması və 16 min nəfər işsiz və işaxtaran şəxsin peşə hazırlığına cəlb edilməsi nəzərdə tutulur, ölkədə 105 əmək yarmarkasının təşkil olunması planlaşdırılır. Növbəti ildə də yeni sosial islahatlar paketinin həyata keçirilməsinin, o cümlədən minimum əməkhaqqının, minimum pensiyaların, sosial müavinət və təqaüdlərin artırılmasının, pensiyaların indeksləşdirilməsinin nəzərdə tutulduğu qeyd edilib.

Sonra iclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edərək, Dövlət sosial müdafiə fondunun və İşsizlikdən sığorta fondunun 2025-ci il üzrə dövlət büdcələri layihələrinə dair palatanın rəylərini səsləndirib. O bildirib ki, hər iki sənəd müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq hazırlanıb. Rəydə DSMF və İSF büdcələrinin gəlir və xərclərinin təhlili aparılıb, pensiya təminatı sisteminin dayanıqlığı ilə bağlı qeydlər yer alıb, palatanın tövsiyələri öz əksini tapıb.

Tədbirdə parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov çıxış edib. O, təqdim edilən qanun layihələri barədə fikirlərini açıqlayaraq, rəhbərlik etdiyi komitə tərəfindən DSMF və İSF-nin büdcə layihələrinin dəstəkləndiyini söyləyib. Bu fondların büdcələrinin dövlətin sosial müdafiəsinin təmin edilməsi üçün maliyyə mexanizminin təşkil etdiyini deyib.

Komitə sədri ölkənin iqtisadi strategiyasının əsas hədəflərinin qüdrətli dövlət və yüksək rifah cəmiyyətinin qurulması və bu strategiyada əsas amilin güclü iqtisadiyyatın formalaşması olduğunu qeyd edib. Yüksək həyat səviyyəsinin təmin edilməsi, o cümlədən gəlirlərin artırılması, sosial müdafiə sisteminin inkişafı üçün müvafiq maliyyə təminatının yaradılmasının əhəmiyyətindən bəhs edib. O bildirib ki, 2025-ci ildə makro-iqtisadi sabitliyin təmin edilməsi, inflyasiyanın cilovlanması əsas hədəflərdən biri kimi müəyyən olunub. İqtisadi siyasətlə sosial siyasətin əlaqələndirilməsi ilə bağlı fikirlərini bölüşüb. Hər iki fondun sosial müdafiənin təşkili baxımından əhəmiyyətli rol oynadığını söyləyib.

Sonra iclasda İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov "Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsini təqdim edib. Sənədə əsasən, 2025-ci il üçün yaşayış minimumu ölkə üzrə 285 manat, əmək qabiliyyətli əhali üçün 305 manat, pensiyaçılar üçün 232 manat, uşaqlar üçün 246 manat məbləğində müəyyən edilib.

Tədbirdə Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov "Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi barədə məlumat verib. Layihədə ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2025-ci il üçün ehtiyac meyarının həddi 285 manat məbləğində müəyyən edilib.

Gündəliyin sonuncu məsələsi olan "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev məlumat verib. O bildirib ki, layihə 3 qanun üzrə 4 dəyişikliyi özündə ehtiva edir.

Dəyişikliklərdə birinci istiqamət gəlir vergisi, işsizlik, tibbi və sosial sığorta barədə hesabatların təqdim edilməsi vaxtlarının tənzimlənməsi ilə bağlıdır. İkinci əsas mahiyyət xarakterli digər dəyişiklik həyatın yığım sığortası sahəsində sosial sığorta üzrə güzəştlərin məhdudlaşdırılması ilə bağlıdır. Belə ki, həyatın yığım sığortası sahəsində sosial sığorta ilə bağlı güzəştlərin dövlət sektoruna münasibətdə 2025-ci ildən ləğvi təklif olunub.

Layihədə təsbit olunan tənzimləyici keçid müddəalarını da şərh edən Adil Vəliyev vurğulayıb ki, həyatın yığım sığortası sahəsində sosial sığorta ilə bağlı güzəştlərin dövlət sektoruna münasibətdə ləğvi gələcəkdə DSMF-nin gəlirlərinin artmasına şərait yaradacaq.

Gündəlikdəki məsələlərin müzakirəsində Əmək və sosial siyasət komitəsi sədrinin müavini Elşad Musayev, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Azər Badamov, həmin komitələrin üzvləri Jalə Əliyeva, Əli Məsimli, Vüqar Bayramov, Aydın Hüseynov, Əlibala Məhərrəmzadə, Əziz Ələkbərov, Müşfiq Cəfərov çıxış ediblər, 2025-ci ilin büdcə layihəsi barədə fikirlərini və bəzi qeydlərini açıqlayıblar.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev səsləndirilən fikirlərə münasibət bildirib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev iclasa yekun vuraraq qanun layihələri ilə bağlı səmərəli müzakirələrə görə tədbir iştirakçılarına təşəkkür edib.

Müzakirələrin sonunda iclasda təqdim edilən 5 qanun layihəsinin hər biri birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Azərbaycanın "yaşıl təşəbbüsləri"nə qlobal dəstək







## "COP29-un nəcib missiyasından qürur duyuruq"

### Azərbaycan həmkarlar ittifaqlarının fəaliyyəti beynəlxalq miqyasda təqdir olunur



**COP29-da iştirak etmək üçün Bakıda səfərdə olan Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası (BHİK) Baş katibinin müavini Erik Manzi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) "Buzovna" Fizioterapiya Mərkəzində olub.**









Mərkəzə baxış zamanı Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov qonağa məlumat verib ki, burada 90 nəfərlik 2 dördmərtəbəli yataq korpusu var. Bütün otaqlar zəruri məişət avadanlıqları ilə təchiz edilib. Eləcə də mərkəzdə ittifaq üzvlərinin rahat dincəlməsi üçün istirahət guşələri yaradılıb. İkimərtəbəli müalicə korpusunun birinci mərtəbəsində yeməkxana zalı, ikinci mərtəbəsində müalicə və müayinə kabinetləri, masaj otaqları yerləşir. Qapalı hovuz da müalicə olunanların istifadəsindədir. Həmçinin mərkəzin ərazisində geniş yaşıllaşdırma işləri aparılıb, gül-çiçək, dekorativ kol və ağaclar əkilib.

BHİK rəsmisi yaşayış otaqlarına, müalicə və müayinə kabinetlərinə baxıb, yaradılmış şəraitlə tanış olub. Həkimlərlə söhbət edən qonağa mərkəzin iş prinsipi, göstərilən xidmətlər, prosedur qaydaları, qidalanma haqqında məlumat verilib. Həmçinin bildirilib ki, COP29 tədbirlərinə qatılan xarici qonaqların yerləşdikləri məkanların arasında "Buzovna" Fizioterapiya Mərkəzi də var. Qonaqların burada qalmaları və istirahəti üçün bütün zəruri tədbirlər görülüb, eyni zamanda "AHİK könüllüləri" proqramının iştirakçıları onların rahat işləməsi üçün hər cür dəstək verirlər.

Erik Manziyə "AHİK könüllüləri" proqramı haqqında da məlumat verilib. Bildirilib ki, AHİK-in yeni layihəsi olan könüllük proqramı həmkarlar ittifaqlarının fəaliyyətinin təbliği, nüfuzunun artırılması və sıralarının genişlənməsi məqsədini daşıyır. Könüllülərlə söhbətləşən BHİK rəsmisinin diqqətinə çatdırılıb ki, onlar AHİK-in Əmək və Sosial Münasibətlər Akademiyasının tələbələridir. Bu layihə onların bilik və bacarıqlarının artırılması, istedadlarını nümayiş etdirmələri, təcrübə qazanmaları və sosiallaşmaları üçün olduqca mühüm fürsətdir. Həm də onlar COP29 tədbirinin keçirilməsinə, iqlim dəyişmələrinə qarşı mübarizəyə dəstək vermək üçün buradadırlar və bu nəcib missiyadan qürur duyurlar.

Erik Manzi Bakı şəhəri və iştirakçısı olduğu COP29 haqqında təəssüratlarını bölüşüb, tədbirin yüksək səviyyədə təşkil olunmasından, azərbaycanlıların qonaqpərvərliyindən razılığını ifadə edib.

Qeyd edək ki, BHİK Baş katibinin müavini Erik Manzi konfederasiya sədri Sahib Məmmədovla birgə Bakının tarixi məkanlarında da olub.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

## *Nik Nəzmi Nik ƏHMƏD:*
## "Malayziya alternativ və bərpaolunan enerji sahəsində Azərbaycanla əməkdaşlıqda maraqlıdır"

**"Malayziyada təbiətə əsaslanan bir çox həll yolumuz var və bunun iqlim dəyişikliyi ilə mübarizə üçün qlobal səylərə töhfə verə biləcəyini düşünürük. Biz həmçinin iqlim dəyişikliyi problemi ilə mübarizənin maliyyələşdirilməsi baxımından iqlim ədalətinə diqqət yetiririk. Bu qlobal problem dünyanın bir araya gələrək COP29 zamanı həll edilməli olan bir məsələdir".**



Bu barədə AZƏRTAC-a açıqlamasında Malayziyanın təbii sərvətlər və ətraf mühitin davamlılığı naziri Nik Nəzmi Nik Əhməd COP29 çərçivəsində "mavi zona"-da Malayziyanın milli pavilyonunda deyib.

"COP29-un Paris Sazişinin 6.2-ci və 6.4-cü maddələrinə dair qətnaməsinin olması və təkcə sazişin tərəflərinin deyil, həm də işgüzar dairələrin karbon bazarında iştirakına imkan yaratmaq niyyəti var. Qeyd etmək istərdim ki, ASEAN - Cənub-Şərqi Asiya ölkələri assosiasiyasıdır. O, Malayziya, Tayland, Sinqapur və İndoneziyadakı biznesləri cəlb edir. Gələn il Malayziya ASEAN-ın sədri olacaq. Malayziyanın əhalisi təxminən 35 milyon, ASEAN-a daxil olan ölkələrin əhalisi isə 670 milyon nəfərdir. Biz 2030-cu ildə dünyanın dördüncü ən böyük iqtisadiyyatı olacağıq. Buna görə Azərbaycanla əlaqələrimizi və əməkdaşlığımızı genişləndirmək niyyətimiz var", - deyə nazir bildirib.

Malayziyanın bir sıra beynəlxalq tədbirlərdə təmsil olunduğunu diqqətə çatdıran nazir COP29-un təşkilatçılığını yüksək qiymətləndirib.

"COP29-da fərqli özəl sektorlar arasında sənəd mübadiləsi apardıq. Azərbaycan və Malayziya arasında uzun müddətdir diplomatik əlaqələr mövcuddur. Biz iqlim dəyişikliyi ilə bağlı bir-birimizə bir neçə həll yolları təqdim edə bilərik. Həmçinin ölkəmiz alternativ və bərpaolunan enerji sahəsində Azərbaycanla əməkdaşlıqda maraqlıdır", - deyə nazir Nik Nəzmi Nik Əhməd vurğulayıb.

## *Ninni İkkala NYMAN:*
## "COP29-da iqlim fəaliyyəti ilə bağlı vacib qərarların qəbul edilməsini gözləyirəm"

**"Biz COP29-dakı müzakirələrə pozitiv yanaşırıq və fikirlərimiz müsbətdir. Burada gənclərin və ictimaiyyətin iştirakını xüsusi vurğulamaq istəyirəm".**



Bunu Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının iqlim dəyişmələri üzrə nümayəndəsi (iqlim rəhbəri) Ninni İkkala Nyman deyib.

O, COP29-da iqlim fəaliyyəti ilə bağlı vacib qərarların qəbul edilməsini gözlədiyini bildirib: "Maliyyə və uyğunlaşma ilə bağlı bəzi qərarların COP29-da təsdiqlənəcəyinə ümid edirəm.

Həll etməli olduğumuz ən böyük problemlərdən biri istilikdir. Bu, qırmızı yol ayrıcında bizim üçün əsas prioritetdir. Çünki hər il yarım milyona qədər insan istiləşmə səbəbindən dünyasını dəyişir".

## İqlim fəsadlarının sağlamlığa təsiri

### COP29-da bu problem də diqqətdə saxlanılıb

**İqlim dəyişiklikləri və onların yaratdığı fəsadlar dünyamızın ən qlobal problemidir desək, yanılmarıq. Bu fəsadların böyük bir qismi də antropogen təsirlərlə əlaqədardır. İqlim dəyişikliyi, sürətli əhali artımı, təbiətə atılan sənaye tullantıları, plastik məmulatlar, qeyri-sağlam urbanizasiya havanın, suyun və torpağın çirklənməsinə səbəb olur ki, bu da dünyanın təbii tarazlığını pozaraq sağlamlığa ciddi təsir edir. Sağlamlığa və ətraf mühitə zərər vuran bu amillərin idarə olunması, onların zərərinin minimuma endirilməsi üçün beynəlxalq miqyasda tədbirlər görülür.**



Dünyanın əhəmiyyətli və irimiqyaslı beynəlxalq tədbirlərindən olan COP29-un Azərbaycanda keçirilməsi də ölkəmizin iqlim dəyişikliklərinin yaratdığı fəsadlara qarşı apardığı mübarizənin bariz göstəricisidir. Konfransın ilk günündən etibarən mütəmadi olaraq sağlamlıqla bağlı panel müzakirələri aparılır, tədbirlər keçirilir.

"İqlim dəyişikliyinin sağlamlığa təsiri artıq dünyanın hər yerində hiss olunur". Bunu COP29 çərçivəsində keçirilən iqlim və sağlamlıq mövzusunda yüksəksəviyyəli "dəyirmi masa"da səhiyyə naziri Teymur Musayev deyib. Nazir qeyd edib ki, iqlim dəyişikliyinin sağlamlığa təsirləri yalnız insanların rifahını deyil, səhiyyə sistemlərini də təhdid edir. Nazir qeyd edib ki, hazırda bu çağırışlarla mübarizə aparmaq üçün irəliyə doğru mühüm addımlar atılır: "Ümumdünya Səhiyyə Təşkilatı ilə birlikdə iqlim dəyişikliyi və sağlamlığın qlobal gündəmin mərkəzində qalmasını təmin etməyə sadiqik. Bu gün burada təmsil olunan ölkələrin hər biri iqlimlə bağlı fəaliyyətin sağlamlıq ölçülərini tanımaqda mühüm addımlar atır".

Bir neçə gün öncə "yaşıl zona"da "Sağlamlığa Xidmət" İctimai birliyi və Beynəlxalq Stop Vərəm Tərəfdaşlığının birgə təşkilatçılığı ilə iqlim dəyişikliyinin sağlamlığa təsiri, o cümlədən antimikrobial rezistentlik mövzusunda yüksəksəviyyəli müzakirə keçirilib. Tədbirdə Kamerun, Keniya və Zambiyadan olan parlament üzvləri, həmçinin Azərbaycan Milli Məclisinin Səhiyyə komitəsinin üzvləri iştirak ediblər. Panel sessiyalarda TƏBİB-in departament rəhbəri Yaqut Qarayeva, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin şöbə müdiri Nəzifə Mürsəlova, Qazaxıstan, Qırğızıstan və Hindistandan ekspertlər iştirak edərək, sözügedən mövzuda auditoriyanın suallarını cavablandırıblar.

COP29-da "Vahid Sağlamlıq yanaşması: İnsan inkişafı naminə sahələrarası işbirliyinin artırılması" mövzusunda da yüksəksəviyyəli "dəyirmi masa" keçirilib. Tədbirdə "Dəyişən iqlimdə davamlılığın artırılması: Daha sağlam gələcək üçün Azərbaycanın Vahid Sağlamlıq yanaşması" və "Vahid Sağlamlığın tətbiqi üzrə dörd tərəfin birgə yanaşması: Effektiv sahələrarası işbirliyi yolu ilə daha böyük təsirə nail olunması" mövzularında sessiyalar baş tutub.

Konfrans çərçivəsində həmçinin şəhərlərdə təbiət, sağlamlıq və dayanıqlılıq mövzusunda yüksəksəviyyəli "dəyirmi masa" təşkil olunub. COP29 sədrliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, BMT-nin Ətraf Mühit Proqramının (UNEP), Dünya Səhiyyə Təşkilatının (WHO), BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO), BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) və Dünya Meteorologiya Təşkilatının (WMO) birgə təşəbbüsü ilə keçirilən tədbirdə iqlim dəyişikliyinin şəhərlərə, infrastrukturlara, sakinlərin sağlamlığına təsirlərindən söz açılıb.

Bildirilib ki, proqnozlara görə, 2050-ci ilədək dünya əhalisinin təxminən 70 faizi şəhərlərdə yaşayacaq. Bu da öz növbəsində şəhərlərin ətraf mühitə mənfi təsirlərini azaltmaq məsələsini aktuallaşdırır. "Dəyirmi masa"da şəhərlərdə əhalinin sağlamlığının qorunması, məşğulluğun təminatı, yaşıl məkanların sahəsinin artırılması, tullantıların idarə olunması, şəhərsalmanın iqlim tələblərinə uyğunlaşdırılması məsələlərinə toxunulub.

Qeyd etmək lazımdır ki, hazırda Abşeron yarımadasında 21 min hektara yaxın yaşıllıq sahəsi mövcuddur. 2024-2030-cu illərdə 6 min hektardan artıq ərazidə yeni yaşıllıqların salınması nəzərdə tutulub. Müasir qlobal ekoloji böhran şəraitində yalnız paytaxtda deyil, bütün ölkə ərazisində yaşıllaşmanın artırılması dövlətimizin ekoloji siyasətinin vacib istiqamətini təşkil edir. Bu istiqamətdə genişmiqyaslı ağacəkmə kampaniyaları həyata keçirilir, parklar, yaşıllıqlar salınır. Bütün bunlar isə təbiətin bərpasına, bilavasitə insanların sağlamlığının qorunmasına töhfə verəcəkdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*




COP29 Baku Azerbaijan

## Azərbaycandan dünyaya "yaşıl çağırış"lar

# "Yaşıl Sumqayıt" İlham Əliyevin

## Sumqayıt 75 illik yubileyini müasir və modern şəhər

**Bu günlərdə Bakının evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası respublikamızın mühüm uğuruna çevrildi. Bu mötəbər tədbirin Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilməsi ölkəmizə göstərilən yüksək beynəlxalq etimadın və ehtiramın nümunəsi olmaqla yanaşı, respublikamızın "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq "yaşıl artım" ölkəsi kimi inkişafının qlobal səviyyədə qiymətləndirilməsinin göstəricisidir.**

**Azərbaycanın "yaşıl artım" ölkəsi kimi inkişafının ən mükəmməl nümunələrindən biri noyabrın 22-də şəhər statusu almasının 75-ci ili tamam olan Sumqayıtdır.**





### Kiçik qəsəbədən böyük şəhərə…

Sumqayıtda aylardır ki, yubiley ab-havası yaşanır, şəhərin bütün küçə və prospektləri, park və xiyabanları bayram libasına bürünüb. Üstəlik, Vətən müharibəsindəki Zəfərin növbəti ildönümü, COP29 kimi mötəbər bir tədbirin respublikamızda keçirilməsi kimi əlamətdar hadisələr yubiley atmosferini daha da yüksəltdi. Sumqayıtın şəhər statusu almasının 75-ci ildönümü sıradan bir yubiley deyil. Bu həm də bir vaxtlar Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı kimi keçmiş Sovet İttifaqının ən qabaqcıl sənaye mərkəzlərindən birinə çevrilən, bu gün isə yalnız sənaye deyil, həm də Azərbaycanın ən gözəl və abad ünvanlarından biri kimi fərqlənən şəhərin keçdiyi inkişaf yollarının, əldə etdiyi misilsiz uğurların təqdimatıdır.

Tək Azərbaycanın deyil, bütün Cənubi Qafqazın mühüm sənaye mərkəzi və ən gözəl ünvanlarından biri kimi şöhrətini gündən-günə artıran Sumqayıtın müasir tarixi XX əsrin 30-cu illərinin sonundan başlayır. Sovet hökumətinin Abşeron yarımadasında növbəti sənaye mərkəzi yaratmaq barədə qərarından irəli gələrək 1939-40-cı illərdə Sintetik Kauçuk, Boru yayma və Kimya zavodlarının bünövrəsi qoyulur. 1941-ci ildə istilik elektrik stansiyası işə düşür. 1945-ci ildə Kimya zavodu ilk məhsulunu verir.

1949-cu ildə isə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Sumqayıta şəhər statusu verilir. Bununla da Sumqayıtın şəhər kimi yeni tarixi başlayır. Qəsəbə olaraq yaranan Sumqayıt tədricən sənaye mərkəzinə çevrilməyə başlayır. 1952-ci il Boruyayma zavodu ilk məhsulunu buraxır. Vaxtilə tikintisi dayanmış Sintetik Kauçuk zavodu da işə salınır və ilk dəfə neftdən etil spirti əldə edilir. 1955-ci ildə isə Alüminium zavodu işə düşür. Ötən əsrin 60-cı illərində Polimer tikinti materialları kombinatı, Superfosfat zavodu tikilərək istehsala başlayır. Bütün bunlara paralel olaraq elmi-tədqiqat institutları və mədəniyyət mərkəzləri tikilir, şəhər infrastrukturu inkişaf etdirilir.

### Azərbaycanın inkişaf göstəricilərində Sumqayıtın rolu daha da yüksəldi

Sumqayıtın daha sürətli inkişafı isə Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlamasından sonrakı dövrə təsadüf edir. Məlum olduğu kimi, 1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbərliyə gələndə respublikamız ittifaq miqyasında çox geridə qalmışdı. Məhz Heydər Əliyevin yüksək təşkilatçılıq bacarığı, yorulmaz fəaliyyəti sayəsində iqtisadiyyatın bütün sahələrində vüsətli dəyişikliklər baş verdi və Azərbaycan Rusiya, Belarus və Ukraynadan sonra ittifaq büdcəsindən dotasiya almadan yaşayan iki respublikadan birinə çevrildi.

Təbii ki, bu inkişafda Sumqayıtın öz payı, öz yeri olmalı idi. Sumqayıtın sənaye potensialının böyük olduğunu nəzərə alan Heydər Əliyev şəhərin Azərbaycan iqtisadiyyatına verdiyi töhfələri daha da yüksəltməsi üçün diqqət və qayğısını əsirgəmədi. Beləliklə, sovet illərində Heydər Əliyevin keçmiş ittifaqın qabaqcılları sırasına çıxardığı Azərbaycanın əldə etdiyi inkişaf göstəricilərində Sumqayıtın rolu daha da yüksəldi.

Qeyd etdiyimiz ki, ötən əsrin 60-cı illərinə qədər Sumqayıtda əsas etibarilə metallurgiya və kimya müəssisələri yaradılmışdı. Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Sumqayıtda həm də yüngül sənaye müəssisələri yaradıldı, sənayenin digər sahələri inkişaf etdirildi. Buna misal olaraq əhalinin məişət kimyası mallarına olan tələbatını maksimum ödəmək məqsədilə 1970-ci illərin əvvəllərində yaradılan Sumqayıt Məişət Kimyası Zavodunu göstərmək olar. Heydər Əliyevin sayəsində belə bir zavod ilk olaraq Sumqayıtda yaradıldı. Yaxud Superfosfat zavodunda yüksək texnologiya əsasında inşa edilən dənəvər superfosfat gübrəsi istehsalatının işə salınmasını göstərmək olar. 1970-73-cü illərdə Üzvi sintez zavodunda bir-birinin ardınca qliserin, benzol, izobutilen və poliizobutilen, həmçinin xlor və diafraqma üsulu ilə kaustik soda istehsalı sexlərinin fəaliyyətə başlaması, 1974-cü ildə Sintetik Kauçuk zavodunda yüksək markalı kauçuk istehsal edən sexin yenidən qurulması ilə onun istehsal gücünün xeyli artırılması, Kompressorlar zavodunun, Üst trikotaj və Xovlu İplik fabriklərinin, Süd və Yeyinti məhsulları kombinatlarının yaradılması məhz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə Sumqayıtda sənaye sahələrinin inkişafı ilə bağlı əldə olunmuş nailiyyətlərdir.

Sumqayıtın neft-kimya kompleksi üçün Almaniya və Cexoslovakiya istehsalı olan və ən yeni texnologiyalar əsasında yaradılmış EP-300 qurğusunun - layihə gücü etilenə görə 300 min, propilenə görə isə 138 min ton olan nadir kompleksin alınması da Heydər Əliyevin sayəsində mümkün olmuşdu.

Bütün bunların nəticəsi kmi 1970-80-ci illərdə Sumqayıt öz iqtisadi potensialına görə keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda tanınan bir şəhər idi. Sumqayıt müəssisələrində istehsal olunan məhsullar ittifaqın 700-dən çox şəhərinə və xarici dövlətlərə ixrac olunurdu.

Azərbaycana ilk rəhbərliyi dövründə Heydər Əliyev düz 16 dəfə Sumqayıta səfər edib ki, bu da onun şəhərimizə olan xüsusi diqqət və qayğısının göstəricisidir. 1974-cü ildə Sumqayıtın 25 illik yubiley tədbirində çıxış edən Heydər Əliyev kimyaçıların heç də asan olmayan, gərgin, fədakar əməyini, əldə olunmuş nailiyyətlərini yüksək qiymətləndirməklə yanaşı, kimya sənayesinin prioritet inkişaf istiqamətləri barədə fikirlərini söyləyərək, qarşıda duran vəzifələrlə bağlı kimyaçılara gələcək üçün fəaliyyət proqramı ola biləcək dəyərli tövsiyələrini də vermişdi.

O dövrdə sənayenin inkişafı ilə yanaşı, Sumqayıt bir şəhər kimi də böyümüş, mikrorayonların sayı artmışdı. Hər il şəhərdə orta hesabla 80 min kvadratmetr mənzil sahəsi tikilib istifadəyə verilirdi. Sumqayıtın bir çox məşhur ünvanının da təməli məhz o illərdə qoyulmuş və inşa edilmişdir.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə də əvvəlki kimi Sumqayıta daim diqqət və qayğı göstərirdi. Bu qayğının nəticəsində Sumqayıt yenidən özünün dirçəliş dövrünə qədəm qoydu. 1993-cü il dekabrın 18-də Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti kimi ilk dəfə Sumqayıta gəlmiş, şəhərdə quraşdırılmış yeni telefon stansiyasının açılışında iştirak etmiş, Tarix muzeyində olmuş, "Şəhidlər xiyabanı" kompleksini ziyarət etmiş, şəhər icra hakimiyyətinin işçiləri ilə görüşərək tapşırıq və tövsiyələrini çatdırmışdı. Ulu Öndərin uzaqgörən siyasəti, tövsiyə və tapşırıqları şəhərin sosial-iqtisadi inkişafına böyük təkan vermişdi. Müstəqillik illərində Heydər Əliyev 6 dəfə Sumqayıtda olmuş, müxtəlif tədbirlərdə iştirak etmiş, şəhər ictimaiyyəti ilə görüşmüşdür. Bütün bunlar Ulu Öndərin Sumqayıta və sumqayıtlılara diqqətinin təzahürü idi.

Məhz Ümummilli Liderin müdrik və uzaqgörən iqtisadi inkişaf modelinin nəticəsi olaraq ötən əsrin 90-cı illərində Sumqayıtın yeni ictimai-iqtisadi münasibətlər sisteminə adaptasiyası sürətləndi. Şəhərin sənaye potensialının bərpası, mövcud müəssisələrin modernləşdirilməsi, elmi innovasiyaların tətbiqinin sürətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər tez bir zamanda müsbət nəticələrini göstərməyə başladı.

### Prezident İlham Əliyev Sumqayıtın yeni intibahının memarıdır

Ümummilli Lider Sumqayıtın daha da inkişafını, onun yenidən sənaye mərkəzi kimi fərqlənməsini, sakinlərinin yüksək rifah içində yaşamalarını istəyirdi. Böyük məmnunluqla qeyd etməliyik ki, Prezident İlham Əliyevin inkişaf və quruculuq siyasəti Ulu Öndərin Sumqayıtla bağlı qarşıya qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsini təmin edib. Ulu Öndər Heydər Əliyevin Sumqayıtla bağlı elan etdiyi prioritetlər həm də Azərbaycanın inkişaf sürətindən irəli gələrək yeni keyfiyyət mərhələsinə yüksəldilib. Şəhərin yalnız respublikamızın ən gözəl ünvanlarından birinə çevrilməsi deyil, Bakı şəhəri ilə tam rəqabət aparmaq imkanına malik olması da Prezident İlham Əliyevin Sumqayıtla bağlı qarşıya qoyduğu əsas hədəflərdəndir.

Ötən 21 ildə Sumqayıtın iqtisadi və sosial həyatında baş verənlər göstərir ki, Ulu Öndərin şəhərlə bağlı bütün arzuları həyata vəsiqə alır, şəhər Prezident İlham Əliyevin müəyyən etdiyi hədəflərə doğru inamla irəliləyir. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin inkişaf siyasətinin nəticəsi olaraq Sumqayıt tarixi ənənələrini sürətlə özünə qaytarıb və bu proses indinin özündə də davam edir.

Ötən əsrin 70-80-ci illərində olduğu kimi, geridə qoyduğumuz 21 ildə də respublikamızın makroiqtisadi göstəricilərində bu şəhərin xüsusi çəkisi yüksəlib, sahibkarlığın inkişafının daha da sürətləndirilməsi, istehsal və emal müəssisələrinin fəaliyyətinin bərpası və genişləndirilməsi, iqtisadi və sosial-mədəni infrastruktur obyektlərinin yenidən qurulması istiqamətində uğurlu nəticələr əldə olunub. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla icrası çərçivəsində qarşıya qoyulan vəzifələrin reallaşdırılması Sumqayıtı da dinamik inkişaf yoluna çıxarıb.

Bütövlükdə 21 ildə şəhərdə qazanılan hər bir sosial-iqtisadi uğur cənab Prezidentin adı ilə bağlıdır. Bu illər ərzində Sumqayıt daim Prezident İlham Əliyevin qayğısını hiss etmişdir. Bunu dövlət başçısının Sumqayıta 33 dəfə səfər etməsi də təsdiqləyir. Bu səfərlərin hər biri ali qayğının təsəssümü olmaqla Sumqayıtın inkişafına təkan vermiş, onun tarixində əlamətdar hadisəyə çevrilmişdir. Bir vaxtlar Ulu Öndər Heydər Əliyevin sayəsində inkişaf mərhələsinə qədəm qoyan şəhər indi Prezident İlham Əliyevin diqqət və qayğısı ilə yenidən çiçəklənir. Başqa cür desək, bir vaxtlar Sumqayıtın şöhrətini dünyaya çatdıran unudulmaz Heydər Əliyevin yolunu layiqincə davam etdirən Prezident İlham Əliyev bu şəhərin yeni intibahının memarıdır və buradakı inkişaf nümunələri müasir Azərbaycan dövlətinin yüksəlişini özündə simvolizə edir.

Bu dövrdə Sumqayıtda yeni sənaye kompleksinin formalaşdırılması ayrıca diqqət mərkəzində saxlanılmış və bu məqsədə nail olunmuşdur. Bunun nəticəsi kimi Sumqayıt intensiv sosial-iqtisadi inkişaf prosesləri dövrünü yaşamış, şəhərin sənaye potensialı dəfələrlə artmışdır.

















COP29 Baku Azerbaijan

## Azərbaycandan dünyaya "yaşıl çağırış"lar

# quruculuq missiyasının təntənəsidir

## modelinin mükəmməl nümunəsi olaraq qeyd edir








Bu dövrdə yaradılan "Novus Plastica" MMC-nin Polimer qatqıları istehsalı müəssisəsi, "Universal Qablaşdırma Sənaye" Qapalı Səhmdar Cəmiyyətinin Qablaşdırma məhsulları istehsalı müəssisəsi, "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsi, "Azgüntex" Zavodu, tərkibinə çörək zavodu, taxıl anbarı, dəyirman və logistik mərkəz daxil olan "Sağlam qida" Aqrar-Sənaye Kompleksi, "Azərsun Holdinq"in kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, "Gilan" Tekstil Parkı, Mis Emalı Zavodu, "Alyans Tekstil" MMC-nin uniformalar istehsalı fabriki, "Azkontakt" MMC-nin beton boru və beton döşəmə daşı istehsalı müəssisəsi, "Texnoil" MMC mühərrik yağları istehsalı müəssisələri, Kimya Sənaye Parkındakı İnşaat Kimyəviləri Zavodu, "Tabaterra" QSC-nin tütün məmulatları istehsalı fabriki, Əlvan Metallar və Ferroərintilər Zavodu, pestisid və aqro-kimyəvi məhsulları, sürtkü yağları, polipropilen qurğusu, elektron təhsil avadanlığı, şüşə və saxsı məmulatları istehsalı müəssisələri, Sumqayıt Texnologiyalar Parkında müxtəlif istehsal sahələri üzrə ixtisaslaşmış zavodlar, "Azərtexnolayn" MMC-nin polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsalı zavodları Sumqayıtın sənaye şəhəri kimi şöhrətini artırmaqla bərabər, respublikada gedən inkişaf proseslərinə layiqli töhfələr verir. O cümlədən "SOCAR Karbamid" və "SOCAR Polymer" kimi zavodların yaradılması, nəinki Sumqayıtın, respublikamızın iqtisadi həyatında mühüm hadisəyə çevrilmişdir.

Göründüyü kimi, hazırda şəhərdə onlarca kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri fəaliyyət göstərir. Onların hər biri Azərbaycan iqtisadiyyatında böyük rol oynayan aparıcı istehsal müəssisələridir. Beləliklə, tarixi şöhrətini bərpa edən Sumqayıt artıq yenidən regionun sənaye mərkəzinə çevrilmişdir.

### Yaraşıqlı və təmiz şəhər

Sumqayıt 75 illik yubileyini müasir və modern şəhər modelinin mükəmməl nümunəsi olaraq qeyd edir. Şəhər ötən 21 ildə respublikamızın hər yerində vüsət alan abadlıq və quruculuğun əsas mərkəzlərindən biridir. Həyata keçirilən kompleks abadlıq və quruculuq işləri, yeni və möhtəşəm infrastruktur layihələrinin həyata keçirilməsi, şəhər təsərrüfatının yenidən qurulması burada gözəl ab-hava yaradıb. Əsaslı tikinti və quruculuq meydanına çevrilən Sumqayıt sanki yenidən qurulub.

Xüsusən 2015-ci ilin sonu, 2016-cı ilin əvvəllərindən həyata keçirilən layihələrin nəticəsində Sumqayıtın görkəmi tamamilə dəyişib, şəhərdə yeni infrastruktur yaranıb. Hansı ki, bu infrastruktur uzun illər sumqayıtlılara ən yüksək standartlar əsasında xidmət edəcək. Möhtəşəm tikinti və quruculuq işlərinin nəticəsi kimi Sumqayıt respublikamızın yaraşıqlı və abad şəhərinə çevrilmişdir. Eyni zamanda şəhərin yeni ünvanları yaranmışdır.

Əzəmətli Heydər Əliyev Mərkəzi, Yeni Azərbaycan Partiyasının inzibati binası, Bayraq Muzeyi, Gənclər Mərkəzi, Şahmat Məktəbi, Muğam Mərkəzi, Sumqayıt Məhkəmə Kompleksi, Mərkəzi Bankın Ehtiyat Sistemi binası, şəhər prokurorluğunun binası, 500 metr uzunluğunda tərsanə, şəhərin əsas giriş yolundakı Bayraq meydanı Sumqayıtın yeni və möhtəşəm ünvanlarıdır.

Şəhərdə sosialyönümlü bir sıra infrastruktur layihələri də həyata keçirilib. Bunların sırasında Olimpiya və Paralimpiya İdman kompleksləri, Əlillərin Bərpa Mərkəzi, əlil və şəhid ailələri üçün ümumilikdə 240 mənzilli 5 yaşayış binasının inşasını göstərmək olar. Sumqayıtda "Kimyaçılar" Mədəniyyət Sarayının, Dram teatrının, Tarix muzeyinin, 1 nömrəli Uşaq-Gənclər İdman Məktəbinin, 3 nömrəli Uşaq-Gənclər Şahmat-Dama İdman Məktəbinin, "Nizami" kinoteatrının binaları da əsaslı təmir olunub, şəhərdə 2 "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayıb.

Son illərdə şəhərin bütün tibb müəssisələri əsaslı təmir olunub. 1 nömrəli Şəhər Mərkəzi Xəstəxanası, 1 nömrəli doğum evi, 1,2 nömrəli qadın məsləhətxanaları, 1,4 nömrəli şəhər poliklinikaları, Uşaq Xəstəxanasının infeksion şöbəsi, Vərəm Xəstəxanası, 2 nömrəli uşaq poliklinikası, 3 nömrəli şəhər xəstəxanasının poliklinika şöbəsi əsaslı təmir edilib. 1 nömrəli uşaq poliklinikası, 2 nömrəli şəhər poliklinikası, Onkoloji Xəstəxana, 4 nömrəli şəhər xəstəxanasında cari təmir işləri aparılıb. 1,2 nömrəli doğum evlərinin Reanimasiya şöbələri müasir tibbi avadanlıqlarla təchiz olunub. 1 nömrəli doğum evi 2018-ci ildən III səviyyəli Perinatal Mərkəz kimi fəaliyyət göstərir.

Sumqayıtda 3 məktəb üçün də yeni bina tikilib. 2021-ci ilin sentyabrında istifadəyə verilən 1 nömrəli tam orta məktəbin yeni tikilmiş tədris binası 1800 şagird yerlikdir. Şəhərin İnşaatçılar qəsəbəsində yerləşən 9 nömrəli tam orta məktəb üçün də yeni tədris binası tikilib. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, məktəbin binası tam sökülərək yerində müasir tələblərə cavab verən 1176 şagird yerlik yeni bina inşa edilib. Sumqayıtdakı 20 nömrəli tam orta məktəb üçün bina isə Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunub.

Prezident İlham Əliyevin 2023-cü il oktyabrın 23-də Sumqayıta ötən 21 ildə etdiyi sayca 33-cü səfəri də şəhərin abadlığı və quruculuğu baxımından mühüm hadisələrlə yadda qalıb. Həmin gün Prezident İlham Əliyev Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.

Ötən əsrin 60-cı illərində istifadəyə verilmiş və iki-üç min azarkeş üçün hesablanan bu stadion müasir tələblərə cavab vermirdi və azarkeşlərin çoxu yarışları yer darısqallığından canlı izləyə bilmirdi. Dörd tərəfi açıq olan stadion əhəmiyyətli futbol yarışlarını keçirən məkana qətiyyən bənzəmirdi. Bir sözlə, yeni stadionun tikintisinə ehtiyac vardı. Prezident İlham Əliyevin 2019-cu il 21 noyabr tarixli sərəncamı ilə yenidən qurulan stadion indi ən müasir standartlara cavab verir.

Şəhərin yeni ünvanlarından biri də 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yeni binasıdır. Oktyabrın 23-də Prezident İlham Əliyevin iştirakı ilə açılışı olan 150 çarpayılıq xəstəxana 6,1 hektar sahədə inşa edilib. Bu səhiyyə ocağının tikinti işlərinə 2019-cu ildə başlanılıb və 2022-ci ildə başa çatdırılıb. Xəstəxana poliklinika, təcili tibbi yardım, 30 çarpayılıq terapiya, 30 çarpayılıq cərrahiyyə, şüa diaqnostika, hemodializ, oftalmologiya, endokrinoloji terapiya, endokrinoloji cərrahiyyə, nevrologiya, 10 çarpayılıq əməliyyat bloku, reanimasiya və sair şöbələrdən, həmçinin laboratoriyadan, digər tikili və qurğulardan ibarətdir.

Sumqayıtda şəhər təsərrüfatının yenilənməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib. Şəhərdə çoxmənzilli yaşayış binalarının sakinlərini ən çox narahat edən problemlərdən biri liftlərin yenilənməsi ilə bağlı idi. Ölkə rəhbərliyinin bu sahəyə olan diqqəti sayəsində qısa müddət ərzində şəhərin lift təsərrüfatı da tamamilə yenilənib. Lift təsərrüfatının maddi texniki bazasının möhkəmləndirilməsi, əhalinin liftdən təhlükəsiz istifadə etməsinin təmin olunması məqsədilə istismar müddətini ötmüş 600-ə yaxın lift yenisi ilə əvəz edilib.

428 min nəfərin yaşadığı Sumqayıtın əsas inkişaf göstəricilərindən biri də burada müasir nəqliyyat infrastrukturunun yaradılması, bu sahədə idarəetmənin təkmilləşdirilməsi, sərnişin daşınması sahəsində rahatlığın təmin olunmasıdır. Son illərdə şəhərin ictimai nəqliyyatı yenidən qurulub və marşrut xətlərinə Türkiyə istehsalı olan yeni avtobuslar buraxılıb.

Şəhərdə həyata keçirilən tikinti-quruculuq işlərinin bir hissəsini ictimai və yaşayış binalarının təmiri və yenidən qurulması təşkil edir. Belə ki, bir neçə il əvvəl yaşayış binalarının fasadlarının əsaslı təmirinə və şəhərlə yaşıd olan binaların müasir qaydada üzlənməsi işlərinə başlanılıb. Təmir olunan binaların memarlıq görünüşü saxlanılıb, aşınmaya məruz qalmış və piyadalar üçün təhlükə yaradan elementlər yenilənib. Fasadlama işləri zamanı binaların tarixi memarlıq elementləri, dizayn və naxışları olduğu kimi saxlanılıb. 1200-dən artıq yaşayış binasına yeni dam örtüyü vurulub. Binalara dam örtüklərinin vurulması ilə şəhər sakinlərini narahat edən daha bir əsas problem öz həllini tapıb.

### Yaşıllıqlar ünvanı

Sumqayıt indi təmiz havası ilə diqqət çəkir. Bu gözəl şəhər həm də yaşıllıqlar ünvanıdır. Bu istiqamətdə şəhərdə son illərdə həyata keçirilmiş ən nəhəng və möhtəşəm quruculuq nümunələrindən biri Dənizkənarı bulvarın salınmasıdır. Sumqayıt dəniz sahilində yerləşsə də, burada heç vaxt bulvar olmayıb. Hələ 1974-cü ildə Sumqayıta şəhər statusunun verilməsinin 25 illiyi ilə bağlı Dram teatrının inzibati binasında keçirilən mərasimdə çıxış edən Ulu Öndər Heydər Əliyev bu məsələyə toxunmuş, şəhərdə bulvarın salınması ilə bağlı arzusunu ifadə etmişdi.

Sumqayıtda həyata keçirilən quruculuq tədbirləri sırasında Ulu Öndərin bu arzusu da reallaşıb. Belə ki, şəhərdə son illərdə reallaşan ən möhtəşəm layihələrdən biri də Xəzərin sahilində salınan və ilk olaraq uzunluğu 4,2 kilometr olan, əhalinin istirahəti üçün bütün şərait yaradılan, müasir tələblərə cavab verən Dənizkənarı bulvardır. Şəhərin yeni ünvanı olan Dənizkənarı bulvar daha 1 kilometr uzunluğunda, 400 metr enində, ümumilikdə isə 40 hektar sahədə genişləndirilib. Beləliklə, bu istirahət məkanının sahəsi 150 hektara, uzunluğu isə 5,2 kilometrə çatdırılıb. Ərazidə geniş miqyasda yaşıllıq sahəsi salınıb, müasir işıqlandırma sistemi qurulub. Park boyunca 1 kilometr uzunluğunda yeni yol inşa olunub. Kompleksin yeni salınan hissəsində bütün yaş qruplarının istirahəti üçün yüksək şərait yaradılıb.

Bir neçə il əvvəl Madriddə keçirilən "Global Trade Leaders Club"un XXIV Beynəlxalq Üstünlük və Liderlik Forumunda Sumqayıt bulvarı "International Award for Excellence & Leadership" mükafatına layiq görülüb. Azərbaycan Prezidenti İlham Əliyevin möcüzə adlandırdığı Sumqayıt bulvarının dünyanın diqqət mərkəzinə düşməsi olduqca qürurverici haldır.

Şəhərdəki Heydər parkı, Lüdviqshafen parkı, Sülh prospekti, Sahil küçəsi, ümumiyyətlə, bütün küçə və prospektlər əsaslı təmir olunaraq yenidən qurulub.

Bir neçə il əvvəl Sumqayıt şəhərinin əsas problemlərindən biri də həllini tapıb. Söhbət "Acı dərə" kanalından gedir. Bu kanal şəhər əhalisi üçün çox böyük təhlükə mənbəyi idi. Ötən dövr ərzində aparılan quruculuq işləri çərçivəsində bu kanal boruya salınıb. Beləliklə, vaxtilə mövcud olmuş üfunətli qoxudan indi əsər-əlamət yoxdur.

### Sumqayıt 75 illik yubileyini qürur və fəxarətlə qarşılayır

Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində həyata keçirilən bu abadlıq, quruculuq və tikinti işləri sumqayıtlılara xoş ovqat və sakit həyat tərzi bəxş edib. Eyni zamanda həyata keçirilən genişmiqyaslı uğurlu layihələr şəhərimizin simasını tamamilə dəyişib.

İndi tək Azərbaycanın deyil, Cənubi Qafqazın ən gözəl şəhərləri sırasında yer tutan Sumqayıtda həyata keçirilən layihələr Avropanın ən nüfuzlu nominasiyalarına layiq görülür. Ən əsası Sumqayıt öz müasir standartları və trendləri ilə inkişaf edən Azərbaycanın rəmzi kimi çıxış edir. Ona görə Sumqayıt 75 illik yubileyini qürur və fəxarətlə qarşılayır. Şəhər ictimaiyyəti bu əlamətdar hadisəni başıuca, inkişaf nəticəsində əldə olunan nailiyyətlə qeyd edir.

*Ulu Öndər Heydər Əliyevin arzuladığı şəhər səviyyəsinə yüksələn Sumqayıtın yüksəlişi isə sürətli və davamlıdır. Hər ötən gün Sumqayıtın həyatında mühüm yeniliklərlə əlamətdardır. Prezident İlham Əliyevin qayğısı və diqqəti şəhərin ictimai, sosial-iqtisadi həyatında rolu olan hər kəsi daha məsuliyyətlə və fədakarlıqla çalışmağa sövq edir. Ona görə qarşıdakı illər və növbəti yubileylər də Sumqayıtın yeni və möhtəşəm uğurları ilə əlamətdar olacaq.*

**Zakir FƏRƏCOV,**
***Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı***















COP29 Baku Azerbaijan

# Kütləvi iştirak, böyük ictimai maraq, peşəkar təşkilatçılıq

















## COP29 insan kapitalının inkişafına mühüm perspektivlər vəd edir

COP29 tədbirinin aktual mövzularından biri də insan kapitalıdır və bu da təbiidir. Çünki dayanıqlı inkişafda insan kapitalı çox mühüm rol oynayır. Bu sahəyə diqqət cəmiyyətin balanslı və ardıcıl tərəqqisini təmin edir.

Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin nailiyyətləri sırasında bu gün tarixinin ən qüdrətli mərhələsinə gəlib çatmış Azərbaycanda təbii resursların insan kapitalına çevrilməsi dövlətin ən mühüm hədəflərindən elan edilib. Bu da respublikamızın strateji planda gələcəyə yüksək həssaslıqla hazırlığından irəli gəlir.

Azərbaycan dövləti insan kapitalının inkişafı istiqamətində ardıcıl strateji addımlar atır. Dövlət başçısının qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirilir. Ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasından, illərlə inkişafımıza mane olan problemin uğurla həllindən sonra Azərbaycanın daxil olduğu yeni strateji dövrdə bu məsələ xüsusilə böyük əhəmiyyət daşıyır. Bu mərhələdə əsas hədəf rifah dövləti kimi həyat standartlarını daha da artırmaq, respublikanı bütün istiqamətlərdə dünyanın ən inkişaf etmiş ölkələrindən biri statusuna yüksəltməkdir. İnsan kapitalı bu amalın reallaşdırılmasında, ölkəmizin iqtisadi inkişafı və rəqabət qabiliyyətinin artırılmasında həyati əhəmiyyət kəsb etməkdədir. Ona görə də Azərbaycan dövləti insan inkişafına yönəlmiş tədbirləri getdikcə genişləndirir.

Bu tədbirlərin mühüm bir qismi təhsil sektoruna aiddir. İnsan kapitalının inkişafı üçün təhsil sisteminin təkmilləşdirilməsi, ibtidai, orta və ali təhsilin hər kəsə əlçatan olması son dərəcə vacibdir. Onun inkişafından ötrü ölkə daxilində bütün sosial qrupların keyfiyyətli təhsilə bərabər çıxışını təmin etmək lazımdır. Təhsil infrastrukturunun yaxşılaşdırılması, o cümlədən məktəblərin, universitetlərin və peşə təhsili müəssisələrinin fiziki infrastrukturu texnoloji təchizatı və müasir təlim metodları ilə təmin edilməsi burada mühüm əhəmiyyət daşıyır. Həmçinin peşə və texniki təhsil sisteminin gücləndirilməsi gənclərin əmək bazarının tələblərinə uyğun hazırlanması baxımından çox mühümdür.

Azərbaycan dövləti insan kapitalının inkişafı məqsədindən irəli gələrək elmi tədqiqatları dəstəkləyir, texnoloji parkları və startap ekosistemini gücləndirir. Müasir texnoparklar və inkubasiya mərkəzləri ölkəmizdə yeni texnoloji sahibkarlığın inkişafına kömək edir. Dövlət startaplara və innovativ bizneslərə maliyyə və inzibati dəstək verir.

### "Yaşıl keçid"in mərkəzində insanın rolu dayanır

İnsan kapitalının inkişafının ən mühüm şərtlərindən biri də səhiyyə sisteminin inkişafı, tibbi xidmətlərin hər kəs üçün əlçatanlığının təmin olunmasıdır. Ümumilikdə sağlamlıq və sosial müdafiə insan kapitalının inkişaf etdirilməsində son dərəcə böyük rol oynayır. İctimai səhiyyə infrastrukturunun inkişafı, müxtəlif xəstəliklərə qarşı preventiv tədbirlərin artırılması və hər kəsin keyfiyyətli tibbi xidmətlərə çıxışının təmin edilməsi insanların sağlam həyat sürməsinə kömək edir.

Əmək bazarı və məşğulluqla bağlı da əhəmiyyətli addımlar atılır. Azərbaycan gənclərinin və digər sosial qrupların əmək bazarına inteqrasiyasını təmin etmək üçün müxtəlif məşğulluq proqramları həyata keçirilir, işsizlik səviyyəsi minimallaşdırılır. Ölkənin enerji sektoru başda olmaqla, alternativ enerji mənbələri və "yaşıl texnologiyalar"ın tətbiqi nəticəsində yeni iş yerləri yaradılır. Bu da iqtisadiyyatda müxtəlif bacarıq səviyyələrində yeni iş imkanlarının ortaya çıxması deməkdir.

### İqlim dəyişmələrinə qarşı mübarizəyə töhfə

COP29 tədbiri Azərbaycanda və ümumən dünyanın bir çox ölkəsində insan kapitalının inkişafına mühüm perspektivlər vəd edir. "Yaşıl iqtisadiyyat"a keçid, iqlim dəyişikliyi ilə mübarizə və davamlı inkişaf insan kapitalının xüsusən təhsil, bacarıqlar və texnoloji innovasiyalar vasitəsilə gücləndirilməsini tələb edir.

COP müzakirələrində bərpaolunan enerji, ətraf mühitin qorunması və iqlim dəyişmələrinə uyğunlaşma sahələrində yeni "yaşıl iş yerləri"nin yaradılması vurğulanır. Bunun üçün işçilərin bacarıqlarının inkişaf etdirilməsi, "yaşıl iqtisadiyyat"a uyğun peşə təhsili və ixtisaslaşdırma proqramlarının həyata keçirilməsinin vacibliyi önə çəkilir. İnsan kapitalının inkişafı "yaşıl iqtisadiyyat"ın əsas komponentlərindən biridir. Belə ki, iqlim dəyişikliyi ilə mübarizədə yeni texnologiyaları idarə edə biləcək ixtisaslı işçilərə ehtiyac var. Bu baxımdan müasir dünyanın çağırışlarına uyğun davamlı təhsilin vacibliyi COP müzakirələrində tez-tez qaldırılır. İnsanların iqlim dəyişmələri və onun sosial-iqtisadi təsirləri barədə maarifləndirilməsi də bunun gücləndirilməsinə yönəldilmiş bir addım kimi diqqətdə saxlanılır. Bundan başqa, bütün yaş qrupları üçün ekoloji və iqlim təhsili strategiyalarının tətbiq edilməsi insanların gələcəkdə bu sahələrdə daha səmərəli qərarlar verməsini və iqlim dəyişmələri ilə mübarizədə fəal rol oynamasını təmin edə bilər. Bu məsələlər Bakıda keçirilən mötəbər tədbirdə geniş şəkildə aktuallaşdırıldı.

COP29 çərçivəsində Elm və Təhsil Nazirliyinin təşkilatçılığı, COP29 sədrliyi, UNESCO, Ümumdünya Səhiyyə Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı, UNICEF, Asiya İnkişaf Bankı və Yaşıl İqlim Fondunun dəstəyi ilə iqlim dayanıqlılığı üçün insan inkişafı üzrə Bakı Təşəbbüsünə dair keçirilən yüksəksəviyyəli iclas böyük maraq doğurdu. Panel iclasın əsas məqsədi insan inkişafına investisiya qoyulmasının iqlim dayanıqlılığının təmin edilməsində mühüm əhəmiyyətini vurğulamaq olub.

Tədbirdə bildirildi ki, ilk dəfə olaraq COP Sədrliyi çərçivəsində ev sahibi olan ölkənin təşəbbüsü ilə İnsan İnkişafı Günü müəyyən edilib. Göstərilib ki, qlobal iqlim probleminin ən kritik və bir-biri ilə əlaqəli olan aspektlərindən sayılan insan inkişafı yuxarıda qeyd etdiyimiz kimi, təhsil, səhiyyə, sosial müdafiə, bacarıqlar və məşğulluq kimi sahələri əhatə edir. İqlim dəyişmələri həyatımızın hər tərəfinə - sağlamlığa, təhsilə, əmək bazarına və ən əsası gələcək nəsillər üçün mövcud olan imkanlara təsir göstərir. Qlobal istiləşmə ilə bağlı çağırışlara cavab vermək üçün insan inkişafına sərmayə qoyulmalıdır və bu investisiya həyatın ən erkən mərhələlərində başlamalıdır ki, uşaqların və gənclərin bacarıqlarının inkişafı yolu ilə güclənməsi təmin edilsin. Bu investisiya təkcə dayanıqlılığa aid deyil, həm də iqlim dəyişmələrinin təsirlərinin azaldılması səylərini əhatə etməlidir.

Plenar iclasda insan inkişafı üzrə Bakı Təşəbbüsündən danışılaraq bildirilib ki, bu təşəbbüs insanyönümlü iqlim fəaliyyətinə sadiqliyimizin təbii davamıdır: "Təşəbbüs sektorlar üzrə qlobal əməkdaşlığı gücləndirəcək, investisiyaları səfərbər edəcək və insan inkişafının iqlim strategiyamızın əsas sütunu olmasını təmin edəcək çoxşaxəli və vahid yanaşma tələb edir. Bakı Təşəbbüsünün mərkəzində insan inkişafı və iqlim fəaliyyətinin ayrı-ayrı məqsədlər deyil, bir-birini gücləndirən məqsədlər olduğuna inam dayanır. Təşəbbüsün digər məqamı isə ekoloji savadlılığın təhsilin əsas məqsədinə çevrilməsini təmin etmək üçün qlobal əməkdaşlığı inkişaf etdirməkdir".

Bu iclasda iqlim dayanıqlılığı üçün insan inkişafı üzrə Bakı Rəhbər Prinsipləri elan olunub. Xüsusi qeyd edilib ki, bu prinsiplər iqlim strategiyalarında insan inkişafı üzrə fəaliyyətin istiqamətləndirilməsi üçün böyük rol oynayacaq, iqlimlə bağlı fəaliyyətin əsas hərəkətvericiləri kimi bu sahələrdə inteqrasiya olunmuş yanaşmanı təşviq edəcək.

Birgə iclasın əsas mövzularından biri olan iqlim dayanıqlılığının təmin edilməsində təhsilin rolu çərçivəsində aparılan müzakirələrdə gələcək nəsillərin iqlim problemləri ilə mübarizə üçün zəruri bilik və bacarıqlarla təmin edilməsi məqsədilə "İqlim dostu" tədris proqramlarının hazırlanmasının vacibliyi qeyd edilib.

Panel müzakirələrində göstərilib ki, 2021-2024-cü illər ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin sifarişi ilə ümumilikdə 1600 peşə təlimi kursu təşkil edilib. Növbəti illərdə bu sahədə peşə təhsili mərkəzləri, dövlət və özəl tədris müəssisələri ilə əməkdaşlıq şəbəkəsinin daha da genişləndiriləcəyi diqqətə çatdırılıb.

Bundan başqa, COP29 çərçivəsində davamlı gələcəyə qlobal keçiddə "yaşıl bacarıqlar"ın kritik roluna dair müzakirələrin aparıldığı debatda bildirilib ki, dünya iddialı iqlim məqsədlərinə çatmaq üçün insanları düzgün bacarıqlarla təchiz etmək həlledici fürsətdir. Tədbir bu sahədə əsas məqsədi müzakirə etmək üçün qlobal ekspertləri bir araya gətirib. Panel iclasında "yaşıl bacarıqlar"ın iqlim fəaliyyətinin təməl daşı olması, texnologiya və təbiətin mühafizəsi kimi digər prioritetlər də müzakirə olunub.

"Yaşıl keçid"in mərkəzində insanların rolu dayanır. İqlim məlumatlılığını artırmaq və fəaliyyətə təşviq etmək üçün "yaşıl təhsil proqramları" mütləq tətbiq olunmalıdır. İqlim təsirləri haqqında məlumatlı, dəyişən dünyada inkişaf etmək üçün bacarıq və dayanıqlılıqla təchiz edilmiş nəsil yetişdirmək çox vacibdir.

### Azərbaycanı gücləndirən qlobal tədbir

COP29 tədbiri çərçivəsində bərabərsizliklərin azaldılması və ən həssas əhali qruplarının iqlim dəyişikliyinə uyğunlaşma proseslərində dəstəklənməsi məsələləri də müzakirə mövzusu olub. Bu proseslərdə insan kapitalının inkişafı mühüm rol oynayır, çünki həssas qrupların təhsili və iqtisadi imkanlarının artırılması onların iqlim dəyişikliyinin təsirlərinə daha yaxşı hazır olmasını təmin edir. COP tədbirlərində həmçinin sosial ədalət məsələlərinə də xüsusi diqqət yetirilir. Bu da iqtisadi və təhsil bərabərliyinin təmin edilməsini nəzərdə tutur.

COP29-da iqlim dəyişikliyinə qarşı mübarizədə elmi araşdırmalar və innovasiya texnologiyalarının inkişaf etdirilməsi də əsas müzakirə mövzularından oldu. Məlumdur ki, bu sahələrdə qabaqcıl elmi-tədqiqat işlərinin həyata keçirilməsi üçün insan kapitalının inkişafı vacibdir. Universitetlər və tədqiqat mərkəzləri üçün dəstəkləyici tədbirlərin həyata keçirilməsi də iqlimlə bağlı araşdırmaların genişlənməsinə və innovasiyaların inkişafına səbəb olur.

Bütün bunlar Azərbaycan dövlətinin COP29-a evsahibliyi etməklə bəşəriyyətin bu günü və gələcəyi üçün nə qədər vacib bir rolu üzərinə götürdüyünü göstərir. Və bu böyük tədbir hazırda uğurla yekunlaşmaqdadır.

Azərbaycanın COP29-a evsahibliyi etməsi ölkəmizə beynəlxalq səviyyədə öz mövqeyini gücləndirmək, iqlim dəyişmələri ilə mübarizədə aparıcı rol oynamaq və "yaşıl iqtisadiyyat" sahəsində böyük uğurlar əldə etmək üçün unikal imkanlar yaradır. Bu həm də ölkənin gələcək inkişaf strategiyasında ətraf mühitin qorunması və dayanıqlı iqtisadi inkişaf prinsiplərinə bağlılığını nümayiş etdirdi.

COP29 Azərbaycanın beynəlxalq arenada əhəmiyyətli bir aktor kimi rolunun güclənməsini təmin edir. Ölkə bu tədbir vasitəsilə qlobal iqlim müzakirələrində aparıcı rol oynayır, öz səylərini dünyaya göstərir, beynəlxalq əlaqələrini genişləndirir. Bu tədbir müxtəlif ölkələrin liderləri, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə əlaqələrin güclənməsinə şərait yaradır. Azərbaycan COP29-da dünya ölkələri ilə enerji, ətraf mühit və iqlim sahələrində əməkdaşlığı genişləndirir.

Belə böyük bir beynəlxalq tədbir Azərbaycanın "yaşıl iqtisadiyyat", bərpaolunan enerji və iqlim dəyişikliyinə uyğunlaşma sahəsində öz planlarının genişləndirilməsinə və təkmilləşdirilməsinə təkan verəcək. Bərpaolunan enerji sahəsində də mühüm irəliləyişlərə səbəb olacaq. Məlumdur ki, COP29 çərçivəsində iqlim dəyişmələri ilə mübarizə üçün beynəlxalq investisiyalar və maliyyə mexanizmləri geniş şəkildə müzakirə olunur. Bu baxımdan Azərbaycan "yaşıl texnologiyalar" və bərpaolunan enerji layihələri üçün beynəlxalq maliyyə dəstəyi də cəlb edə bilər.

Ölkəmiz COP29-a evsahibliyi ilə regionda lider mövqeyini daha da gücləndirdi. Bu tədbir, Azərbaycanı Qafqaz və Xəzər regionunda "yaşıl enerji" keçidinin önündə gedən bir ölkə kimi tanıtdı. Həmçinin regional əməkdaşlığın gücləndirilməsinə, Azərbaycanın qonşu ölkələrlə və digər region dövlətləri ilə ekoloji və iqlim dəyişikliyi məsələlərində əməkdaşlığına yeni imkanlar yaratdı. Eyni zamanda enerji təhlükəsizliyi və ekoloji davamlılıq üzrə regional təşəbbüsləri gücləndirmək imkanı verdi.

COP29 ekoloji məsələlərin diqqət mərkəzinə gətirilməsi, Azərbaycanda bu sahədə problemlərin daha geniş miqyasda müzakirə olunması üçün də mühüm bir fürsət oldu. Ətraf mühitin mühafizəsi, su ehtiyatlarının qorunması və biomüxtəlifliyin saxlanması kimi sahələrdə milli və beynəlxalq səviyyədə layihələrin həyata keçirilməsinə yol açdı.

Bu tədbir Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (SDG) ilə bağlı öhdəliklərini yerinə yetirməsi üçün bir platforma oldu. Ölkəmiz bundan sonra da iqlim dəyişmələri, yoxsulluqla mübarizə, gender bərabərliyi, ekoloji dayanıqlılıq üzrə beynəlxalq təşkilatlarla daha sıx əməkdaşlıq edəcək, yeni çağırışlarla, yeni təşəbbüslərlə sözünü deyəcək. COP29 tədbiri Azərbaycanın beynəlxalq səviyyədə tanınmasını artırmaqla yanaşı, turizm sektoruna da böyük təsirini göstərdi. Minlərlə iştirakçı və beynəlxalq media qurumları ölkəmizə gəldi, bu da Azərbaycanın qlobal səviyyədə turizm məkanı kimi təbliğinə geniş imkanlar açdı.

Ölkəmiz bütün təzyiq və təhdidlərə rəğmən bu qlobal tədbiri də ən yüksək səviyyədə keçirdi və adını COP tarixinə layiqli ünvan kimi yazdı.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*















COP29
Baku
Azerbaijan

# COP-ların ən mükəmməli 29-cusu oldu









## COP29 elmi təfəkkürdə də yeniliklər yaradır



**İki həftədir dünyanın diqqətini özünə cəlb edən COP29 tədbirlərinin tarixi uzaqgörənliyi alimlərin tədqiqatlarında, yazıçı və şairlərin əsərlərində də öz təsdiqini tapacaqdır. Ölkəmizin evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) beynəlxalq əlaqələrin genişləndirilməsində, yeni tərəfdaşlıq əlaqələrinin qurulmasında mühüm rol oynadığı kimi, dünyanın gələcəyinə, siyasi, iqtisadi, coğrafi, ədəbi-mədəni problemlərin araşdırılması və həlli yollarına da işıq salmışdır.**

**Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini, Əməkdar elm xadimi, professor Vaqif Şadlinski müxbirimizlə söhbətində demişdir:**

- COP29 dünyada elmi təfəkkürdə yeniliklər yaradıb. Bizim iqtisadi sahədə "yaşıl enerji" haqqında olan biliklərimiz əvvəllər utopiya kimi səslənə bilərdi. Amma bu gün Azərbaycanda bərpaolunan enerji olduğunu hər kəs bilir və dövlət səviyyəsində həmin mənbələrdən istifadə olunması istiqamətində işlər davam edir. Elmə gəldikdə isə, "yaşıl enerji"ni izah edən, şərtləndirən, istiqamətləndirən yeni sahə - "yaşıl energetika" əmələ gəlib. Bu gün yeni anlayışlar formalaşıb. Məsələn, "yaşıl artım", "yaşıl kimya", "yaşıl bacarıqlar" haqqında danışılır. Dünya elə bil ki, yeni sivilizasiyaya yaşıl işıq yandırıb.

Bu tədbirin Azərbaycanda keçirilməsi ölkənin iqtisadiyyatını, mədəniyyətini, səhiyyəni, bir sözlə, cəmiyyətin müxtəlif sahələrini, eyni zamanda təfəkkürü inkişaf etdirir, zənginləşdirir, dəyişir. Düşünürəm ki, COP29-un gətirdiyi yaşıl hərəkat yeni bir sivilizasiyaya yaşıl işıqdır. Bu hərəkatın respublikamızda baş verməsi Prezident İlham Əliyevin apardığı böyük siyasətin uğurlu nəticəsində Azərbaycanın COP29-a evsahibliyi etməsi ölkəmizin yeni sivilizasiya hərəkatının önündə gedənlərdən biri olduğunu, bu hərəkata hətta istiqamət verdiyini göstərən faktlardan biridir. Düşünürəm ki, bu mənada "Yaşıl dünya naminə həmrəylik ili" və COP29 Azərbaycanı dünyada yeni sivilizasiyanı yaradan mərkəzlərin biri kimi tanıdacaq.

Azərbaycan Milli Elmlər Akademiyasında "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində COP29-la bağlı dünyanın nüfuzlu elmi mərkəzlərindən biri olan Beynəlxalq Elmi Şura və Almaniyanın Karlsruhe Texnologiya İnstitutunun birgə təşkilatçılığı ilə "İqlim elmi: 2024-cü il üçün əsas nəticələr" mövzusunda keçirilən beynəlxalq elmi konfrans dediklərimizə bariz nümunədir.

Əməkdar elm xadimi onu da vurğulamışdır ki, COP29 çərçivəsində ölkəmizdə səfərdə olan Beynəlxalq Elmi Şuranın (ISC) baş icraçı direktoru professor Salvatore Ariko ilə görüş olmuşdur. Görüşdə COP29-da dünyamızın gələcəyi üçün vacib qərarların qəbul edildiyi, o cümlədən elm sahəsində bir sıra dəyərli müzakirələrin aparıldığı qonağın diqqətinə çatdırılmışdır.

ISC-nin baş icraçı direktoru professor Salvatore Ariko təmsil etdiyi təşkilat barədə ətraflı məlumat verərək bildirmişdir ki, 2018-ci ildə yaradılmış ISC beynəlxalq səviyyədə elmin inkişafı və inteqrasiyası üçün çalışan ən böyük qurumlardan biridir. ISC-nin tərkibində dünyanın 140-dan çox ölkəsindən 250-dən artıq akademiya, elmi birlik, milli və beynəlxalq elmi təşkilat yer alır. Bu qurumlar bir araya gələrək qlobal elmi proqramlar hazırlayır, BMT və digər nüfuzlu təşkilatlarla sıx əməkdaşlıq edərək onlara həmin problemlərin həlli üçün lazımi resurslar təklif edirlər.

Almaniyanın Karlsruhe Texnologiya İnstitutunun professoru, Beynəlxalq Elmi Şuranın ilk katibi olmuş professor Alik İsmayılzadənin və AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq əlaqələr şöbəsinin müdiri dosent Esmira Əlirzayevanın da iştirak etdikləri bu görüşdə professor Salvatore Ariko AMEA-nın təşkilata üzv olmasından və birgə əməkdaşlıqdan məmnunluğunu bildirdi, dəqiq və təbiət elmləri ilə yanaşı, humanitar və ictimai elmlər sahəsində də akademiya ilə əlaqələrin inkişaf etdirilməsində maraqlı olduqlarını söylədi, qurumlararası birgə əməkdaşlıq təkliflərini diqqətə çatdırdı.

Bir məsələni də qeyd etmək istəyirəm. Qərbi Azərbaycan İcması (QAİ), həmçinin iştirakçı nümayəndələr COP29 tədbirlərində və görüşlərdə fəal iştirak etdilər. İcma Avropa Şurasının Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyasının Azərbaycan tərəfindən icrasına dair Məşvərət Komitəsinin qərəzli, siyasiləşdirilmiş və mandatından kənara çıxan beşinci rəyini qınadı, ölkəmizə qarşı qərəz və düşmənçiliyi pislədi. QAİ bu barədə dünya ictimaiyyətinə və COP iştirakçılarına ünvanlanmış bəyanatında bildirmişdir: "Ermənistan tərəfindən azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləməyə, mədəni irsin dağıdılmasına və qayıdış hüququnun pozulmasına səssiz qalmış Avropa Şurasının sözügedən qurumu öz rəyi ilə Azərbaycana qarşı şər və böhtandan ibarət mövqe sərgiləyir və azərbaycanlıları deportasiyaya məruz qoyaraq monoetnik ölkəyə çevrilmiş Ermənistana münasibətdə dəstəkləyici davranış nümayiş etdirir.

Xüsusilə Ermənistandan zorla çıxarılmış azərbaycanlıların qayıdış hüququnu görməzdən gələn Avropa Şurasının bu qurumunun indi Qarabağdan köçmüş ermənilərin qayıdış hüququndan danışması etnik və dini ayrı-seçkiliyin ən bariz göstəricisidir.

Bütün bunlar isə ona dəlalət edir ki, başda Parlament Assambleyası olmaqla, Avropa Şurasının bir sıra qurumları bəzi dairələrin əlində Azərbaycana qarşı siyasi oyunlar üçün alətə çevrilib. Qərbi Azərbaycan İcması Avropa Şurasının Nazirlər Komitəsindən, sözügedən məşvərətçi qurumun Azərbaycana qarşı qəbuledilməz siyasi oyunlarına, etnik və dini ayrı-seçkiliyinə son qoymağı tələb edir.

Qərbi Azərbaycan İcması digər bəyanatında isə bildirmişdir: "ABŞ Konqresinin irqçi düşüncəli, korrupsiyaya uğramış üzvü Frank Peloni COP29-da iştirak üçün Azərbaycana səfəri zamanı ictimaiyyətin ona qarşı haqlı və dinc etirazını yanlış istiqamətdə təqdim etməyə və ölkəmizə böhtanlar atmağa çalışır".

Bəyanatda xüsusi olaraq vurğulanır ki, F.Peloni onilliklərdir erməni lobbisi ilə qeyri-şəffaf əlaqələr quraraq Azərbaycana və regionda sülhün bərqərar olunmasına qarşı sistematik fəaliyyət göstərir.

Bu səbəbdən Azərbaycan ictimaiyyətinin, xüsusən Ermənistanın etnik təmizləməsinə məruz qalmış şəxslərin irqçi F.Peloniyə qarşı etiraz etməsi onların ən fundamental hüququdur.

F.Peloninin səfərdən sonra verdiyi bəyanatlar isə onun Azərbaycana nə iqlim dəyişmələri üzrə konfransda iştirak, nə də dialoq məqsədilə gəldiyini açıq şəkildə göstərir. Onun məqsədi Azərbaycanda keçirilən və bütün dünya ölkələrinin toplaşdığı COP29-un uğurlarını qaralamaq, Azərbaycana zərbə vurmaq idi.

Görünən odur ki, F.Peloninin böyük "qrantlar" hesabına şantaj xarakterli "erməni təəssübkeşliyi" bütün dünyada fiaskoya uğradı. Çünki yalan ayaq tutsa da, yeriyə bilməz...

Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini, Əməkdar elm xadimi, professor Vaqif Şadlinski xüsusi olaraq vurğuladı ki, elmi təfəkkürdə də yeniliklər yaradan COP29-un ölkəmizdə keçirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlətimizin hərtərəfli və sürətli inkişafı, beynəlxalq aləmdə əldə etdiyi nailiyyətlərin uğurlu nəticəsidir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***















## "SOCAR Green" nümunə göstərir

### Şirkət COP29-da bərpaolunan enerji layihələri ilə təmsil edilir

COP29-un "yaşıl zona"sındakı pavilyonların hər biri iqlim konfransının tələblərinə uyğun hazırlanıb. Stendlərdə nümayiş olunan məhsullar təmsilçi şirkətlərin iqlim dəyişmələri ilə mübarizəyə verdikləri töhfələrlə xarakterizə olunur.



29-cu sessiyanın tərəfdaşlarından olan "SOCAR Green" MMC-nin böyük bir ərazini əhatə edən pavilyonu SOCAR-ın bərpaolunan və təmiz enerjiyə sadiqliyini nümayiş etdirir. "SOCAR Green"in burada tanınmış şirkət və təşkilatlarla həyata keçirdiyi innovativ layihələri, təşəbbüsləri təqdim olunur.

Şirkətin təmsilçisi Elçin Tarıquliyevlə söhbətdən məlum oldu ki, "SOCAR Green" bərpaolunan enerji, "yaşıl hidrogen", geotermal enerji və karbontutma sahələrində əsas layihələri həyata keçirməyi planlaşdırır. Bunların hamısı həm Azərbaycanın, həm də SOCAR-ın 2050-ci ilədək xalis sıfır emissiya hədəflərinə nail olmasına kömək etmək, dayanıqlı inkişafı təşviq etmək məqsədi daşıyır. Şirkət 2030-cu ilə kimi məşəl qazlarını sıfıra salmağı da hədəfə alıb. Sonrakı 5 ildə isə məqsəd şirkətin ümumi emissiyalarını 20 faiz azaltmaqdır. Ümumilikdə SOCAR-ın əsas hədəflərindən biri neft-qaz istehsalçısı olmaqdan daha çox "yaşıl enerji" şirkətinə çevrilərək qlobal bazarda öz sözünü deməkdir.

Xatırladaq ki, "SOCAR Green" SOCAR-ın dekarbonizasiya sisteminin bir parçası olan törəmə şirkətidir. Qurum Prezident İlham Əliyevin "Yaşıl dünya naminə həmrəylik ili" haqqında verdiyi sərəncamdan irəli gələn tapşırıqlar çərçivəsində cari ilin mart ayında təsis olunub. Məqsədi Azərbaycanda və kənarda "yaşıl enerji" layihələrinin həyata keçirilməsinə töhfə verməkdir. Həmsöhbətimiz "SOCAR Green"in beynəlxalq əlaqələri haqqında fikirlərini belə davam etdirdi: "MMC Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə birgə 1000 meqavatlıq "Meqa" layihəsinin ilkin mərhələsində quruda 1 qiqavat gücündə külək və günəş enerjisi, BP şirkəti ilə birgə "Şəfəq" layihəsi çərçivəsində Cəbrayıl rayonunda 240 meqavat gücündə günəş enerjisi layihələrinin icrasına başlayıb. Həmçinin "ACWA Power", "Masdar" və "Energy China" şirkətləri ilə birgə Naxçıvan Muxtar Respublikasında günəş və külək enerjisi layihələrinin icrası nəzərdə tutulur. Qeyd edim ki, bu nüfuzlu şirkətlərlə əməkdaşlıq "yaşıl enerji", dekarbonizasiya və aşağı karbonlu layihələrin Azərbaycanda və xaricdə həyata keçirilməsində, SOCAR üçün yeni biznes imkanlarının yaradılmasında, bu sahələrdə kadr bazasının formalaşdırılmasında və mövcud potensialın gücləndirilməsində, həmçinin "xalis sıfır" emissiya hədəflərinə çatmasında öz müsbət töhfəsini verəcək".

Söhbət zamanı o da məlum oldu ki, "SOCAR Green"in COP29-da təqdim etdiyi layihələrdən biri Biləsuvarda 445 və Abşeronda 245 meqavatlıq külək, digəri isə Neftçalada 323 meqavat gücündə günəş enerjisi stansiyalarının tikintisidir. Bu sıraya şirkətin Füzuli rayonunda inşa etməyi planlaşdırdığı günəş-elektrik stansiyasını da əlavə etsək, mənzərə aydın olur.

Pavilyonda nümayiş olunan və hər kəsin diqqətini çəkən avtomobil haqqında sualımızı da cavablandıran Elçin Tarıquliyev dedi: " Gördüyünüz bu avtomobil "Azəriqaz" İstehsalat Birliyinin İtaliyanın "İtalqaz" şirkəti ilə yeni ortaq layihəsidir. Yeraltı boru kəmərində baş verən metan qazının sızması avtomobildə yerləşdirilmiş sensorlar vasitəsilə müəyyən olunur. Avtomobil hərəkətdə olanda sensor havanın tərkibini analiz edir, qaz aşkarlanarsa sürücünün yanındakı ekranda bu barədə məlumat görünür və texniki heyət dərhal müəyyən olunmuş ərazidəki qaz sızmasını aradan qaldırır. Yeri gəlmişkən, daha bir yeniliyi də deyim. Bu, dron texnologiysı ilə bağlıdır. Qaz sızmalarının müəyyən olunmasında təkcə bu avtomobildən deyil, həm də dronlardan istifadə edilir. Baca qazlarının analizini məhz həmin dron yerinə yetirir. Obyektlərin təhlükəsizliyində də bəzi dronlar böyük rol oynayır. Təhlükə hiss olunan ərazidə dron birbaşa boru kəmərinə, ya da qaz anbarlarına girib sızmanın hansı nöqtədə baş verdiyini müəyyənləşdirir. Dronlar insan həyatına təhlükə yarada biləcək digər vəziyyətlərdən də xəbər verir".

Həmsöhbətimiz COP29 çərçivəsində "SOCAR Green" və "PowerChina" şirkətləri arasında imzalanan Anlaşma Memorandumundan da danışdı. Dedi ki, bu sənəd Azərbaycanda bərpaolunan enerji layihələrinin inkişafında birgə imkanların araşdırılması məqsədini daşıyır, günəş və külək elektrik stansiyalarının inşası, inteqrasiya olunmuş "ağıllı enerji" sistemləri, "yaşıl hidrogen" istehsalı ilə bağlı layihələrin qiymətləndirilməsi və sərmayə qoyuluşunda birgə səyləri nəzərdə tutur.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

COP29 Baku Azerbaijan

# Dünya mediası COP29-dan yazır

# "Bakıda unikal fürsət"

**Bakıda davam edən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) başa çatmaq üzrədir. Nüfuzlu tədbirə növbəti dəfə evsahibliyi etməklə Azərbaycan yenə nümunə yaratdı. Dünyanın aparıcı qəzet, televiziya və KİV-inin əsas xəbər başlıqlarını COP29-la bağlı ən son məlumatlar bəzəyir. Bəzi televiziyalar və agentliklər Bakıdan canlı bağlantı qururlar.**

İtaliya mətbuatı Bakının evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını (COP29) geniş işıqlandırmaqda davam edir. **"Rai", "Adnkronos", "il Messaggero", ANSA, "La Stampa", AGI, "Domani", "Aska News", "il Fatto Quotidiano", "il Denaro", "Corila", "Qui Finanza"** və digər nəşrlərdə yayımlanan materiallarda COP29-un iqlim maliyyəsi üzrə yekun sənədinin əhəmiyyətindən bəhs olunur. Bildirilir ki, sənəd həm inkişaf etməkdə olan, həm də digər ölkələrin mövqeyini əks etdirir, həmçinin iqlim maliyyələşdirilməsinə trilyonlarla dolların ayrılmasından bəhs edir. Vurğulanır ki, COP29 çərçivəsində 25 ölkə kömürlə işləyən elektrik stansiyalarında istehsalı dayandırmağı öhdəsinə götürüb. Eyni zamanda Avropanın COP29-da zəif iştirak etməklə iqlim üzrə liderlik fürsətini əldən verdiyi bildirilir.

Yazılarda İtaliyanın ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto-Fratinin COP29 çərçivəsində plenar sessiyalarda çıxış etdiyi, müzakirələr apardığı qeyd olunur. Bildirilir ki, nazir COP29-dakı İtaliya pavilyonunda konkret qlobal uyğunlaşma fəaliyyətlərini, investisiyaları və əməkdaşlığı stimullaşdırmaq üçün ölkəsinin G7-yə sədrliyi çərçivəsində irəli sürülən təşəbbüs - G7 Adaptasiya Sürətləndirici Mərkəzinin açılışını edib. Bundan başqa, COP29-da Venesiyanın iqlim dəyişikliyinə uyğunlaşma və şəhər davamlılığının nümayiş etdirildiyi də qeyd olunur.

Müqəddəs Taxt-Tacın **"Vatican News" portalı** da Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasından (COP29) yazıb. "Bakıda COP29-da yüksək dialoq: Yerin ekosistemi getdikcə daha çox risk altındadır" adlı məqalədə Azərbaycan paytaxtının ən mühüm iqlim sammitinə evsahibliyi etdiyi vurğulanır. Diqqətə çatdırılır ki, Birləşmiş Millətlər Təşkilatının üzv ölkələrindən olan nümayəndələr çətin vəzifə - iqlim böhranı ilə mübarizə aparmağın yollarını müzakirə etmək məqsədilə Bakıya toplaşıblar.

Yazıda qeyd olunur ki, COP29 dünyanın zənginləri və kasıbları arasında çox çətin dialoqu həll etməyə çalışır. Sammitdə misli görünməmiş iqlim böhranı ilə mübarizə üçün əsas ilkin şərtin yaradılması yolları axtarılır. Əlli mindən çox nümayəndə yoxsul ölkələrin davamlı inkişafını təmin etmək üçün zəruri olan çox təcili sərmayələri müəyyənləşdirmək üçün müzakirələr aparır.

Vurğulanır ki, onsuz da "dağılmaq" astanasında olan Yer ekosistemi görünməmiş sayda ekoloji qurban və düzəlməz iqtisadi ziyan vurmaq riski daşıyır.

Meksikanın **"Kanyon" radiosunda** isə Azərbaycanın COP29-a sədrliyi zamanı əldə etdiyi nailiyyətlərdən danışılıb. Reportajda ölkəmizin ekoloji problemlərin həllinə hərtərəfli və dəstəkləyici yanaşmaya sadiqliyi, eləcə də COP29-a sədrliyin əsas məqsədinin iqlim dəyişikliyi ilə mübarizədə qlobal həmrəyliyi təşviq etmək olduğu vurğulanıb. Tədbirin ilk günündə Paris Sazişinin 6.4-cü maddəsi ilə bağlı artıq müsbət nəticələr əldə olunduğu qeyd edilərək, bunun iqlim dəyişikliyi ilə mübarizə üçün nəzərəçarpacaq nəticələr verən səmərəli mexanizmlər hazırlamağa imkan verəcəyi bildirilib. Eyni zamanda Bakıda keçirilən COP29 çərçivəsində indiyədək bir sıra mühüm saziş və əməkdaşlıqların, o cümlədən "Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalandığı, bunun üç ölkənin əməkdaşlığında yeni mərhələ olduğu da qeyd edilib.

Reportajda ilk dəfə olaraq Bakıda COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammitinin keçirildiyi qeyd olunub, inkişaf etməkdə olan kiçik ada dövlətlərinin səsinin qlobal arenada eşidilməsi və onların təcrübəsinin öyrənilməsinin, eləcə də ən çox bu ölkələrə təsir edən iqlim dəyişikliyi kimi qlobal problemlərə inklüziv həll yollarının axtarışının vacibliyi vurğulanıb.
















































Hazırda beynəlxalq siyasətdə davam edən və kiçik ada dövlətlərinin iqlim dəyişikliyi ilə mübarizədə özlərinin qərar verməsinə mane olan neokolonializm təzahürləri ilə bağlı narahatlıq da ifadə edilib. Reportaj həmçinin Meksikanın **"Miled"** və **"ADRNetwork" radio kanallarında** efirə gedib.

Türkiyənin **"Milliyet" qəzeti** oxucularına ölkənin nəqliyyat və infrastruktur naziri Əbdülkadir Uraloğlunun Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirakı ilə bağlı məlumat verib. Nəşr şəhər nəqliyyatı sahəsində aparılan çoxsaylı islahatlara diqqət ayırıb. Bu islahatlar barədə Türkiyənin nəqliyyat və infrastruktur naziri iqlim sammitinin iştirakçılarına məlumat verib. Nazirin sözlərinə görə, Türkiyənin hakimiyyət orqanları təkcə şəhər mühitində istixana qazları tullantılarını minimuma endirməyə deyil, həm də vətəndaşların həyat keyfiyyətini maksimum dərəcədə artırmağa çalışır. Məqalədə Türkiyədə elektrikli avtobus parkının artırılmasına da diqqət yetirilib.

Nəşrdə həmçinin Türkiyədə elektromobil bazarının stimullaşdırılması və dövlət dəstəyi siyasətindən bəhs edilir, yerli "TOGG" elektromobilinin istehsalının yaradılması isə nümunə gətirilir. İstixana emissiyalarının azaldılması üzrə yol xəritəsinə uyğun olaraq, Türkiyədə qaçış və velosiped yollarının sayının artırılması planlaşdırılır. Elektrikli velosipedlərin təmiri üçün parklar yaradılır ki, bu da ölkədə sağlam həyat tərzinin populyarlaşmasına kömək edir.

Türkiyənin **"Haber Global" telekanalı** Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı hazırladığı növbəti süjetində göstərib ki, maliyyələşdirmə müqaviləsinin mətni hazırlanır. Bildirilib ki, COP29-un əsas mövzularından biri iqlim maliyyələşdirilməsi ilə bağlıdır: "Həmçinin iqlim dəyişikliklərinə adaptasiya məsələsi də gündəmdədir. COP29-un baş danışıqçısı Yalçın Rəfiyev hazırlanan mətnin qısa və konkret olacağını bildirib. Bu, COP29 mətnini əvvəlki COP mətnlərindən fərqləndirən əsas xüsusiyyət olacaq".

Eyni zamanda qeyd olunub ki, COP29-un sonuncu günündə əsas diqqət sözügedən mətnin hazırlanmasına yönələcək: "Bu günün gündəmində isə nəqliyyat, turizm kimi məsələlər var. Sabah isə gender bərabərliyi, təbiət və biomüxtəliflik kimi məsələlər müzakirə olunacaq. COP29 çərçivəsində hər bir ölkə bu məsələlərlə bağlı öz layihəsini təqdim edir".

Rusiyanın **"1news" nəşrinin** yaydığı məqalədə qeyd olunur ki, noyabrın 11-də Bakıda başlayan COP29 tədbiri Azərbaycanın beynəlxalq nüfuzunun təsdiqidir: "Planetimizin gələcəyi Azərbaycanda müzakirə edilir. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, COP29 beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana ehtiramın və dəstəyin göstəricisidir.

Jurnalist Həsən əl-Yusifi əl-Məğari **"əl-Elami" nəşrindəki** COP29 haqqındakı yazısında nəzərə çatdırıb ki, medianı ekoloji hədəflərin həyata keçirilməsi işinə daha yaxından cəlb etmək lazımdır. Vurğulanıb ki, informasiyaların daha geniş izləyici kütləsinə çatmasında onun imkanlarından istifadə etmək olar.

**"Ənfas press" nəşri** isə Mərakeşin "Tansift" inkişaf mərkəzinin rəhbəri doktor Əhməd əş-Şəhbuninin iqlim maliyyələşməsi mövzusuna həsr olunmuş seminardakı çıxışı barədə yazıb. Nəşrin məlumatına görə, əş-Şəhbuni bildirib ki, iqlim maliyyələşməsi iqlim dəyişikliyinə qarşı mübarizədə mühümdür. Həmçinin qeyd edib ki, özəl və dövlət investisiyaları istixana qazlarının azaldılmasına töhfə verəcək layihələrə yönəldilməlidir.

**"Kuwaittimes" qəzeti** yazıb ki, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev ambisiyaları artırmaq, 1,5 dərəcə hədəfinə nail olmaq və iqlim dəyişmələrinə qarşı fəaliyyətə imkan yaratmaq üçün konfransın aydın baxışa malik olduğunu diqqətə çatdırıb. Bildirilib ki, Küveytin kritik iqlim problemlərinin həllində səyləri yüksək qiymətləndirilib. Qeyd olunub ki, Azərbaycan noyabrın 23-dək davam edəcək COP29 konfransına evsahibliyi edir və burada əsas prioritet iqlimin maliyyələşdirilməsi üçün yeni hədəfin razılaşdırılmasıdır.

**"Arabtimes" qəzetində** isə qeyd edilib ki, COP29 iqlim dəyişikliyi ilə mübarizəyə yönəlmiş siyasətlərin müzakirəsi və həyata keçirilməsi üçün əvəzsiz platformadır. Dünyanı birləşdirən Azərbaycanda konfransın iştirakçıları iki həftə ərzində qlobal dekarbonizasiya hədəfi üçün yeni maliyyə resursları barədə müzakirələr apardılar. COP29-un əsas məqsədləri sırasında istixana qazlarının emissiyalarının azaldılması, qlobal istiləşmənin dramatik təsirlərinə uyğunlaşmaqda ən həssas ölkələrə dəstək olmaq üçün yeni maliyyələşdirmə mexanizmlərinin yaradılması var. Konfrans bir çox bölgədə təbii fəlakətlərə təkan verən qlobal temperaturun həyəcanverici artımına cavab vermək üçün unikal fürsət kimi qiymətləndirilib.

Gürcüstanın **"Gaxa.ge" informasiya portalının** yaydığı materialda deyilir ki, dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri hesab edilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında 11-ci gün geridə qalıb. Noyabrın 23-dək Bakı Olimpiya Stadionunda davam edəcək COP29 Azərbaycanın indiyə qədər təşkil etdiyi ən nəhəng tədbirdir və regionda ilk dəfə Azərbaycanda baş tutur. Materiallarda COP29-dan əsas gözləntinin iqlim maliyyəsi ilə bağlı ədalətli və ambisiyalı Yeni Kollektiv Kəmiyyət Hədəfinin (NCQG) razılaşdırılmasından ibarət olduğu qeyd edilir.

*Hazırladı:*
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Bakıdan dünyaya ədalət çağırışı




## Erməni lobbisinin dəstəkçilərinə Azərbaycan "dərs" verdi

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq nüfuzuna yüksək etimadın göstəricisidir. Sözsüz ki, BMT belə bir ciddi qərar qəbul edən zaman Azərbaycanın ekoloji problemlərlə bağlı bir çox konvensiya və sazişə qoşulmasını, müxtəlif ölkələrlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmasını, bu sahədə çoxşaxəli fəaliyyət proqramları qəbul etməsini nəzərə almışdır.**

Ölkəmizdə ətraf mühitin qorunmasını nəzərdə tutan zəruri qanunvericilik sistemi formalaşdırılaraq səmərəli institusional mexanizmlər və investisiya mühiti yaradılmışdır. Hazırda "yaşıl enerji" layihələrinin həyata keçirilməsi, alternativ və bərpaolunan enerji mənbələrindən istifadə, ətraf mühitə mənfi təsirlərin qiymətləndirilməsi və aradan qaldırılması istiqamətində çox ciddi işlər görülməkdədir. Azərbaycanda 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. İqlim dəyişmələri və ekoloji problemlər ilə hamılıqla mübarizə aparmaq üçün dünyada beynəlxalq təhlükəsizliyin, sülh və əmin-amanlığın təmin edilməsi vacib amillərdən biridir. Ölkəmiz yaxın tarixi keçmişdə əsassız ərazi iddialarına məruz qalaraq, ədalətsiz müharibəyə cəlb edilərək, bu qanlı savaşın ağır fəsadlarını yaşayıb. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatı ilə başlayan Vətən müharibəsi torpaqlarımızın işğaldan azad olunması ilə yekunlaşıb. Qısa zaman ərzində Ermənistan ordusunun təcavüzü nəticəsində xarabazara çevrilmiş şəhər və kəndlərimizdə sürətli abadlıq və quruculuq işlərinə start verilib. Görülən təxirəsalınmaz tədbirlər nəticəsində keçmiş məcburü köçkünlərin doğma yurdlarına qayıdışı başlanılıb. Bölgədə ekoloji tarazlığı bərpa etmək istiqamətində "yaşıl iqtisadiyyat"a, bərpaolunan enerjiyə əsaslanan genişmiqyaslı yenidənqurma işlərinə start verilib...

44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbəmiz, regionda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri illərdir ki, Ermənistandan mənfur məqsədləri üçün istifadə edib regionda müharibə alovunu körükləyən böyük dövlətlərin, xüsusilə Fransanın qısqanclığına səbəb olub. Əsas işi regionda sülhə, əmin-amanlığa mane olmaq məqsədilə gərginlik yaratmaq, Ermənistanı silahlandırıb yenidən Azərbaycana qarşı müharibəyə təhrik etməyi qarşısına məqsəd qoyan Fransa prezidenti Emmanuel Makron əvvəlcə iki ölkə arasında gedən sülh danışıqlarında "vasitəçi" qılığına girib prosesi pozmağa çalışdı. İstədiklərinə nail ola bilmədiklərini gördükdə isə Fransa kimi bir dövlətin başçısı erməni lobbisinin sözçüsünə çevrilərək Azərbaycan əleyhinə aparılan çirkin kampaniyaya "liderlik" etməyə başladı.

Oyuncağı əlindən alınmış uşaq kimi cığallıq edərək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın sədrlik etməsini həzm edə bilməyən Makron bu mötəbər tədbirin gözdən salınması məqsədilə dəridən, qabıqdan çıxdı, bir sıra dövlət başçılarına tədbirə qatılmamaq barədə çağırışlar da etdi. Amma arzusu yenə də ürəyində qaldı. Bütün dünyanın nəzərləri Azərbaycana yönəldi. Dünyanın 196 ölkəsindən 72 mindən çox nümayəndə COP29-da iştirak etmək üçün Bakıya gəldi. 80 prezident, vitse-prezident və baş nazir çox fəal şəkildə liderlərin zirvə görüşündə iştirak etdi. Fransanın ölkəmiz əleyhinə hazırladığı bu oyun da baş tutmadı...

Emmanuel Makrondan başqa kimsə Fransanın bu dərəcədə nüfuzdan salınıb, beynəlxalq imicinə zərbə vura bilməzdi.

Azərbaycan XİN-dən verilən məlumata görə, Fransanın ölkəmizdəki səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə (XİN) çağırılaraq BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində və sessiya zamanı Fransanın Azərbaycan sədrliyinin hədəf alınmasına etiraz bildirilib.

Bundan başqa, səfirin diqqətinə Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, militarizmi və revanşizmi təşviq edən Fransanın addımlarının sülh prosesinə zərbə olduğu çatdırılıb. XİN-in məlumatında Azərbaycanı hədəf alan, eləcə də normallaşma prosesini təhlükə altına salan bu addımlara son qoyulmasının Fransa tərəfindən təkidlə tələb olunduğu qeyd edilir.

Bu bir faktdır ki, dünyada ölkəmiz əleyhinə erməni lobbisinin sifarişlərini gerçəkləşdirmək istəyən muzdlu dəstəyə COP29-un işinə başladığı ərəfədə və bu günlərdə daha çox fəallıq göstərmək tapşırığı verilib.

COP29 konfransı başlayan zaman Fransanın xüsusi səyləri ilə Avropa Parlamentində sədrliyimizi əsassız şəkildə tənqid edən, ümumilikdə isə iqlim dəyişmələri ilə mübarizə sahəsində qlobal səylərimizə qarşı çevrilmiş qətnamənin qəbulundan tutmuş Azərbaycana qarşı çıxışları və qatı erməniпərəst mövqeyi ilə tanınan amerikalı konqresmen Frank Peloninin COP29-da iştirak etmək məqsədilə Bakıya gəlməsini qəti surətdə təsadüfi hesab etmək olmaz. Bu fakt göstərir ki, eyni mərkəzdən idarə olunan antiazərbaycançı şəbəkə COP29-un keçirildiyi günlərdə ölkəmizin beynəlxalq aləmdə artan nüfuzundan narahat olaraq daha "aktiv" fəaliyyətə keçiblər. Muzdlu dəstənin əsas simalarından biri Frank Peloni ilə yanaşı, erməniпərəst senatorlar Ed Marki və Şeldon Uaythaus da COP29-da "iştirak" etmək üçün Bakıya gəliblər. Erməniпərəst "cənablar" çox gözlətmədən keçirdikləri brifinqdə söylədikləri qızışdırıcı fikirləri ilə özlərini ifşa etdilər. Yeganə məqsəd yüksək səviyyədə təşkil edilən COP29-un gedişatına kölgə salmaq cəhdi idi.

Peloni hər zaman Azərbaycana qarşı böhtan kampaniyalarında, ölkəmizin əleyhinə qətnamələrin qəbul olunmasında fəal iştirak edib. Bu yaxınlarda 60 konqresmen tərəfindən imzalanaraq ABŞ Dövlət Departamentinə ünvanlanmış bədnam sənədin altında da onun imzası var. Frank Peloni ölkəmizdə ona olan münasibətdən də qəti surətdə xəbərsiz deyil. COP29 tədbiri çərçivəsində ölkəmizə gəlişi də heç səbəbsiz deyildi. Əgər o Azərbaycandan qaçmağa məcbur edilməsəydi, sözsüz ki, təxribat xarakterli əməlləri ilə tarixiləşməyə çalışacaqdı. Lakin əməlləri bumeranq kimi üstünə qayıtdı. Kütləvi informasiya vasitələri, QHT-lərin, vətəndaş cəmiyyətinin nümayəndələri ona layiq olduğu yeri göstərdilər. Göstərdilər ki, Azərbaycana qarşı şər-böhtan kampaniyası aparan hər kəs nifrətə layiqdir və kimliyindən asılı olmayaraq lazımi cavabını alacaq. F.Peloni heç bir tədbirdə iştirak etmədən, heç kimlə görüşməyə cürət etmədən gecə saatlarında ölkəmizi tərk etdi. Əli ətəyindən uzun geriyə qayıtmaq məcburiyyətində qaldı. Aldığı sifarişi yerinə yetirə bilməyən, erməni lobbisinin əlində oyuncaq olan üzdəniraq konqresmen ABŞ-yə qayıdandan sonra "X" şəbəkəsində ermənilərə olan borcunu ödəyəcəyini bildirib.

Frank Peloninin Bakıda başına gələnlər erməni lobbisinin digər muzdlu "qəhrəmanları"na da nəticə çıxarmaq üçün dərs oldu.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*





















## *Prezidentin siyasi müşaviri:* "Qlobal Şimal bloku həssas ölkələrə kömək etməyə çalışmır"

**"Qlobal Şimal bloku həssas ölkələrə kömək etməyə çalışmır. COP28-də milyardlarla, trilyonlarla dollarlar işlənib, lakin bu günə kimi heç nə olmayıb. Yeni nəslin qeyri-sağlam Yer kürəsində yaşamağının qarşısını almaq üçün hərəkətə keçmək mütləqdir".**



Bu sözləri AZƏRTAC-a açıqlaması zamanı Nepal prezidentinin siyasi müşaviri Sunil Bahadur Thapa deyib.

O, Azərbaycanda keçirilən COP29-da iştirakından məmnun olduğunu qeyd edib.

"Təşkilatçılıq yüksək səviyyədədir. Azərbaycan bu dəfə dünyaya çox aydın mesaj verməlidir ki, inkişaf etmiş ölkələr iqlimə qarşı ədalətli olsunlar. Nepal dağlıq ölkədir. Bizim Himalay dağları təxminən 2 milyard insanı təmiz su ilə qidalandırır. 2700 buzlaq və 12 çayımız var. İqlim dəyişikliyi nəticəsində buzlaqlar əriyir. Bu gün heç nə etməsək buzlaqların yarısını itirəcəyik. Eyni zamanda Cənub və Cənub-Şərqi Asiyadan 2 milyard insan da sudan məhrum olacaq", - deyə müşavir qeyd edib.

## *Vampie LİBON:* "Su problemi 2050-ci ilə qədər qlobal ÜDM-i 8-15 faiz azalda bilər"

**"Su problemləri ilə bağlı hərəkətsizlik 2050-ci ilə qədər qlobal ümumi daxili məhsulda (ÜDM) 8-15 faiz itkiyə səbəb ola bilər".**



"Report" xəbər verir ki, bunu Niderlandın Xarici İşlər Nazirliyinin (XİN) nümayəndəsi Vampie Libon COP29 çərçivəsində təşkil olunmuş "İqlim üçün su: Su məsələlərinin NDCs və NAPs-a inteqrasiyası" tədbirində bildirib.

"Su ilə bağlı heç bir tədbir görməsək, ÜDM-ə çox mənfi təsir edəcək. Düşünürəm ki, su ilə bağlı məsələlər iqlim tədbirlərinin əsas hissəsində yer almalıdır. Milli səviyyədə Müəyyən Edilmiş Töhfələrə (NDC) gəldikdə isə yaxşı xəbər odur ki, ölkələrin təxminən 90 faizi artıq öz milli planları ilə bağlı tədbirlər daxil edib. Bununla bağlı hələ də çatışmayan cəhət bu öhdəliklərin maliyyəyə ehtiyacının olmasıdır. Su məsələsi, həqiqətən də, böyük problemdir. Bütün tərəflər onu həll etməlidir. Biz birlikdə öhdəlik götürməliyik, bir-birimizdən öyrənməyə davam etməliyik. Biz investisiyalara, potensialın yaradılmasına və bilik mübadiləsinə kömək edə bilərik.

Biz ümumi məqsədlə hərəkət etsək, inşallah kursu dəyişə bilərik", - deyə o qeyd edib.

## *Hank OVİNK:* "3 milyarda yaxın insan su ehtiyatının azalacağı proqnozlaşdırılan ərazidədir"

**"Bəşər tarixində ilk dəfə hidroloji tarazlıq pozulub". Bunu Su İqtisadiyyatı üzrə Qlobal Komissiyanın (The Global Commission on the Economics of Water - GCEW) İcraçı Direktoru Hank Ovink COP29 çərçivəsində təşkil olunmuş "İqlim üçün su: Su məsələlərinin NDCs və NAPs-a inteqrasiyası" adlı tədbirdə bildirib.**



Onun sözlərinə görə, bu vəziyyət ədalətli, davamlı gələcəyə xələl gətirir: "Şirin su ekosistemlərinin deqradasiyası, o cümlədən torpaqda nəm itkisi iqlim dəyişikliyinin və biomüxtəlifliyin yox olmasının aparıcı qüvvəsinə çevrilib. 1 dərəcə istiləşmə atmosferdə 7 faiz əlavə su buxarının artması deməkdir. Bu da anomal iqlim hadisələrinin olmasını gücləndirir. Nəticədə şiddətli quraqlıqlar, istilik dalğaları dünyanı risk altına qoyur. Hazırda 3 milyarda yaxın insan, dünya üzrə ərzaq istehsalının yarıdan çoxu ümumi su ehtiyatının azalacağı proqnozlaşdırılan ərazilərdədir. Bu səbəbdən daha cəsarətli və inteqrasiya olunmuş düşüncəyə, problemləri həll etmək üçün siyasət çərçivələrinin yenidən qurulmasına ehtiyac duyuruq", - deyə o qeyd edib.

COP29 Baku Azerbaijan

# Dünya ekoloqlarının Bakı sammiti










## *Ceyson MORİSSON:* "Biz iqlim dəyişikliyinə uyğunlaşmağın və davamlılığın artırılmasının vacibliyini daha çox dərk edirik"



AZƏTAC xəbər verir ki, bu barədə BMT-nin Qlobal Sazişin Su Mandatının rəhbəri Ceyson Morisson COP29 çərçivəsində jurnalistlərə açıqlamasında deyib.

"İqlim dəyişikliyinin yumşaldılmasına gəldikdə, biz kifayət qədər sürətlə hərəkət etmirik, ambisiyalarımız kifayət qədər yüksək deyil və nəticələrimiz hələ də hədəflərimizdən geri qalır.

Eyni zamanda biz iqlim dəyişikliyinə uyğunlaşmağın və davamlılığın artırılmasının vacibliyini daha çox dərk edirik. Bu və növbəti konfransda su və iqlim dəyişikliyinə uyğunlaşma qlobal uyğunlaşma gündəliyi ilə müşayiət olunan əsas müzakirə mövzularına çevrilir.

Ümid edirəm ki, Bakı Bəyannaməsinə əsaslanaraq, gələn il Braziliyada keçiriləcək növbəti konfransa doğru bu sürəti artıracağıq", - deyə BMT nümayəndəsi əlavə edib.

## *Nura HAMLADCI:* "Yer kürəsində yaşayan hər bir insan iqlim fəaliyyətinə töhfə verməlidir"

**"Yer kürəsində yaşayan hər bir insan iqlim fəaliyyətinə töhfə verməli və bu sahədə birlikdə çalışmalıdır".**



Bu fikirləri BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibinin müavini Nura Hamladcı COP29 çərçivəsində keçirilən "Şəffaflıqda gender" mövzusunda mandatlı yüksəksəviyyəli tədbirdə çıxışı zamanı səsləndirib.

O vurğulayıb ki, genderə həssas yanaşmaların tətbiqi bizi iqlim məsələlərində düzgün istiqamətə yönəldir. İqlim fəaliyyətinin mərkəzində duran iş proqramının qəbulundan sonra konkret tədbirlər yerində həyata keçirilib və qadınlar siyasətlərin formalaşmasında xüsusi rol oynayıblar.

Nura Hamladcı əlavə edib ki, bütün ölkələr bu ilin sonuna qədər öz ikiillik şəffaflıq hesabatlarını hazırlamalıdırlar. Bu hesabatlarda gender aspektlərinin əks olunması vacibdir. Yalnız bu yanaşma vasitəsilə qadınları nəzərə alan inklüziv iqlim fəaliyyəti təmin edilə bilər.

## *Boris TİTOV:* "Yeni STA standartı "yaşıl həllər"in təşviqini yeni səviyyəyə çıxaracaq"

**"Strateji Təşəbbüslər Agentliyinin (STA) yeni "Ümumi Biznes Kapitalı" standartı (Regional investisiya standartı) "yaşıl həllər"in stimullaşdırılmasını yeni səviyyəyə çıxaracaq".**



Bu barədə Rusiya Prezidentinin Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün beynəlxalq təşkilatlarla əlaqələr üzrə xüsusi nümayəndəsi Boris Titov Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı bildirib.

"Mitiqasiya (iqlim dəyişmələrinin təsirlərinin yumşaldılması - red.) və iqlim dəyişmələrinə uyğunlaşma üzrə praktiki həllər BMT ölkələrinin iqlim sazişinin bütün proqramının "ucluğu"dur", - deyə Strateji Təşəbbüslər Agentliyinin təşkil etdiyi seksiyada çıxış edən B.Titov qeyd edib.

Bir çox şirkətin ESG gündəliyinin çərçivəsində könüllü olaraq uyğunlaşma və mitiqasiya layihələrini həyata keçirməsini sevindirici hal adlandıran xüsusi nümayəndə əlavə edib ki, bu fəaliyyətin genişləndirilməsi üçün stimullar kifayət deyil. "Ümid edirik ki, Strateji Təşəbbüslər Agentliyinin yeni "Ümumi Biznes Kapitalı" standartı presedent yaradacaq və ESG və xüsusilə "yaşıl həllər"in stimullaşdırılmasını yeni səviyyəyə çıxaracaq", - deyə o vurğulayıb.

"Bu gün təqdim olunan layihələrin bir çoxu təbii mitiqasiya üzrə təbii həllər üzərində qurulub (söhbət atmosferdən karbon qazının udulmasından və onun saxlanılmasından gedir - red.). Rusiya "yaşıl gündəm"ində diqqəti məhz bu cür həll yollarına yönəldir və hesab edir ki, mitiqasiyanın yeganə alternativi kimi qazıntı yanacağından imtina etmək tendensiyası resurs istehlak edən ölkələrin zorla qəbul etdirilmiş gündəliyidir", - deyə B.Titov əlavə edib.

## *Castin ERBAÇİ:* "Qonaqpərvərliyə görə Azərbaycana dərin minnətdarlığımızı bildiririk"

**"Airports Council International (ACI) World" təşkilatı hava limanlarını beynəlxalq müstəvidə təmsil edir. COP29 konfransında iştirak etməkdən, Bakıda olmaqdan məmnunluq duyuruq. Qonaqpərvərliyə və bizə göstərilən dəstəyə görə təşkilatımızın adından Azərbaycana dərin minnətdarlığımızı bildirmək istərdim".**

Bunu "Airports Council International (ACI) World" təşkilatının baş icraçı direktoru Castin Erbaçi jurnalistlərə müsahibəsində deyib.

"Bakıdakı Heydər Əliyev Beynəlxalq Aeroportunun əməkdaşları Hava Limanları Karbon Akkreditasiyasına (ACA) nail olmaq üçün böyük səy göstəriblər.



Bu gün Heydər Əliyev Beynəlxalq Aeroportuna Hava Limanları Karbon Akkreditasiyası (ACA) proqramının 2-ci səviyyə "Azaltma" sertifikatı təqdim olundu. Bununla da həmin aeroportun dayanıqlı bir hava limanına çevrilməsi istiqamətində böyük addımlar atılmış oldu. Bu isə bizim birgə hədəfimizə - 2050-ci ilədək karbon neytrallığına nail olmaq üçün çox zəruridir", - deyə C.Erbaçi bildirib.

## *Məhəmməd MEZQANİ:* "COP29-da nəqliyyat çox yaxşı təşkil edilib"

**"COP29-da nəqliyyatın təşkili və iştirakçıların hərəkətliliyi çox yaxşı təmin edilib. Bu mənim ilk iştirak etdiyim COP-dur. Ancaq digər COP-lar haqqında da məlumatım var. Müqayisə etsəm deyərdim ki, burada təşkilat çox yüksək səviyyədədir, hər şey çox yaxşı hazırlanıb. Avtobusların intervalı kifayət qədər azdır. Onlar şəhərin hər yerində mövcuddur. Metrodan istifadə edirəm, çox yaxşı işləyir".**



Bu barədə jurnalistlərə açıqlamasında Beynəlxalq Nəqliyyat İctimai Birliyinin (UITP) Baş katibi Məhəmməd Mezqani COP29 çərçivəsində deyib.

"Düşünürəm ki, insanlar burda nəqliyyatın fəaliyyətindən şikayət edə bilməzlər. Xüsusilə Bakı şəhərində mobillik siyasətini və alternativ nəqliyyat növlərinin inkişafı, ortaq hərəkətlilik, velosiped, skuter istifadəsi haqqında da qeyd etmək istərdim ki, bunlar çox vacib nüanslardır. Çünki ictimai nəqliyyatı inkişaf etdirsək, ümumi və alternativ hərəkətliliyi təmin etsək, insanlar avtomobildən istifadə etməyə və ya avtomobil sahibi olmağa belə ehtiyac duymayacaqlar.

Bakıda çoxzolaqlı avtobus yolları gördüm ki, bu da avtobusların kommersiya sürətini daha yüksək və səmərəli edir. Bu, daha çox insanı ictimai nəqliyyata cəlb edəcək. Biz bilirik ki, ictimai nəqliyyat dayanıqlı nəqliyyat növüdür. Çünki onlar avtomobillərə nisbətən dörd-beş dəfə az CO2 emissiyası buraxır. Ona görə də bizim bunu təşviq etməmiz lazımdır və hesab edirəm ki, Azərbaycanda da buna çox yaxşı yanaşılır", - deyə Məhəmməd Mezqani əlavə edib.

## *Arpana PRATAP:* "COP29 kiçik ada ölkələri üçün əvəzsiz platformadır"

**"Bütün COP-lar çox vacibdir, çünki onlar kiçik ada ölkələrinə, xüsusilə də Sakit Okean hövzəsinə öz narahatlıqlarını ifadə etmək, problemləri və həll yollarını müzakirə etmək üçün platforma təmin edir. COP29 Sakit Okean üçün xüsusi əhəmiyyət kəsb edir".**



Bu sözləri COP29 iştirakçısı, Sakit Okean Adası İnkişaf Forumunun direktoru Arpana Pratap deyib.

"Bildiyiniz kimi, Sakit Okeanda həm maliyyə, həm də insan resursları çatışmır. Düşünürəm ki, iqlimin reputasiyasını artırmaq və təsirləri azaltmaq üçün maliyyə cəlb edə bilsək, bu, böyük irəliləyiş olar", - deyə o qeyd edib.

Azərbaycana ilk dəfə səfər etdiyini deyən direktor ölkəmizlə bağlı fikirlərini belə ifadə edib: "Azərbaycan və əhalisi çox gözəldir. Burada olmaqdan böyük həzz alıram".

## *Miroslav ANTONOVİÇ:* "Orta dəhlizin inkişafı qlobal nəqliyyat şəbəkəsi üçün strateji əhəmiyyət kəsb edir"

**"Azərbaycan Dəmir Yolları" (ADY) Orta Dəhlizin mühüm tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inkişafında əsas rol oynayır".**



Bu barədə "Dəmir Yolları Əməkdaşlıq Təşkilatı"nın (DYƏT) sədri Miroslav Antonoviç jurnalistlərə müsahibəsində bildirib.

DYƏT sədri bu dəhlizin Asiya ilə Avropa arasında yük daşımalarının sürətləndirilməsi və sadələşdirilməsi üçün strateji əhəmiyyətini vurğulayıb, həmçinin sürətin artırılması və infrastrukturun modernləşdirilməsi kimi prioritet vəzifələri qeyd edib.

O əlavə edib ki, son görüşlərdə gömrük və nəzarət prosedurlarının sadələşdirilməsi, rəqəmsal texnologiyaların, o cümlədən "bir pəncərə" sisteminin tətbiqi məsələləri müzakirə olunub.

M.Antonoviç qeyd edib ki, beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq çərçivəsində Orta dəhlizin inkişafına yönəlmiş yeni layihələr üçün investisiya mexanizmləri işlənib hazırlanır.

Miroslav Antonoviç əlavə edib ki, Orta dəhlizin inkişafı təkcə regional deyil, həm də qlobal nəqliyyat şəbəkəsi üçün strateji əhəmiyyət kəsb edir.

Qeyd edək ki, 2023-cü ildə "ADY" QSC BMT-nin Qlobal Sazişinə qoşulub və bu təşəbbüs çərçivəsində BMT-nin Davamlı İnkişaf Məqsədlərinə nail olunmasına, eləcə də ekoloji, sosial və korporativ idarəetmə (ESG) sahəsində fəaliyyət proqramını daha da təkmilləşdirməklə ölkə iqtisadiyyatına töhfə verməyi planlaşdırır. "Yaşıl dünya naminə həmrəylik ili" və COP29 çərçivəsində Azərbaycan Dəmir Yolları resurslardan səmərəli istifadəyə yönəlmiş yeni texnologiyaların tətbiqini aktivləşdirəcək.

## *McMichael MİSECH:* "COP29-un nəticələrinə böyük ümidlərim var"

**"İqlim dəyişikliyinin fəsadlarını göstərmək üçün COP29 yaxşı fürsətdir".**



Bunu COP29-un palaulu nümayəndəsi, antropoloq McMichael Misech deyib.

O qeyd edib ki, COP29 yalnız Palau üçün deyil, eyni zamanda bütün Sakit okean ölkələri üçün vacib konfransdır: "Biz karbon emissiyalarının 1 faizdən azını istehsal edirik. Ancaq Sakit okeanın səviyyəsinin qalxması, sahil eroziyası kimi iqlim dəyişikliyindən ən çox əziyyət çəkən ölkəyik. COP29-un nəticələrinə böyük ümidlərim var".

## *Syed Aminul HOQUE:* "COP29-da iştirakımızın məqsədi yeni təcrübələr qazanıb onları ölkəmizdə tətbiq etməkdir"

**"Mən Banqladeşdən gəlmişəm. Təmsil etdiyim qurum Banqladeşdə qeyri-hökumət təşkilatları ilə işləyir. COP29-da iştirakımızın əsas məqsədi iqlimlə bağlı danışıqlarda iştirak etmək və yeni təcrübələr qazanıb onları ölkəmizdə tətbiq etməkdir".**



Bu barədə banqladeşli COP29 iştirakçısı Syed Aminul Hoque deyib. O qeyd edib ki, tədbir ölkələrində sahilyanı ərazidə yaşayan və iqlim dəyişmələrindən əziyyət çəkən insanlar üçün maliyyə dəstəyini də ehtiva edir.

"Biz COP29 çərçivəsində keçirilən yan tədbirlərə qatıldıq, müzakirələrdə iştirak etdik. Banqladeş sahilyanı ölkədir və əhalinin 50 milyondan çoxu sahilyanı ərazilərdə yaşayır. Onlardan 20 milyonu müxtəlif təbii fəlakətlərdən, o cümlədən su səviyyəsinin qalxması və siklonlardan əziyyət çəkir ki, bununla da insanlar məcburi köçkünlərə çevrilirlər. İqlim maliyyəsi olmasa biz öz iqlim hədəflərimizə nail ola bilməyəcəyik. Maliyyədən əlavə, vədləri yerinə yetirmək lazımdır, əgər pul yatırılırsa, amma öhdəlik yerinə yetirilmirsə, lazımi nəticə əldə olunmayacaq".









COP29 Baku Azerbaijan

# "Yaşıl həmrəylik" Azərbaycandan başlayır

## *Kai MAYKANEN:* "Qlobal su gündəliyi misli görünməmiş siyasi impuls qazanıb"

**"Qlobal su gündəliyi misli görünməmiş siyasi impuls qazanıb". "Report" xəbər verir ki, bunu Finlandiyanın İqlim və ətraf mühit naziri Kai Maykanen COP29 çərçivəsində təşkil olunmuş "İqlim, təbiət və insanlar üçün suyun həyat xəttini qeyd edirik" adlı tədbirdə bildirib.**



"Suyun beynəlxalq siyasətə inteqrasiyası və 2050-ci ilə qədər qlobal cəmiyyətdə su resurslarının dayanıqlılığına nail olmaq Avropa İttifaqının məqsədləridir. Bakı Bəyannaməsi suyun iqlim dəyişikliyinin mərkəzində olduğunu qəbul edir və iqlim təsirlərinin əksəriyyəti su dövranındakı pozuntular vasitəsilə özünü göstərir. O həmçinin təbii fəlakətlər və fövqəladə halların əksəriyyətinin su ilə əlaqəli olduğunu nəzərə alır. Bakıda qəbul edilmiş İqlim Fəaliyyəti üçün Su Dialoqu Bəyannaməsi mühüm təşəbbüsdür və mən COP 29-da Azərbaycanın sədrliyi altında bu sənədin hazırlanmasına görə təşəkkür etmək istərdim. Bu sənəd su məsələsini qlobal iqlim gündəliyində daha yüksək səviyyəyə qaldırır ki, bu da bizə lazımdır", - deyə o qeyd edib.

Finlandiya rəsmisi əlavə edib ki, bəyannamə həm yumşaldıcı, həm də adaptasiya üçün səmərəli iqlim fəaliyyətlərinin həyata keçirilməsində su hövzələrinin və su ilə əlaqəli ekosistemlərin qorunması, mühafizəsi və bərpasının həyati rolunu vurğulayır: "Bəyannamədə göstərildiyi kimi, su hövzələri və su ilə əlaqəli ekosistemlər üçün iqlim dəyişikliyinin səbəbləri və nəticələri haqqında elmi sübutların əldə edilməsini gücləndirməliyik. Biz su ekosistemlərinin qorunması, bərpası və dayanıqlı idarə edilməsi ilə həm iqlim yumşaldılması, həm də adaptasiya faydalarına töhfə arasındakı əlaqələri müəyyən etməliyik".

"COP29-da Azərbaycan sədrliyi etməyə çalışdığı kimi, su və iqlim dəyişikliyi məsələlərində birgə işləmək üçün hökumətləri, BMT təşkilatlarını, akademik dairələri və özəl sektoru birləşdirməliyik. Su hər cür dayanıqlı inkişafın mərkəzindədir. Biz su və sanitariyaya olan insan hüququnu təmin etməliyik. Suyun sülh və təhlükəsizlik üçün əhəmiyyəti lazımi şəkildə nəzərə alınmalıdır ki, su sabitləşdirici qüvvəyə çevrilsin", - deyə o qeyd edib.

## *FAO nümayəndəsi:* "Qlobal aqro-ərzaq sistemlərinə hər il təxminən 1 trilyon dollar investisiya lazımdır"

**"Net sıfır və iqlim davamlılığı hədəflərinə çatmaq üçün qlobal aqro-ərzaq sistemlərinə indidən 2030-cu ilə qədər hər il təxminən 1 trilyon dollar investisiya lazımdır".**



Bunu Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) nümayəndəsi Ceffri Qrifin COP29 çərçivəsində "İqlim və biomüxtəliflik arasında əlaqə: dayanıqlı gələcək üçün inteqrasiya olunmuş həllər" adlı tədbirdə deyib.

Onun sözlərinə görə, dünyada torpaqların 1/3-i deqradasiyaya uğrayıb və hər il 100 milyon hektar kənd təsərrüfatı torpağı deqradasiyaya məruz qalır: "Kənd təsərrüfatı sabit iqlim, inkişaf edən biomüxtəliflik və sağlam torpaqdan asılıdır. COP29 başa çatdıqca iqlim maliyyələşməsi üzrə ambisiyaları artırmaq və planet üçün işləyən aqro-ərzaq sistemləri həllərinə investisiya qoymaq lazımdır".

## *Maina TALİA:* "Dəniz səviyyəsinin artması ilə bağlı təcili şəkildə addımlar atılmalıdır"

**"COP29 iqlim dəyişikliyi ilə mübarizədə maliyyə əlçatanlığı üçün mühüm əhəmiyyət kəsb edir".**



Bunu Tuvalunun daxili işlər, iqlim dəyişikliyi və ətraf mühit naziri Maina Talia COP29 Azərbaycan Əməliyyat Şirkətinin təşkilatçılığı ilə COP29 çərçivəsində keçirilən "İqlim dəyişmələri şəraitində Kiçik ada dövlətləri (SİDS) və icmaların ekosistemləri" mövzusunda panel sessiyasında bildirib.

"İqlim dəyişikliyi Tuvaluda çox hiss olunur. Ada ölkəsi olan Tuvaluda bu dəyişikliyin birbaşa şahidi oluruq. Bizim ölkənin əhalisi iqlim dəyişikliyinə görə vətənlərini tərk etməyə məcbur qalır. Amma bu, bizim üçün çox ağır, çətin qərardır", - o vurğulayıb. Onun sözlərinə görə, hazırda dəniz səviyyəsinin artması ilə bağlı vəziyyət nəzarətdən çıxıb: "Bununla bağlı təcili şəkildə addımlar atılmalıdır. Növbəti onilliklərdə hansı hadisələrin baş verəcəyini bilmirik".

Nazir qeyd edib ki, COP29-da iqlim maliyyəsinə diqqət yetirilir: "Buradakı müzakirələrin kiçik ada dövlətlərinə də ciddi təsiri var. Bu mənada ümid işığı görürük. COP29 konfransı iqlim dəyişikliyi ilə mübarizədə maliyyə əlçatanlığı üçün mühüm əhəmiyyət kəsb edir".






# COP29 tədbirləri bəşəriyyət üçün əhəmiyyətli məsələlərin müzakirəsi ilə yadda qaldı

Tədbirin məqsədi bütün dünya üçün olduqca əhəmiyyətlidir. 1995-ci ildən başlayaraq hər il təşkil olunan Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransınıın sessiyalarında (COP) dünyada iqlim dəyişmələri ilə mübarizədə irəliləyişlərin olduğu bildirilir.

Hazırda iqlim dəyişikliyinin fəsadlarının bəşəriyyətin gələcəyi üçün təhdidə çevrildiyi bir vaxtda bu beynəlxalq tədbirin keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Belə bir vaxtda bu vacib beynəlxalq tədbirin növbəti sessiyasının keçirilməsi üçün ev sahibi seçilməsində Azərbaycanın iqlim dəyişmələrinə həssas yanaşması, özünün "yaşıl gündəliy"i ilə qlobal səylərə töhfə verməsi mühüm rol oynadı. Ölkəmizə qarşı təzyiqlərə baxmayaraq, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Dubayda keçirilən 28-ci Konfransında 2024-cü ildə 29-cu sessiyasının Azərbaycanda keçirilməsi barədə qərar qəbul edildi.

Prezident İlham Əliyev ötən il dekabrın 15-də COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar müşavirədə vurğuladı ki, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır: "Yaşıl enerji növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək", - dövlətimizin başçısı demişdir.

Qeyd etdiyimiz kimi, çox mötəbər bir tədbirin - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi qərarı beynəlxalq ictimaiyyət tərəfindən dövlətimizə böyük etimadın, həmçinin iqlim dəyişmələrinin qarşısının alınması işinə ölkəmizin töhfəsinin təqdir edilməsinin bariz nümunəsi oldu.

Beləliklə Prezident İlham Əliyevin sərəncamı ilə elan olunmuş "Yaşıl dünya naminə həmrəylik ili"nin - 2024-cü ilin noyabrında Azərbaycanın tarixinə yeni, əlamətdar günlər yazıldı.

Noyabrın 4-dən 10-dək konfransa hazırlıq mərhələsində COP29 sədrliyinin təşəbbüsü ilə müxtəlif mövzularda danışıqlar aparıldı, kiçikhəcmli konfranslar, sessiyalar təşkil edildi. Noyabrın 11-i COP29-un açılış mərasimi keçirildi. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası elə ilk gündən başlayaraq yüksək təşkilatçılığı ilə diqqəti cəlb etdi və təqdir olundu.

Geniş iştirakçı auditoriyasının bir araya gəlməsinə şərait yaradan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində təsdiq edilmiş Fəaliyyət Gündəliyi əsasında dünyanın ən aktual iqlim problemləri, həmçinin unudulmuş prioritetləri gündəmə gətirilir. İqlim sahəsində dünyanı gözləyən təhlükələr, qlobal problemlər, onların qarşısının alınması yolları, "yaşıl enerji"yə keçid və digər mühüm məsələlər müxtəlif panellər üzrə müzakirələrin mövzusu oldu.

Noyabrın 12-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimi keçirildi. Açılış mərasimində çıxış edən dövlətimziin başçısı İlham Əliyev qeyd etdi ki, Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil: "Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib".

Prezident İlham Əliyev çıxışında diqqətə çatdırdı ki, bu cür tədbirlər, həqiqətən də, həssas qruplardan və icmalardan olan, iqlim dəyişmələrindən əziyyət çəkən insanların səsini çatdırmaq üçün yaxşı fürsətdir: "Tam əminliklə deyə bilərəm ki, hər birimiz ümidlərimizi reallaşdırmaq və daha nikbin bir gələcək üçün çalışmaqda davam edəcəyik".

Bu mötəbər tədbirin Fəaliyyət Gündəliyi çox zəngindir, iqlim sahəsində COP29 sədrliyinin bütün əsas istiqamətlər üzrə irəliləmək səylərini əks etdirir. Fəaliyyət Gündəliyi enerji, maliyyə, kənd təsərrüfatı, şəhərlər, insan inkişafı, o cümlədən iqlim və sülhün qarşılıqlı əlaqəsi kimi bir sıra əsas prioritetləri əhatə edir.

COP29-un gündəlik tematik proqramı əsasında noyabrın 14-də Maliyyə, İnvestisiya və Ticarət Günü, noyabrın 15-də Enerji, Sülh, Yardım və Bərpa Günü, noyabrın 16-da Elm, Texnologiya və İnnovasiya Rəqəmsallaşma Günü, noyabrın 17-si COP29-da istirahət günü oldu.

Noyabrın 18-də İnsan kapitalı, Uşaqlar və Gənclər, Sağlamlıq, Təhsil Günü, 19-da Qida, Kənd təsərrüfatı və Su Günü, 20-də Urbanizasiya, Nəqliyyat, Turizm Günü, 21-də Təbiət və Biomüxtəliflik, Yerli xalqlar, Gender Bərabərliyi, Okeanlar və Sahil Zonaları Günü keçirilməsi planlaşdırıldı. Noyabrın 22-də də müzakirələr aparılacaq.

COP29 çərçivəsində təşkil olunan panel müzakirələri fikir mübadilələri, səmərəli təkliflərlə yadda qaldı.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası COP tarixində bir sıra ilklərlə də əlamətdar oldu. Onlardan biri noyabrın 16-da COP29 çərçivəsində Rəqəmsallaşma Günü keçirilməsi oldu. İqlim böhranı ilə mübarizədə rəqəmsal texnologiyaların əvəzolunmaz roluna dair müzakirələrə əlavə təkan verən bu günün məqsədi rəqəmsallaşma istiqamətində birgə fəaliyyəti təşviq etməkdir.

COP29 çərçivəsində Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannamə qəbul olundu. Bəyannamənin qəbulu ilə tərəflər ümumi 8 məqsədi təsdiq etdilər. Bunlar iqlim fəaliyyəti üçün rəqəmsal texnologiyalar və alətlərdən istifadə, dayanıqlı rəqəmsal infrastrukturun qurulması, rəqəmsallaşmanın iqlimə təsirinin azaldılması, rəqəmsal inklüzivlik və savadlılığın təşviqi, məlumata əsaslanan qərar qəbulu, davamlı innovasiyaların təşviqi, davamlı istehlakçı təcrübələrinin təşviqi və ən yaxşı təcrübələrin paylaşılmasının asanlaşdırılmasıdır.

Noyabrın 21-də isə COP29 çərçivəsində ilk dəfə olaraq Su üzrə İqlim Fəaliyyəti Bəyannaməsi qəbul edildi. Bəyannaməni COP29-un prezidenti Muxtar Babayev və Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramının icraçı direktoru İnger Andersen imzaladılar.

Diqqətə çatdıraq ki, "Bakı Su Dialoqu" platforması iqlim dəyişikliyi, biomüxtəlifliliyin azalması, çirklənmə və səhralaşma ilə mübarizədə qlobal əməkdaşlığı genişləndirmək məqsədi daşıyır. Qəbul edilən Su Bəyannaməsi bu istiqamətdə yeni tərəfdaşlıqların qurulmasına və siyasət tədbirlərinin gücləndirilməsinə töhfə verəcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*





## *Almaniyalı nazir Steffi LEMKE:* "Su üzrə Bakı Dialoqu konkret fəaliyyətlərə böyük töhfə verə bilər"

**"İqlim Fəaliyyəti üçün Su üzrə Bakı Dialoqu mühüm müzakirələrə və konkret fəaliyyətlərə təkan verəcək".**



Bunu Almaniyanın ətraf mühit, təbiətin mühafizəsi, atom təhlükəsizliyi və istehlakçıların hüquqlarının müdafiəsi üzrə naziri Steffi Lemke COP29 çərçivəsində keçirilən "İqlim, təbiət və insanlar üçün suyun həyat xəttini qeyd edirik" adlı tədbirdə bildirib.

"Hazırda biz daha çox quraqlıqlar, artan su qıtlığı və dağıdıcı daşqınlarla üzləşirik. Su böhran simvolu deyil, həllin ayrılmaz hissəsi olmalıdır. Buna görə də COP rəhbərliyinin su məsələsinə diqqət yetirməsini yüksək qiymətləndiririk. Bakı Dialoqu diqqətli müzakirələrə və konkret tədbirlərin həyata keçirilməsinə böyük töhfə verə bilər", - deyə nazir bildirib.

S. Lemke su məsələsinin müxtəlif siyasət sahələrinə sistemli şəkildə inteqrasiya edilməsinin zəruriliyini qeyd edib: "Bərpa olunmuş torf bataqlıqları böyük həcmdə karbon udur. Bununla yanaşı, su, uyğunlaşma proseslərinin əsas elementidir və qlobal uyğunlaşma məqsədləri üçün həyati əhəmiyyət daşıyır. Su siyasəti milli uyğunlaşma planlarının ayrılmaz hissəsi olmalıdır". Nazir Bakı Dialoqunun qlobal su idarəçiliyi üçün vacib bir platforma olduğunu vurğulayaraq əlavə edib: "Biz bir-birimizdən su idarəçiliyi ilə bağlı çox şey öyrənə bilərik. Almaniya bu prosesdə fəal iştirak etməyə hazırdır. Suyun həyat mənbəyi kimi qorunması üçün birlikdə çalışmalıyıq".

## *UNFCCC rəsmisi:* "Azərbaycan COP29-da media mərkəzinin təşkilini uğurla həyata keçirib"

**"BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) COP29-da Kütləvi informasiya vasitələrinin (KİV) davamlı fəaliyyətini təmin etmək üçün əlindən gələni edir".**



Bunu UNFCCC-nin kommunikasiya şöbəsinin rəhbəri Aleksandr Sayer jurnalistlərə açıqlamasında bildirib.

"Komandamız media nümayəndələrinin baş verən hadisələrdən xəbərdar olması üçün əlindən gələni edir", - o bildirib. Əlavə edib ki, media qurumlarının əməkdaşlarına hər gün əsas proqramla bağlı elektron məktublar göndərilir. "Biz həmçinin sosial şəbəkələrdən, "push" bildirişlərdən, eləcə də baş verənlərdən daim xəbərdar olmaq üçün məlumat tapa biləcəyiniz veb-saytlardan istifadə edirik", - o vurğulayıb.

A.Sayerin sözlərinə görə, Azərbaycan hökuməti media mərkəzinin təşkilini uğurla həyata keçirib və onu məhdud imkanlara malik olan insanlar üçün də əlçatan edib.

## *Qael QRUBİ:* "Ticarətin ətraf mühitə zərərini azaltmaq daha çox gömrük orqanlarının səlahiyyətindədir"

**"Ticarətin ətraf mühitə zərər vuran deyil, faydalı elementə çevrilməsi daha çox gömrük orqanlarının səlahiyyətindədir".**



Bunu Ümumdünya Gömrük Təşkilatının (ÜGT)Tarif və ticarət məsələləri üzrə müvəqqəti direktoru Qael Qrubi (Gael Grooby) deyib.

O bildirib ki, dünyada hökumətlərin yaşıl və davamlı ticarəti təşviq edən siyasətlərinin həyata keçirilməsində gömrük mühüm rol oynayır: "Bunun üçün gömrük proseslərdə tam şəkildə iştirak etməli və aktiv olmalıdır. "Yaşıl gömrük" çox geniş bir anlayışdır. Bu təşəbbüs çoxtərəfli ekoloji sazişlər çərçivəsində ilk növbədə gömrük orqanlarının roluna diqqət yetirməklə başlayıb. Lakin bu təşəbbüs genişləndi. Çünki ticarət ətraf mühitin deqradasiyası, çirklənməsi və iqlim dəyişikliyinin bir hissəsi olduğu üçün, bu problemlərin həllində də mühüm rol oynaya bilər".

ÜGT rəsmisi qeyd edib ki, təşkilat və onun üzvləri bu problemi təkbaşına həll edə bilməz: "İqlim dəyişikliyi ilə mübarizə fərdlərdən tutmuş qurumlara qədər hər kəsin vəzifəsidir. ÜGT və gömrük xidmətləri bu həllin bir hissəsidir. Biz ətraf mühit nazirlikləri, ticarət nazirlikləri, iqtisadiyyat nazirlikləri, ticarət tərəfdaşları, özəl sektor və ticarətdə maraqlı olan digər qurumlarla birlikdə işləməliyik. Birlikdə böyük irəliləyiş əldə edə bilərik. Gömrüklərin bu prosesə töhfəsi "yaşıl ticarət"i təşviq etmək, zərərli ticarəti məhdudlaşdırmaq və dairəvi iqtisadiyyat kimi yeni ticarət üsullarını asanlaşdırmaqdır. Biz karbonun azaldılmasına, iqlim dəyişikliyinə uyğunlaşmaya kömək edən malların ticarətini dəstəkləyə bilərik".

COP29 Baku Azerbaijan

# Azərbaycanın nümunəvi evsahibliyi





















## *Kvame Frimpong SEKYERE:* "Qlobal Şimal maliyyələşməni artırmağa razılaşarsa, biz bu problemin öhdəsindən gələ bilərik"

**"Biz Qanada idarəetmə təcrübələri üzərində işləyirik. Ölkəmizdə meşələri qorumağa çalışırıq. Eyni zamanda aparılan tədqiqatları paylaşmaq və ya lazımi orqanlara çatdırmaq üçün platforma yaradırıq".**



Bunu AZƏRTAC-a açıqlamasında Qananın AbibiNsroma Fondunun nümayəndəsi Kvame Frimpong Sekyere deyib.

İqlim dəyişikliyinin ən çox Cənuba təsir etdiyini vurğulayan COP29-un iştirakçısı buna görə də maliyyənin əsasən Cənuba ayrılmasının vacibliyini diqqətə çatdırıb. "Qlobal Şimal maliyyələşməni artırmağa razılaşarsa, biz bu problemin öhdəsindən gələ bilərik", - deyə o əlavə edib.

Frimpong Sekyere bildirib ki, Qanadakı fəaliyyətləri əsasən icma inkişafına həsr olunub.

## *Vanjiru MUİRURİ:* "Ürək dili ən güclü ünsiyyət vasitəsidir, mən bunu COP29-da hiss etdim"

**"COP29 konfransı gələcək nəsillərin hüquq və rifahına diqqət yetirən qərarların qəbul olunmasında zəruridir. Sağlamlıq və ətraf mühitlə bağlı, xüsusilə də uşaqlar və yerli icmaların hüquqlarını qorumağa yönəlmiş layihələr üzərində çalışıram. Biz qərarları qəbul edərkən yalnız indiki dövrü deyil, gələcəyi də nəzərə almalıyıq. Gələcək nəsillərin rifahı bu qərarların əsas hədəfi olmalıdır. Bu gün Dünya Uşaqlar Günüdür və uşaqların səslərinin eşidilməsini, onların gələcəklərini təmin etmək üçün tədbirlər görülməsini arzulayıram".**



Bu fikirləri COP29 çərçivəsində Keniyadan ölkəmizə gələn nümayəndə Vanjiru Muiruri söyləyib.

O, iqlim dəyişikliyindən ən çox təsirlənən ölkələrin təmsilçisi kimi, bərabər imkanların təmin edilməsinin vacibliyini qeyd edib: "Keniyada emissiya az olsa da, iqlim dəyişikliyinin təsirlərindən ciddi əziyyət çəkirik. İtki və zərər məsələlərində səhvlərin harada baş verdiyini müəyyən etmək və təsir altında olan icmalarla birgə işləmək çox mühümdür".

O, COP29 çərçivəsində Səhralaşma və Biomüxtəliflik konvensiyalarının iclaslarını izləyib və gələcəkdə daha geniş müzakirələrdə iştirak etmək arzusunu ifadə edib.

Muiruri təşkilatçılıq və Azərbaycan xalqı haqqında təəssüratlarını bölüşüb. O, COP29-un yüksək səviyyədə təşkil olunduğunu vurğulayaraq, burada məsafələrin rahatlıqla keçilə biləcəyini xüsusi qeyd edib: "Dubayda keçirilən tədbirdə "yaşıl zona" ilə "mavi zona" arasında məsafə çox böyük olduğundan həm yorucu, həm də çaşqınlıq yarada bilirdi. Amma Bakıda hər şey çox rahat və əlçatandır.

Azərbaycan xalqının mehribanlığını yüksək qiymətləndirən nümayəndə dillə anlaşma çətinliklərinin səmimi münasibətlə aradan qaldırıldığını vurğulayıb: "Ürək dili ən güclü ünsiyyət vasitəsidir, bunu burada hiss etdim".

Muiruri tədbirdə fərqli pavilyonlarda az iştirak etdiyini qeyd etsə də, Uşaq və Gənclər zonasının təşkilini çox bəyəndiyini bildirib: "Bu sahədə mühüm işlər görülür. Çad, Çili, hətta Avstraliya kimi ölkələrin pavilyonları da diqqətəlayiqdir və faydalı müzakirələrə imkan yaradır".

Keniyalı nümayəndə COP29-un iqlim məsələlərinin ədalətli həllində əhəmiyyətli bir platforma olduğunu vurğulayıb və gələcəkdə qlobal əməkdaşlığın gücləndirilməsinə ümid etdiyini bildirib.

## *Lukas MARX:* "COP29-un razılaşmaların əldə ediləcəyi bir konfrans olacağını düşünürəm"

**"Bizim burada olmağımızın əsas səbəbi iqlim dəyişikliyidir. COP29-da iqlim dəyişikliyinin təsirinə məruz qalan ətraf mühitin xilası üçün yollar axtarılır".**



Bu sözləri ABŞ-nin Vuds HoI Okeanoqrafiya İnstitutunun tədqiqatçısı Lukas Marx deyib.

Tədqiqatçı COP29-da aparılan müzakirələr haqqında da danışıb: "İqlim dəyişikliyi ətraf mühitlə yanaşı, icmalara, əsasən də dəniz səviyyəsinə olduqca mənfi təsir göstərir. Qlobal istiləşmə biomüxtəlifliyin dəyişməsinə səbəb olur. Ümid edirəm ki, danışıqlardan çox konkret addımlar olacaq. COP29-un razılaşmaların əldə ediləcəyi bir konfrans olacağını düşünürəm".

Amerikalı iştirakçı Bakıya ilk səfəri olduğunu bildirərək qeyd edib ki, COP29-da təşkilatçılıq yüksək səviyyədədir.

## *İrebe UMUSANGVA:* "Ümid edirəm ki, inkişaf etmiş ölkələr maliyyə baxımından bizə yardım edəcəklər"

**"COP29-da iqlim maliyyəsi məsələsi müzakirə olunur. Mən Ruandada iqlim maliyyəsi sahəsində çalışıram və bildirmək istəyirəm ki, Ruanda iqlim dəyişikliyinə həssas ölkədir".**



Bu fikirləri COP29-un ruandalı iştirakçısı İrebe Umusangva deyib. "Ruanda iqlim dəyişikliyinin təsirlərini hiss edən ölkələrdəndir. Ümid edirəm ki, inkişaf etmiş ölkələr maliyyə baxımından bizə yardım edəcəklər. Bu, ölkəmiz üçün çox vacibdir. Bizim iqlim dəyişikliyi ilə mübarizə aparmağımız üçün kifayət qədər maliyyə vəsaitimiz yoxdur. Ölkəmizdə iqlim dəyişikliyi səbəbindən az yağış yağır. Yağış yağanda isə o qədər güclü olur ki, daşqınlar və torpaq sürüşmələri baş verir. Torpaq sürüşmələri nəticəsində keçən il 126 insan həyatını itirib. Kənd təsərrüfatı məhv olub, insanların evləri dağılıb", -deyə o qeyd edib.

O, COP29-un iştirak etdiyi ikinci COP tədbiri olduğunu bildirib: "Azərbaycan çox xoşuma gəldi. Buranın insanları mehriban, şəhəriniz isə gözəldir".

## *Adjoa Açiaa KESSE-SAM:* "COP29-da iştirakdan olduqca məmnunam"

**"Mən Azərbaycanda keçirilən COP29-da iştirakımdan olduqca məmnunam. İqlim maliyyəsi haqqında danışarkən verilən vədlərin əməl olunmasını gözləyirəm. Xüsusilə kənd yerlərində, yerli icmalarda və həssas icmalarda qadınları maliyyələşdirmək üçün maliyyə olmalıdır".**



Bunu Qanadan olan ictimai fəal xanım Adjoa Açiaa Kesse-Sam bildirib. Qanalı iştirakçı qeyd edib ki, ölkəsində insanlar yanacaq kimi odundan istifadə edirlər.

"Çünki yanacaqdan istifadə zamanı bir çoxunun səhhətində problem yaranıb. Bu iqlim dəyişikliyinin təsiridir. COP29-da iqlim maliyyəsi barəsində müzakirə aparılarkən danışıqlar aparan şəxslər, maraqlı tərəflərin razılığa gəlməsini gözləyirəm. Mən eyni zamanda həbsxanalarımızdakı məhbusların müdafiəsi ilə məşğulam. Məhbuslar iqlim dəyişikliyinin yaratdığı yoxsulluqdan əziyyət çəkirlər və buna görə də yaxşı qidalana bilmirlər", - deyə qanalı ictimai fəal vurğulayıb.

## *Şan YANQ:* "COP29-da iştirakımın əsas məqsədi təcrübə toplamaq və öyrənməkdir"

**"COP29 konfransında iştirakımın əsas məqsədi burada müzakirə olunan mövzularla yaxından tanış olmaq, təcrübə toplamaq və öyrənməkdir. Şirkətimizin nümayəndə heyəti ilə birlikdə tədbirə qatılmışıq. Konfransın təşkilati məsələləri yüksək səviyyədədir və bunun təqdirəlayiq olduğunu düşünürəm. Tədbirin əsas müzakirə mövzusu enerji ilə bağlıdır və bu sahədə qəbul olunacaq mühüm qərarlar mənim üçün böyük maraq kəsb edir".**



Bu fikirləri COP29-da iştirak üçün Çindən ölkəmizə gələn nümayəndə Şan Yanq bildirib. İlk dəfə belə bir beynəlxalq konfransda iştirak etdiyini vurğulayan Şan Yanq öz təəssüratlarını bu sözlərlə ifadə edib: "Bu, mənim Asiyaya ilk səfərimdir. Azərbaycan çox gözəl və təsirli bir ölkədir. Ölkənin zəngin mədəniyyətini və gözəlliklərini yaxından tanımaq istəyirəm".

Şan Yanq eyni zamanda qlobal iqlim dəyişikliklərinə dair fikirlərini də bölüşərək əlavə edib: "Hesab edirəm ki, hazırda ən prioritet məsələlərdən biri elektrik avtomobillərinin geniş şəkildə tətbiq olunmasıdır. Qazla işləyən avtomobillərin daha ekoloji təmiz nəqliyyat vasitələri ilə əvəz edilməsi həm iqtisadi inkişaf üçün, həm də ətraf mühitin qorunması baxımından mühüm əhəmiyyət daşıyır".









COP29 Baku Azerbaijan

# Azərbaycanın nümunəvi evsahibliyi









## *Dahi Muşabeh DAHİ:* "COP29-da şüşədən günəş panelləri kimi istifadə etməyi öyrəndik"

**"COP29-da gördüyümüz ən vacib layihələrdən biri şüşədən günəş panelləri kimi istifadə etməkdir".**



Bunu AZƏRTAC-a açıqlamasında Birləşmiş Ərəb Əmirliklərindən gələn nümayəndə Dahi Musabeh Dahi deyib.

Səhiyyə xidmətləri, davamlılıq, ətraf mühitin qorunmasından söhbət açan xarici nümayəndə söyləyib: "Bu istiqamətdə ən vacib məsələlərin həlli yolunu görmək üçün Azərbaycanda keçirilən COP29-da iştirak edirəm. Biz binalarımızı günəş sistemi və ətraf mühitə təsir etmədən enerjiyə sahib olmağın yeni yolu üçün şüşə günəş panelindən istifadə etməyi öyrəndik".

## *KAMRUZZAMAN:* "COP29-da könüllülər xüsusilə seçilir"

**"İlk dəfədir Bakını ziyarət edirəm. COP29 yüksək səviyyədə təşkil olunub".**



Bunu Banqladeşdən ölkəmizə gələn nümayəndə Kamruzzaman deyib. Onun sözlərinə görə, COP29-da könüllülər xüsusi bacarıqları ilə seçilir.

"Bizim ölkəmizdə də ekoloji problemlər var. Bunun qarşısını almaq üçün bir sıra tədbirlər görməyə çalışırıq. Mübarizəni davam etdirmək üçün ağıllı gənclərə ehtiyacımız var. Məqsədimiz gənclərin bacarıqlarını inkişaf etdirmək, məşğulluq fəaliyyətini artırmaqdır", - deyə Kamruzzaman əlavə edib.

## *Stefan AHLENBRUK:* "Dünya heç vaxt ötənilki kimi quraqlıq keçirməyib"

**"Qlobal miqyasda su axınına baxılsa, dünya heç vaxt ötənilki kimi quraqlıq keçirməyib".**



"Report" xəbər verir ki, bunu Birləşmiş Millətlər Təşkilatının Hava, İqlim və Su üzrə İxtisaslaşdırılmış Agentliyi - Ümumdünya Meteorologiya Təşkilatının (WMO) Hidrologiya, Su və Kriosfer proqramının rəhbəri Stefan Ahlenbruk COP29 çərçivəsində təşkil olunmuş "İqlim üçün su: Su məsələlərinin NDCs və NAPs-a inteqrasiyası" adlı tədbirdə bildirib.

"Yer kürəsinin təxminən yarısında su axını orta həddən aşağı və yaxud çox aşağı olub. Bu maraqlı məqamdır, çünki son 15 ayda demək olar ki, hər ay temperatur rekordu qırmışıq. Beləliklə, planetdə əvvəllər heç vaxt bu qədər isti olmayıb. Atmosferdəki bu istilik çayları qurudur. Həmçinin okeanlarda da rekord tempuraturlara şahid olduq. Okeanlarda və atmosferdə yüksək temperatur daha çox ekstremal yağışa səbəb olub. Beləliklə, biz çox şiddətli daşqınlarla xarakterizə olunan bir il yaşadıq", - deyə o qeyd edib. Qonağın sözlərinə görə, yeraltı suların da həcmi normadan aşağı olub: "İqlim dəyişikliyi nəticəsində bütün dünyada buzlaqlar sürətlə azalır. Məsələn, son 2 il İsveçrə buzlaqlarının təxminən 10 faizi əriyib. Bu da qlobal miqyasda gözlədiyimizdən daha sürətli əridir".

## *Devid TONQ:* "Dayanıqlı enerji sistemlərinə keçidin sürətləndirilməsi zəruridir"

**"Qalıq yanacaqlardan bərpaolunan enerji mənbələrinə keçid prosesi sürətləndirilməlidir". Bunu "Oil Change International" QHT-nin nümayəndəsi Devid Tonq mətbuat konfransında bildirib.**



Onun sözlərinə görə, qalıq yanacaqlardan imtina artıq Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG) üzrə sənədin mətnində təsbit olunub, lakin proses sürətləndirilməlidir: "İqlim təsirinin azaldılması planında iddialı hədəflər yoxdur. Digər əsas danışıqlar sənədlərində tamamilə fərqli mövqelərin əks olunduğunu görürük və bu, bizi narahat edir".

D.Tonq xatırladıb ki, ötən il Dubaydakı konfransda qəbul edilmiş qlobal qərar bərpaolunan enerji mənbələrindən istifadənin üç dəfə, enerji səmərəliliyinin iki dəfə artırılmasını və enerji sistemlərində qalıq yanacaqlardan imtinanı nəzərdə tutur: "Bu proses ötən il başa çatıb" deyən ekspert qeyd edib ki, tərəflərin mövqelərindəki çağırışlar və fərqlərə baxmayaraq, dayanıqlı enerji sistemlərinə keçidin sürətləndirilməsi zəruridir.

## *Cemima NDZUKİ:* "İqlim dəyişikliyi qadınların həyatına ciddi təsir göstərir"

**"Qadınlar iqlim fəaliyyətinin ön sıralarındadır və şəffaflıq hesabatlarında təmsil olunmalıdırlar".**



Bunu "UN Women"in İqtisadi hüquqların genişləndirilməsi şöbəsinin rəhbəri Cemima Ndzuki "Gender Bərabərliyi Günü. Şəffaflıqda Gender Tərəflər Konfransının 29-cu sessiyası"nda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, iqlim dəyişikliyi qadınların həyatına ciddi təsir göstərir, lakin bu təsir çox vaxt cəmiyyət tərəfindən tanınmır: "Proqnozlarımıza görə, ən pis iqlim ssenarisində 2050-ci ilə qədər iqlim dəyişikliyi 158 milyondan çox qadını yoxsulluğa sürükləyəcək və 236 milyon qadın üçün ərzaq təhlükəsizliyi problemini daha da ağırlaşdıracaq".

C.Ndzuki dünya birliyini gender bərabərsizliyi problemlərinə daha çox cəlb olunmağa və qadınların əsas vəzifələrdə təmsilçiliyinə diqqət yetirməyə çağırıb: "Bundan hər kəs faydalanacaq və qadınlar üçün də davamlı gələcəyi təmin edə biləcəyik".

## *Gianpiero NACCİ:* "Hərraclar "yaşıl enerji" keçidində region üçün dönüş nöqtəsidir"

**"Bərpaolunan enerji sahəsində hərracların təşkili region, dünya üçün prioritet məsələdir".**



Bunu Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) Yaşıl İqtisadiyyat və İqlim Fəaliyyəti komandasının direktoru Gianpiero Nacci COP29 çərçivəsində Azərbaycanda 100 MVt gücündə "Qobustan" Günəş-Elektrik Stansiyasının tikintisi üzrə ilk bərpaolunan enerji hərracının qalibinin elanı ilə bağlı keçirilən tədbirdə bildirib.

"Bu hərracın uğurla keçirilməsi həm Azərbaycan, həm də region üçün "yaşıl enerji" keçidində dönüş nöqtəsidir. Bu, ölkədə və regionda imkanlar haqqında güclü siqnaldır, bərpaolunan enerjiyə yeni özəl investisiyalara həqiqətən inanmaq və iqlim hədəflərinə doğru irəliləmək deməkdir", - deyə o vurğulayıb.

G.Naccinin sözlərinə görə, bu hərrac Azərbaycan hökumətinin bərpaolunan enerjiyə sərmayə qoyuluşu üçün necə şərait yarada biləcəyinin, daha dayanıqlı və diversifikasiya olunmuş enerji sektoruna keçidi təmin edə biləcəyinin çox yaxşı nümunəsidir: "Ümumiyyətlə, bərpaolunan enerji sahəsində hərraclar region, dünya üçün prioritetdir və EBRD olaraq biz bunu həyata keçirmək üçün böyük resurslar ayırırıq. İnanırıq ki, hərraclar təkcə bərpaolunan enerji investisiyalarını artırmaq üçün deyil, həm də özəl sektoru cəlb etmək, investisiya tempini sürətləndirmək üçün çox effektiv bir yoldur".

## *Giovanni DONATO:* "Hazırkı geosiyasi sabitsizlik şəraitində Orta dəhliz əsas açar rolunu oynayır"

**"Xüsusilə hazırkı geosiyasi sabitsizlik şəraitində Orta dəhliz əsas açar rolunu oynayır".**



AZƏRTAC xəbər verir ki, bu barədə İtaliya İnfrastruktur və Nəqliyyat Nazirliyinin diplomatik müşaviri Giovanni Donato COP29-da "Dayanıqlı rəqəmsal Orta dəhliz və onun hüdudlarından kənar" mövzusunda nazirlərin iştirakı ilə keçirilən "dəyirmi masa"da çıxışı zamanı deyib.

"İnfrastrukturun dayanıqlığının, etibarlığının gücləndirilməsi, rəqəmsal əlaqənin, məlumat mübadiləsinin təşviqi, inkişaf naminə regional əməkdaşlığın, tərəfdaşlığın dəstəklənməsi Avropa və Asiya arasında əlaqələrin möhkəmləndirilməsində əhəmiyyətli irəliləyişlərin əldə edilməsi əsas şərtlərdəndir", - deyə İtaliya rəsmisi əlavə edib.

Onum sözlərinə görə, əsas məqsəd İtaliyanı Mərkəzi Asiya və Hind-Sakit Okean regionundan gələn məhsullar üçün Orta dəhliz vasitəsilə əsas limana və Avropaya giriş qapısına çevirməkdir.



















COP29 Baku Azerbaijan








# COP29-da həmrəyləşən dünya




COP29
Baku
Azerbaijan

# COP29 çərçivəsində "Şəffaflıqda gender" mövzusunda yüksəksəviyyəli tədbir keçirilib

AZƏRTAC xəbər verir ki, tədbir COP29 sədrliyi və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) tərəfindən təşkil edilib.







Tədbirdə çıxış edən Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev bildirib ki, gender bərabərliyi təkcə fundamental insan hüququ deyil, həm də səmərəli və ədalətli iqlim fəaliyyətinin əsasını təşkil edir. İqlim dəyişikliyinin təsirləri mövcud bərabərsizlikləri, xüsusən də gender əsaslı bərabərsizlikləri daha da dərinləşdirir. Qadınlar və qızlar xüsusilə həssas qruplardır və iqlim dəyişikliklərinə qarşı mübarizədə əsas rol oynayırlar.

Nazir bildirib ki, bir-biri ilə əlaqəli iqlim və biomüxtəliflik böhranları milyonlarla insanı yoxsulluğa sürükləyə və ərzaq təhlükəsizliyinə səbəb ola bilər. Qadınlar və qızlar bu problemlərin həll yollarının ön cəbhəsindədirlər, iqlim çağırışlarının həllində davamlılıq, innovasiya və liderlik nümayiş etdirirlər. Bu, qadınların rolunu təkcə iqlim fəalları kimi deyil, həm də cəmiyyətimizin ürəyi, analarımız, bacılarımız və qızlarımız kimi tanımağı və qiymətləndirməyi həyati əhəmiyyətli edir. Onların səsləri və töhfələri icmalarımızın təməlini formalaşdırır və davamlı gələcək üçün baxışımızın mərkəzində olmalıdır.

Nazir Lima Gender üzrə İş Proqramının və onun Gender Fəaliyyət Planının yaradılmasından bəri əhəmiyyətli irəliləyiş əldə edildiyini vurğulayaraq deyib: "Bu gün milli səviyyədə müəyyən edilmiş töhfələrin (NDC) 80 faizindən çoxunda genderə dair istinadlar var ki, bu da ilk NDC-lərlə müqayisədə nəzərəçarpacaq dərəcədə inkişafın olduğunu göstərir. Bununla belə, hədəflərimizə tam çatmaq üçün daha çox iş görməliyik. Aşağıkarbonlu iqtisadiyyata keçid yalnız texniki dəyişikliklərlə deyil, həm də inklüziv imkanlar və hədəflənmiş maliyyələşdirmə vasitəsilə gender bərabərliyinin təşviqi ilə müşayiət olunmalıdır".

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibinin müavini Nura Hamladcının sözlərinə görə, Yer kürəsində yaşayan hər bir insan iqlim fəaliyyətinə töhfə verməli və bu sahədə birlikdə çalışmalıdır. O vurğulayıb ki, gender bərabərliyinə həssas yanaşmaların tətbiqi bizi iqlim məsələlərində düzgün istiqamətə yönəldir. İqlim fəaliyyətinin mərkəzində duran iş proqramının qəbulundan sonra konkret tədbirlər yerində həyata keçirilib və qadınlar siyasətlərin formalaşmasında xüsusi rol oynayıblar.

Nura Hamladcı əlavə edib ki, bütün ölkələr bu ilin sonuna qədər ikiillik şəffaflıq hesabatlarını hazırlamalıdırlar. Bu hesabatlarda gender aspektlərinin əks olunması vacibdir. Yalnız bu yanaşma vasitəsilə qadınları nəzərə alan inklüziv iqlim fəaliyyəti təmin edilə bilər.

Tədbirdə çıxış edən BMT-nin Qadınlar Agentliyinin qadınların səlahiyyətləndirilməsi üzrə sədri, BMT-nin Qadınlar Agentliyinin icraçı direktoru Sima Sami Bahaus qadınların iqlim dəyişmələrindən ən çox zərər çəkən qruplardan olduğunu bildirib. Qeyd edib ki, biz qadınların və gənc qızların hüquqlarını qorumalıyıq. Bizim qeyri-adi imkanlarımız var. İqlim maliyyəsi ilə bağlı hansı tədbirlərin keçiriləcəyini yaxşı öyrənməliyik. Bu maliyyə gənc qızları və qadınları əhatə etməlidir.

Afrika qitəsində içməli su problemi yaşadığını diqqətə çatdıran Semima Njuki burada əsas yükün qadınların üzərinə düşdüyünü qeyd edib: "Onlar içməli su gətirmək üçün uzaq məsafələri qət edirlər. 2050-ci ilədək 150 milyona yaxın qadın yoxsulluğa düçar olacaq. Qadınlar milli uyğunlaşma planında prioritet olmalıdırlar. Biz bu sahədə vəsaitlərin toplanılmasını tezləşdirməliyik. Çalışmalıyıq ki, qadınların səsi iqlimə aid olan problemlərdə ucalsın".

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova diqqətə çatdırıb ki, bu gün iqlim dəyişiklikləri və dünyamıza təsir edən təbii fəlakətlər, habelə digər qlobal ekoloji problemlər bəşəriyyətin gələcəyi üçün ciddi təhlükələr yaradır. Ölkələr və beynəlxalq ictimaiyyətin bütün səviyyələrdə səylərini birləşdirməsi bu vəziyyətdən minimal itkilərlə çıxmağın əsas şərtidir.

Dövlət komitəsinin sədri vurğulayıb ki, Azərbaycan ətraf mühitin qorunmasına yönəlmiş zəruri qanunvericilik bazası hazırlayıb və öhdəliklərini yerinə yetirmək üçün müxtəlif proqramlar vasitəsilə şərait yaradıb: "Biz institusional mexanizmlər və əlverişli investisiya mühiti yaratmışıq. COP fəaliyyətlərinin əsas prinsipləri inklüzivlik və gender bərabərliyini vurğulayır. Azərbaycan inanır ki, əhalinin müxtəlif qruplarının - uşaqların, gənclərin, qadınların və həssas icmaların potensialını səfərbər etmək iqlim dəyişikliyinin yaratdığı problemlərin həllinə mühüm töhfə verəcək. Otuzillik müharibə təcrübəsi ilə üzləşmiş Azərbaycan iqlim dəyişikliklərini və ekoloji çağırışları daha da kəskinləşdirən ərazi, iqtisadi və insan itkilərinə baxmayaraq, bu böhranın səmərəli həlli üçün beynəlxalq təhlükəsizlik, sülh və sabitliyin birgə səylərdə olduğunu dərk edir".

Bahar Muradova qeyd edib ki, Cənubi Qafqazda sülh gündəmini təşviq etməklə Azərbaycan "yaşıl iqtisadiyyat" və bərpaolunan enerji sahələrində genişmiqyaslı yenidənqurma və bərpa işləri ilə inkişafa töhfə verir. "Biz iqlim və gender ədaləti imkanlarının artırılmasında göstərdiyimiz birgə səylərlə fəxr edirik. Bu, iqlim siyasətimizin əsas prioritetlərindən biridir. BTR (İkiillik Şəffaflıq Hesabatı) və NDC (Milli Müəyyən Edilmiş Töhfələr) mexanizmləri vasitəsilə bu istiqamətdə irəliləyişlər əldə edərək unikal imkanlardan faydalana bilərik. Azaltma tədbirlərində gender inteqrasiyasını gücləndirmək, şəffaflıq, hesabatlılıq və bərabər iştirakı təmin etmək təkcə bərabərlik vasitəsi deyil, həm də qadın və qızların hüquqları üçün güclü vasitədir", - deyə dövlət komitəsinin sədri vurğulayıb.

Yüksəksəviyyəli tədbirdə iştirakçılar iqlim siyasətində gender aspektlərinin inteqrasiyası, gender bərabərliyinin təşviqi və bu sahədə qarşıya çıxan çağırışları müzakirə ediblər. Tədbirdə iqlim dəyişikliyinə qarşı mübarizədə gender əsaslı yanaşmaların tətbiqinin vacibliyi bir daha vurğulanıb.

# "Şərq qapısı" qəzeti 103 yaşını qeyd edib





**Noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatının güzgüsünə çevrilən "Şərq qapısı" qəzeti rəsmi statusla 103 yaşını qeyd edib. Bu münasibətlə qəzetin kollektivi Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərində yerləşən abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüb, dahi şəxsiyyətin əziz xatirəsinə ehtiramını bildirib.**

Sonra Heydər Əliyev Muzeyində "Şərq qapısı" qəzetinin müxtəlif tarixi dövrlərə aid nömrələri ilə tanışlıq olub. Qeyd edilib ki, dahi şəxsiyyətin 1990-1993-cü illərdə Naxçıvanda Ali Məclisin Sədri kimi verdiyi tarixi fərman və sərəncamlar, qərarlar ilk dəfə məhz bu mətbuat orqanında işıq üzü görüb.

Ümummilli Lider Heydər Əliyev qəzetin fəaliyyətini yüksək qiymətləndirib, Moskvadan Naxçıvana qayıtdıqdan sonra "Şərq qapısı"na verdiyi müsahibədə "Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb" fikrini səsləndirib.

Qəzet bütün dövrlərdə muxtar respublikada ictimai-siyasi həyatın, elm, təhsil, maarifçilik, ədəbiyyat sahələrində gedən inkişaf proseslərinin güzgüsünə çevrilib və bu gün də bu yöndə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Vurğulanıb ki, "Şərq qapısı" qəzeti bu gün tarixində ilk dəfə olaraq yaranmasının ildönümünü rəsmi statusla qeyd edir. Belə ki, cari il may ayının 1-də Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Şərq qapısı" qəzetinin təsisçisi statusunun qanunvericilikdə təsbit edilməsi və qəzetin fəaliyyətinin təmin olunmasının hüquqi əsasının yaradılması ilə əlaqədar hazırlanan "Media haqqında" qanuna dəyişikliyi təsdiqləyib.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq cari il avqustun 15-də isə mətbuat orqanının əməkdaşlarının əməkhaqları artırılıb. Yaxın gələcəkdə qəzetin maddi-texniki təminatının yaxşılaşdırılması üçün də işlər həyata keçiriləcək. Kollektiv bundan sonra da yaradılan şəraitdən istifadə edərək ölkəmizin, muxtar respublikanın ictimai-siyasi həyatında baş verən ən son yenilikləri geniş oxucu kütləsinə çatdırmaq üçün səylə çalışacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# "İİV və İqlim Dəyişikliyi üzrə Çərçivə Sənədi" təqdim olunub

Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflərin Konfransının 29-cu sessiyasında BMT-nin HİV/QİÇS üzrə Proqramının (UNAIDS) "İİV və İqlim Dəyişikliyi üzrə Çərçivə Sənədi"nin təqdimatı keçirilib.




AZƏRTAC xəbər verir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və UNAIDS tərəfindən təşkil olunan tədbirdə BMT Baş katibinin köməkçisi, BMT İnkişaf Proqramının (UNDP) Siyasət və Proqrama Dəstək Bürosunun direktoru Markos Neto, Azərbaycanın səhiyyə naziri Teymur Musayev, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva, QİÇS və Pandemiya üzrə UNAİDS-in xüsusi müşaviri Mbulava Muqabe, Braziliya Səhiyyə Nazirliyinin Səhiyyə Nəzarəti Katibi Etel Masiel və digər rəsmilər çıxış ediblər.

Azərbaycanın səhiyyə naziri qeyd edib ki, İnsanın İmmunçatışmazlığı Virusu (İİV) qlobal səhiyyənin əsas problemlərindən biri olaraq qalır: "Hər il dünyada bir milyondan çox insan İİV-ə yoluxur, 600 mindən çox insan isə İİV-lə bağlı xəstəliklərdən vəfat edir".

Teymur Musayev Azərbaycanın İİV-ə qarşı mübarizədə mühüm addımlar atdığını və yüksək nailiyyətlər əldə etdiyini vurğulayıb. Nazirin sözlərinə görə, ölkəmizdə İİV-ə yoluxan şəxslər antiretrovirus preparatları ilə dövlət tərəfindən təmin olunurlar: "Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı və Qlobal Fond kimi beynəlxalq təşkilatlarla möhkəm tərəfdaşlıq qurub. 2023-cü ilin sonunadək Azərbaycan İİV-lə yaşayan insanlar üçün "89-80-93" səviyyəsində müayinə və müalicə xidmətlərinin göstərilməsi üzrə Qlobal Məqsədlərə nail olmaqda nəzərəçarpacaq irəliləyiş əldə edib. Bu da bölgə üzrə ən yaxşı göstəricilərdən biridir".

İqlim dəyişikliyinin COP29-da əsas müzakirə mövzusu olduğunu və konfrans zamanı çıxışçılar tərəfindən iqlim dəyişikliyinin təsirlərinin qeyri-mütənasib şəkildə paylandığının dəfələrlə vurğulandığını xatırladan nazir qeyd edib ki, ən çox təsirlənən ölkələr qlobal problemin həllinə çox vaxt minimal töhfə verirlər: "Hava ilə bağlı fəlakətlər, dəniz səviyyəsinin qalxması, yağıntıların və orta temperaturun dəyişməsi əhalinin miqrasiyası, xəstəliklərin yayılması, təmiz su qıtlığı, ərzaq təhlükəsizliyi və səhiyyə infrastrukturunun zədələnməsinə gətirib çıxarır".

Diqqətə çatdırılıb ki, sübuta əsaslanan araşdırmalar belə vəziyyətdə insanların psixi sağlamlıq problemlərinin gərginləşməsini, zorakılığın və uşaq nikahlarının artdığını, eyni zamanda narkomaniyanı təşviq etdiyini təsdiqləyir: "Tibbi xidmətlərin göstərilməsində fasilələr İİV-in müalicəsi, profilaktikası və psixi sağlamlıq xidmətlərinə çıxışı daha da məhdudlaşdırır. Bu da nəticədə xüsusilə həssas qruplar arasında xəstələnmə və ölüm hallarının artmasına gətirib çıxarır. Kompleks təsirlər HİV nisbətlərini artırır və epidemiyaya qarşı onilliklər ərzində əldə edilən irəliləyişə təsir edir".

"Bakıda keçirilən COP29-da beynəlxalq ictimaiyyət iqlim dəyişikliyinin qlobal təsirlərini həll etmək üçün bir araya gəlib. Mövcud problemlər arasında sağlamlığa təsir ən əhəmiyyətlidir. İqlim dəyişikliyinin sağlamlığa təsirlərinin azaldılması kifayət qədər uzun və mürəkkəb prosesdir. Ancaq biz nə qədər tez zəruri addımlar atsaq, bir o qədər tez uğur qazanacağıq. İqlim dəyişikliklərinə davamlı səhiyyə sistemlərinin qurulması və səhiyyə işçi qüvvəsinin təlimi HİV epidemiyasına son qoyulması da daxil olmaqla, Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün çox vacibdir. Yalnız beynəlxalq həmrəylik, resursların ədalətli bölüşdürülməsi, eləcə də bilik və qabaqcıl təcrübə mübadiləsi yolu ilə biz iqlim dəyişikliklərinə davamlı cəmiyyət yarada bilərik ki, orada sağlamlıq problemləri həll edilir və əhalinin sağlamlığının qorunması təmin olunur", - deyə səhiyyə naziri fikrini tamamlayıb.

Tədbir panel müzakirələrlə davam edib.

# Qətər rəsmisi: "Azərbaycanla əlaqələr yüksək səviyyədədir"



Noyabrın 21-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova COP29 Konfransı çərçivəsində Qətər Dövlətinin Sosial İnkişaf və Ailə Nazirliyinin nümayəndə heyəti ilə görüşüb.

Komitədən AZƏRTAC-a bildiriblər ki, Bahar Muradova Qətər dövləti ilə ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edib. Deyib ki, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrlə qurulan əlaqələr getdikcə daha da intensivləşir.

Dövlət komitəsinin fəaliyyət istiqamətlərinə aid məsələlərdən bəhs edən B.Muradova bildirib ki, bütövlükdə ailə, qadın və uşaq məsələləri ilə bağlı siyasətin müəyyənləşdirilməsi və reallaşdırılması, həmçinin həssas qrupa daxil olan təbəqə, onların hüquqlarının müdafiəsi üzrə görülən işlər gündəliyimizin əsas bəndlərini təşkil edir. İslam ölkələrində ailə institutunun qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi sahəsində nailiyyətləri diqqətə çatdıran komitə sədri Qətər dövləti ilə ortaq mədəni tarixi köklərə əsaslanaraq iki qurum arasında müvafiq sahələr üzrə əməkdaşlığın yarandığını qeyd edib.

Qətər rəsmisi Şeyxa bint Casim əl Tani COP29 çərçivəsində Azərbaycanda olmaqdan məmnunluğunu bildirib və iki ölkə arasında yüksək səviyyədə əlaqələrin mövcudluğunu vurğulayıb. Qətər dövlətində insan hüquqlarının qorunmasının əsas prioritet istiqamət olduğunu deyən qonaq bu istiqamətdə mərkəzlərin fəaliyyət göstərdiyini və mütəmadi şəkildə monitorinqlərin həyata keçirildiyini əlavə edib.

Müvafiq sahələrdə ölkəmizin təcrübəsindən yararlanmaq istədiklərini vurğulayan Qətər rəsmisi iki qurum arasında qarşılıqlı anlaşma memorandumunun imzalanmasında maraqlı olduqlarını əlavə edib və bu barədə razılığa gəlinib.

Görüş zamanı qurumlararası əlaqələrin inkişafına dair digər məsələlər də müzakirə olunub.

# COP29 çərçivəsində "Dünyanın iqlim problemlərinin həllinə sadiq qızlar nəslini necə yetişdirmək olar?" adlı müzakirə aparılıb

COP29 çərçivəsində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təşkilatçılığı ilə (İRİA) "İqlim dəyişikliyində qadın liderlər: Dünyanın iqlim problemlərinin həllinə sadiq qızlar nəslini necə yetişdirmək olar" adlı panel müzakirə keçirilib.

AZƏRTAC xəbər verir ki, IDDA-da İnvestisiya və Eosistem Dəstəyi Departamentində layihə meneceri Nikita Yudin, "Women in Tech" təşkilatının Azərbaycandakı nümayəndəliyinin səfiri Leyla Seyidzadə və "Femmes Digitales"də həmtəsisçi və İdarə Heyətinin üzvü Şəhla Məmmədova sözügedən müzakirədə iştirak ediblər.

Panel müzakirəsində iqlim dəyişikliyinə qarşı mübarizədə qadınların liderliyi, texnologiya və innovasiyanın bu mübarizədə rolu, habelə gələcək nəsillərin bu sahədə maarifləndirilməsi məsələləri müzakirə edilib. Tədbir iştirakçıları qadınların iqlim problemlərinin həllinə verdiyi töhfələrin əhəmiyyətini vurğulayıb, qızların texnologiya, mühəndislik və iqlim sahələrində təhsil və peşəkar inkişaf imkanlarının artırılmasının vacibliyini qeyd ediblər.

# Qarabağ Zəfəri İstanbulda möhtəşəm konsert proqramı ilə qeyd edilib

Qarabağ Zəfərinin dördüncü ildönümü münasibətilə İstanbulun Sureya Operasında "Dədə Qorqud" kamera orkestrinin möhtəşəm konserti keçirilib.



AZƏRTAC xəbər verir ki, konsert proqramı azərbaycanəsilli vəkil Nərgiz Attarın rəhbərliyi ilə Mədəniyyətlərarası Əlaqə Dərnəyinin himayəsində, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi, eləcə də Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin mənəvi dəstəyi ilə təşkil olunub. Konsertdə tanınmış dirijor, Xalq artisti, Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Yalçın Adıgözəlovun dirijorluğu ilə dünyaşöhrətli fleyta ustası, Türkiyənin dövlət solisti və Türkiyə Prezidenti Administrasiyasının Mədəniyyət və Sənət Mükafatına ilk layiq görülən sənətçi, UNICEF tərəfindən "Türkiyə yaxşı niyyət elçisi" elan edilən Şəfiqə Kutluerin ifası dinlənilib.

Azərbaycan və Türkiyə bəstəkarlarının əsərlərinin yer aldığı konsert proqramında olduqca zəngin repertuar tamaşaçılara təqdim edilib. Anşlaqla keçən konsert proqramı tamaşaçıların alqışları ilə qarşılanıb. COP29-un davam etdiyi və dünyanın diqqətinin Azərbaycanda olduğu bu günlərdə, Qarabağ Zəfərinin əhəmiyyətini mədəniyyətin dili ilə geniş kütlələrə çatdıran konsertin hər il mütəmadi olaraq müxtəlif ölkələrdə keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Yalçın Adıgözəlov və Şəfiqə Kutluerin iştirakı ilə "Dədə Qorqud" kamera orkestrinin növbəti konserti Ankarada Türkiyə Prezidenti Administrasiyasının Simfoniya Orkestr Salonunda keçiriləcək.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

*"AZƏRBAYCAN" qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Tarix Muzeyinin eksponatları COP29-a gələn qonaqların diqqət mərkəzində olub





Milli Azərbaycan Tarixi Muzeyinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP29) çərçivəsində Azərbaycan mədəniyyətinə dair nümayiş etdirilən eksponatlar qonaqların marağına səbəb olub.

Muzeydən AZƏRTAC-a bildirilib ki, təqdim olunan stenddə xalqın tarixi, ənənələri və mədəniyyətini əks etdirən nadir nümunələr yer alıb. Bu eksponatlar təkcə keçmişin izlərini deyil, həmçinin davamlılıq və mədəni irsin qorunmasının vacibliyini vurğulayan güclü mesajlarla zəngindir. Beynəlxalq tədbirin iştirakçıları eksponatları izləyərək maraqlı təhlillər aparıblar.

# Azərbaycan Güləş Federasiyasının rəsmisi beynəlxalq komitənin prezidenti seçilib

Azərbaycan Güləş Federasiyasının (AGF) vitse-prezidenti Namiq Əliyev Dünya Güləş Birliyi (UWW) tərəfindən qrappling, pankration və həvəskar MMA üzrə yeni yaradılan vahid komitənin prezidenti seçilib.



AGF-dən AZƏRTAC-a verilən məlumata görə, komitənin vitse-prezidenti isə Adrian Bakos təyin olunub.

Bu sahələrdə idmançı sayını nəzərə alan UWW bu idman növlərinin vahid komitə tərəfindən idarə edilməsini qərara alıb. Birlik bu idman növlərini vahid komitədə birləşdirməklə bu sahəyə daha çox və peşəkar səviyyədə diqqət ayrılmasını hədəfləyir. Bununla bağlı milli federasiyalara müvafiq qaydada müraciət edilərək qrappling, pankration və həvəskar MMA idman növlərinə dəstək verməyə çağırılıb.

UWW-nin seçim qaydalarına uyğun olaraq milli federasiyalar tərəfindən əlavə 3 üzvün də seçilməsindən sonra komitə tam formalaşdırılacaq. Yeni komitəyə idmançı, məşqçilər və əlavə komissiyalar dəstək verəcək.

Pankration - həvəskar MMA bölməsinə UWW təmsilçiləri Onur Şimşək, qrappling bölməsinə isə Antonina Bosser nəzarət edəcəklər.

Qrappling və MMA isə müasir idman növləridir. Güləş idman növlərindən biri olan qrapplinqin özəlliyi boğucu fəndlərdən ibarətdir. Qarışıq idman növü olan MMA-da isə həm döyüş, həm də güləş fəndlərindən istifadə edilir. UWW həvəskar MMA üzrə yarışları peşəkar MMA-dan fərqli olaraq, qəfəsdə deyil, güləş xalçası üzərində keçirir.

Qeyd edək ki, pankration əlbəyaxa döyüş idman növlərindən biri kimi Yunanıstanda yaradılıb və qədim dövrdə klassik Olimpiya Oyunlarının tərkibində yer alıb.

# "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş veloyürüş keçirilib





Noyabrın 21-də Azərbaycan Respublikası Gənclər Fondu, COP29 Əməliyyat şirkətinin tərəfdaşlığı və Velosiped Federasiyasının təşkilatçılığı ilə COP29 çərçivəsində "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş veloyürüş keçirilib.

Gənclər Fondunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, veloyürüşdə rəsmilərlə yanaşı, COP29 çərçivəsində ölkəmizdə səfərdə olan əcnəbi qonaqlar da iştirak ediblər.

Ağ şəhər bulvarında start götürən veloyürüş Bayraq meydanından dairə etməklə yenidən Ağ şəhər bulvarında başa çatıb.

# *Fransalı futbolçu:* "Qarabağ"ın avrokuboklardakı çıxışı göstərir ki, bu komanda istənilən rəqibi məğlub edə bilər

"Qarabağ"ın "Lion"a qalib gəlmək şansının olduğunu düşünürəm".

Bu sözləri AZƏRTAC-a açıqlamasında vaxtilə "Qəbələ" və "Neftçi" komandalarında çıxış etmiş fransalı futbolçu Baqali Dabo UEFA Avropa Liqasının əsas mərhələsində noyabrın 28-də Bakıda "Qarabağ" və Fransanın "Lion" klubu arasında keçiriləcək V tur oyunu barədə danışarkən deyib.

O, Ağdam təmsilçisinin yaxşı komanda olduğunu bildirib: "Avrokuboklardakı çıxışı göstərir ki, bu komanda istənilən rəqibi məğlub edə bilər. "Budyo-Qlimt"lə son görüşün gedişində yaxşı vəziyyətdə olmasalar da, qələbə qazanmağın yolunu tapdılar".

Dabonun fikrincə, "Lion"un maliyyə problemi ilə üzləşməsi "Qarabağ"la oyunda özünü göstərməyəcək: "Çünki orada peşəkar futbolçular çıxış edirlər. Düşüncələrini oyuna kökləyə bilirlər. "Lion" ötən il heç kimin gözləmədiyi halda avrokuboklara vəsiqə qazandı. Komanda bu mövsüm daha yaxşı təsir bağışlayır".

36 yaşlı hücumçu Azərbaycan çempionunun yaxşı oyunçulara sahib olduğunu söyləyib: "Olavio Juninyo, Patrik Andrade və Julio Romaonun çıxışını çox bəyənirəm. Abdullah Zubir isə heç dəyişməyib. Yenə həmin oyun tərzində qalıb. "Neftçi"nin heyətində ona qarşı oynamışam. Çox texnikalı futbolçudur".



Fransalı forvard sabiq komandası "Neftçi"nin Misli Premyer Liqasında bu mövsümkü performansından da söz açıb: "Komandanın bəzi oyunlarını izləyirəm. Uğursuzluğun səbəbinin nə olduğunu deyə bilmərəm. Sadəcə, futbolçular özünəinamı qaytarmalıdırlar. Bu halda addım-addım irəli gedə biləcəklər. "Ağ-qaralar"ın yaxşı baş məşqçisi, heyəti və gözəl azarkeşləri var. Nəticələri ürəkaçan olmasa da, fanatlar hələ də bu komandanı dəstəkləyirlər. Bu, sevindirici məqamdır".

Qeyd edək ki, Baqali Dabo 2016-2018-ci illərdə "Qəbələ"nin, 2018-2020-ci illərdə isə "Neftçi"nin formasını geyinib. O, hazırda Kiprin "Ayya Napa" klubunda çıxış edir.

# Dəniz xüsusi təyinatlıları "SAT-SAS-2024" təlimində iştirak edirlər

2024-cü ilin hazırlıq planına əsasən, Azərbaycan və Türkiyə respublikalarının Hərbi Dəniz Qüvvələrinin (HDQ) sualtı hücum və sualtı müdafiə bölmələri ilə qardaş ölkədə "SAT-SAS-2024" birgə təlimi keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Türkiyə Respublikasının Marmaris şəhərinin Aksaz dəniz bazasında keçirilən birgə təlimdə dəniz xüsusi təyinatlıları hədəf gəmilərinin zəbt edilməsi üzrə tapşırıqları yüksək peşəkarlıqla yerinə yetiriblər.

Təlimin növbəti günlərində plana əsasən, hər iki ölkənin xüsusi təyinatlı bölmələri quru və dəniz döyüş taktikalarının işlənməsi, helikopterdən enmə üsullarının yerinə yetirilməsi, şərti sahil ərazisinin zəbt edilməsi, partlamamış döyüş sursatlarının və dəniz minalarının axtarışı, eləcə də məhv edilməsi üzrə tapşırıqları icra edəcəklər.

Qeyd edək ki, birgə təlim noyabrın 29-dək davam edəcək.



«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədr müavini Aydın Axundova qardaşı

**AKİF AXUNDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı şəhəri 6 saylı Vəkil Bürosunun kollektivi Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyəti sədrinin müavini Aydın Axundova qardaşı

**AKİF MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

COP29 Baku Azerbaijan

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4219
Sifariş 2651

Qiyməti 60 qəpik